RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 86 (9831) 30 aprel 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Etimadın güclənməsinə xidmət edən səfər

## Azərbaycan-İran əlaqələrində yeni dövr başlanır

İran Prezidentinin səfəri zamanı mübadilə olunan sənədlər iki dövlət arasındakı əlaqələrin hüquqi bazasını daha da gücləndirir. Onların arasında prezidentlərin Birgə Bəyanatı xüsusi qeyd edilməlidir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bu, çox ciddi sənəddir və gələcək əməkdaşlıq üçün bizə yol göstərən sənəddir. Prezidentlər səviyyəsində imzalanmış sənəd həm də hər iki tərəfin əlaqələrin inkişafı baxımından xoş niyyətini göstərir.

Səfər zamanı keçirilən tədbirlərdən biri də Azərbaycan-İran biznes-forumu oldu. Forumda İrandan gələn 120 nəfərdən çox iş adamının iştirak etməsi bu ölkənin biznes dairələrinin ölkəmizdə fəaliyyət göstərməyə olan marağından xəbər verir. Eyni zamanda bu, Azərbaycandakı əlverişli biznes mühitinin göstəricisidir. Respublikamızda isə bizneslə məşğul olmaq üçün imkanlar böyükdür. O cümlədən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən işlər iş adamları üçün geniş imkanlar yaradır. Elə buna görə Prezident İlham Əliyev həm də İran şirkətlərini Azərbaycanda həyata keçirilən infrastruktur layihələrində iştiraka dəvət etdi. "Erməni işğalından azad edilmiş ərazilərdə hazırda geniş quruculuq işləri gedir. Biz kəndləri, şəhərləri demək olar ki, sıfırdan qururuq. Çünki işğal dövründə Ermənistan bizim bütün şəhər və kəndlərimizi yerlə yeksan etmişdir. Ona görə orada böyük iş imkanları yaradılır və istərdim ki, İrandan, bizim dost, qardaş ölkədən olan biznesmenlər bu istiqamətdə də işləsinlər", - deyə dövlətimizin başçısı bildirdi.

Hazırda iki dövlət tərəfindən Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə İran ərazisindən birləşdirən layihə uğurla icra olunur. Bu istiqamətdə Azərbaycan tərəfindən aparılan işlər demək olar ki, tamamlanıb. Araz çayı üzərində Azərbaycan tərəfinə düşən körpünün inşası demək olar ki, hazırdır, o cümlədən sərhəd-keçid məntəqəsinin inşası prosesi gedir. Azərbaycan bu layihənin reallaşmasına strateji yanaşır və Prezident İlham Əliyevin dediyi kimi, bu, sadəcə olaraq, bu bölgənin layihəsi deyil: "Biz hesab edirik ki, bu, Asiyadan Avropaya uzanan nəqliyyat dəhlizinin bir qolu olmalıdır. Bir tərəfi Aralıq dənizinə, bir tərəfi Fars körfəzinə uzanan yeni nəqliyyat bağlantı dəhlizi olmalıdır və bir çox ölkələr bundan fayda götürəcək".

→ 5

# Məsud Pezeşkian Azərbaycana səfərini əməkdaşlıq üçün yeni üfüqlərin açılmasında müqəddimə adlandırıb

İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycana etdiyi rəsmi səfəri başa vurduqdan sonra "X" sosial şəbəkədəki platformasında Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü ifadə edən mesaj yazıb.




AZƏRTAC xəbər verir ki, İran Prezidenti mesajında qeyd edib: "Bakıda hörmətli qardaşım Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə anlaşmamız olub və sənədlər imzalamışıq. Bu səfər etimadın artırılmasına, elmi, iqtisadi, mədəni və təhlükəsizlik sahələrində hərtərəfli əməkdaşlıq üçün yeni üfüqlərin açılmasına müqəddimədir.

Qonaqpərvərliyə görə cənab İlham Əliyevə təşəkkür edirəm".

# Azərbaycan Qlobal Cənubun güclü səsinə çevrilir



Son dörd il ərzində Azərbaycanın dünyada BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına (QH) uğurla sədrlik etməsi də ölkəmizə olan qlobal etimada təkan verib. Bu hərəkata sədrliyinin COVID-19 pandemiyasının dünyada tüğyan etdiyi bir zamanla üst-üstə düşməsinə baxmayaraq, Azərbaycanın həmin çətin dövrdə də QH sədrliyi qismində mühüm beynəlxalq təşəbbüslərlə çıxış etməsi, qlobal problemdən həmrəylik sayəsində çıxmaq üçün effektiv təkliflər irəli sürməsi və onların üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənməsi sayəsində bu dünya miqyaslı bəladan birgə çıxış üçün geniş imkanlar yaranıb.

Eyni zamanda ölkəmizin müvəffəqiyyətlə evsahibliyi etdiyi beynəlxalq iqlim sammiti olan COP29-da bəşəriyyət adına mühüm qərarların qəbul olunması və nailiyyətlərin qazanılması da beynəlxalq ictimaiyyət tərəfindən təqdirlə qarşılanıb.

→ 6

# Gəncə III MDB Oyunlarına hazırlaşır



Təməli Heydər Əliyev tərəfindən qoyulan idman siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. 2024-cü ilin aprelində Prezidentin şəhərimizə növbəti səfəri zamanı istifadəyə verilən Gəncə İdman Sarayı bunun bariz nümunəsidir. Ümumi sahəsi 40 min kvadratmetrə yaxın olan idman sarayında bütün zəruri infrastruktur var. Böyük zalda beynəlxalq standartlara uyğun basketbol, voleybol, həndbol, minifutbol və atletika oyunlarının keçirilməsi nəzərdə tutulur. Zalda 2200 nəfərlik oturacaq yeri olan tribuna, 850 nəfərlik mobil oturacaq və fiziki məhdudiyyəti olan tamaşaçılar üçün müvafiq yerlər ayrılmışdır. Burada həmçinin VIP bölmə, idmançılar və hakimlər üçün müxtəlif təyinatlı sahələr də yaradılmışdır.

İdman sarayındakı üzgüçülük hovuzu Beynəlxalq Üzgüçülük Federasiyasının standartlarına tam cavab verir. Uzunluğu 50, eni 21, dərinliyi 3 metr olan hovuzda 4, 2,2 və 1,2 metrə qədər qalxa bilən mobil hərəkətli döşəmə quraşdırılmışdır.

→ 8

*Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxs:*

# "Talış kəndi istiqamətində yenicə basdırılmış 59 mina zərərsizləşdirdik"

Təqsirləndirilən Ruben Vardanyan və onun vəkili Avraam Berman məhkəmə kollegiyasına etiraz ediblər. Təqsirləndirilən şəxsin müdafiəçisi A.Berman etirazı əsaslandıran zaman əvvəlki məhkəmə proseslərində verilən çoxsaylı vəsatətlərinin bir qisminin təmin olunmadığını, eləcə də hazırkı vaxtadək olan bütün məhkəmə iclas protokolları ilə tam tanış ola bilmədiklərini qeyd edərək, işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olduğunu və



bu səbəbdən məhkəmə kollegiyasına etiraz etdiklərini deyib.

R.Vardanyan etirazı müdafiə edib.

Dövlət ittihamını müdafiə edən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev etiraza münasibət bildirərək deyib ki, qeyd olunan məsələlərlə bağlı məhkəmə əvvəlki proseslərdə artıq mövqeyini ifadə edib. O əlavə edib ki, məhkəmə iclas protokolları ilə tanış olmaq üçün müdafiə tərəfinə lazımi şərait yaradılır.

→ 9

# Ermənistanda keçmiş hərbi xunta insanları küçə döyüşlərinə çağırır

Qarşıdakı dövrdə Ermənistanı ciddi xaos, kəskin qarşıdurma gözləyir. Ermənistanın ikinci prezidenti Robert Koçaryan "Erməni Universiteti"nin tələbələri və müəllimləri ilə görüşündə deyib ki, effektiv olmaq üçün ölkənin döyüşə hazır ordusu olmalıdır: "Kifayət qədər mürəkkəb regionda yaşayırıq və mən sadəcə olaraq əminəm ki, bu regionda ya faktor olmalısan, ya da britaniyalıların dediyi kimi, süfrədə deyilsənsə, deməli, menyudasan. İndi ya menyuda, ya da faktor olmalıyıq. Döyüşə hazır orduya sahib olmaq üçün bizim həm də hərbi-siyasi müttəfiqlərimiz olmalıdır. Biz Çin və Rusiya deyilik. Bu məsələləri çox tez həll etmək lazımdır. Bunu bərpa etməsək, bu bölgənin menyusunda olacağıq".

"Bu regionda hər bir qeyri-sabit vəziyyət bizim üçün böyük risklər, çox böyük risklər yaradacaq və Zəngəzuru almaq həvəsi Azərbaycan üçün çox böyük olacaq. Bunun təhlükəsi var. Həm Zəngəzurla, həm də Göyçənin bir hissəsi ilə bağlı təhlükə var. Sənin dənizin yoxdur. Sənaye imkanlarının inkişafı üçün heç bir addım atılmayıb. Bu dəyişməlidir. Hətta deyə bilmərəm ki, atılmalı olan ilk addım təhlükəsizlik məsələsidir. Təhlükəsizlik məsələləri həll edilməsə, bütün digər məsələlər risk altına düşəcək", - deyə R.Koçaryan vurğulayıb.

→ 9

# Fransa hökumətinin mahiyyəti - neokolonializm siyasəti




Yeni Kaledoniyada, Korsikada, Afrikada, Mayotda, Fransa Polineziyasında və başqa ölkələrdə müstəmləkəçilik siyasətinə qarşı çıxaraq öz etiraz səslərini ucaldan yerli sakinlər işgəncələrlə üzləşir, həbs olunurlar. Çünki dünyanın ən böyük müstəmləkəçi dövlətlərindən biri olan Fransa sərhədlərindən min kilomerlərlə uzaqda yerləşən həmin ölkələri istismar etməkdə, talamaqda davam etmək üçün hər cür qanunsuzluq törətməkdən çəkinmir. Nəticədə, Fransanın neokolonializm siyasəti yüz illər əvvəl olduğu kimi, bu gün də bir sıra ölkələrin faciələrinə səbəb olur. Rəsmi Paris isə yürütdüyü bədnam neokolonializm siyasətindən əl çəkmək niyyətində olmadığını hər addımda nümayiş etdirir. Müstəmləkəsi altında olan ölkələrin yerli sakinləri isə artıq əvvəlki illərlə müqayisədə daha qətiyyətlidirlər. Onlar hüquqlarını əllərindən alan, onlara əzab-əziyyətlər, dərd-ələm, faciələr gətirən müstəmləkə zəncirlərindən xilas olmaq üçün təhlükəsiz gələcək yolunda apardıqları mübarizələrdən geri çəkilmirlər.

Görünən odur ki, neokolonializm siyasətini hər vəchlə davam etdirən Emmanuel Makron hökuməti Fransanın keçmiş müstəmləkələrinə müstəqillik verməmək, əsarəti altında saxlamaqda davam etmək naminə bütün vasitələrə əl atmaqdadır.

→ 9

# Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 8 aprel tarixli 1658 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qaz təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 437 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 576 (Cild I) 2.20-ci bəndindən "və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti" sözləri çıxarılsın.

2. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 aprel tarixli 1658 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 319 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 aprel 2025-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 noyabr tarixli 235 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 806 (Cild I) ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı" hissəsinin 8.7.11-ci yarımbəndinin "Əsas icraçı orqan (qurum)" sütununda "NMR NK" akronimi "ADSEA" akronimi ilə, "Digər icraçılar" sütununda "ADSEA" akronimi "NMR NK" akronimi ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 aprel 2025-ci il*

# Azərbaycan Respublikasının bəzi səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi ilə bağlı əlavə tədbirlər və "Azərbaycan Respublikasının bəzi xarici ölkələrdəki səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 mart tarixli 2093 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsilalma imkanlarının təbliğini və xarici dövlətlərlə təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsini, Azərbaycan Respublikası vətəndaşlarının xarici dövlətlərin təhsil müəssisələrində təhsil almasına və təhsil hüquqlarının müdafiəsinə dəstək verilməsini, eləcə də bu istiqamətdə müvafiq əlaqələndirməni təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyində təhsil məsələləri üzrə müşavir vəzifəsi təsis edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. "Azərbaycan Respublikasının bəzi xarici ölkələrdəki səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 mart tarixli 2093 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 227 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adından "xarici ölkələrdəki" sözləri çıxarılsın;

3.2. 1-ci hissədən "Almaniya Federativ Respublikası," və "Fransa Respublikası," sözləri çıxarılsın;

3.3. 2-ci hissəyə "Təhsil Nazirliyinin" sözlərindən əvvəl "Elm və" sözləri əlavə edilsin;

3.4. 3-cü hissəyə "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 aprel 2025-ci il*

# Bakıda Əfqanıstanla bağlı beynəlxalq tədbir keçirilib

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı və 20 ölkənin xüsusi xidmət orqanları nümayəndələrinin iştirakı ilə Bakı şəhərində "Əfqanıstan: regional təmaslar, təhlükəsizlik və inkişaf" mövzusunda beynəlxalq konfrans keçirilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən verilən məlumata görə, tədbiri açan DTX-nin rəisi general-polkovnik Əli Nağıyev Əfqanıstana dair bundan əvvəl keçirilmiş toplantıların davamı olaraq, budəfəki konfransın Bakı şəhərində təşkil edilməsini önəmli hadisə kimi qiymətləndirib, beynəlxalq tədbirin Əfqanıstanda mərkəzləşdirilmiş, beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunan dövlətin bərqərar edilməsinə əhəmiyyətli töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Xidmət rəisi uzun illərin sınağından çıxmış və qarşılıqlı etimad əsasında qurulmuş Azərbaycan-Əfqanıstan əlaqələrindən, eləcə də xalqlararası dərin tarixi-mədəni bağlılıqdan danışaraq qeyd edib ki, Azərbaycan hər zaman Əfqanıstanda daxili siyasi sabitliyin və təhlükəsizliyin təmin olunması üçün irəli sürülən beynəlxalq təşəbbüsləri dəstəkləyib, bu istiqamətdə səylərini heç bir vaxt əsirgəməyib.

General-polkovnik Əli Nağıyev Əfqanıstana transmilli mütəşəkkil cinayətkarlığa, o cümlədən beynəlxalq terrorçuluğa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə və qeyri-qanuni miqrasiyaya qarşı apardığı mübarizədə dünya ölkələrinin hərtərəfli dəstək verməsinin zəruriliyinə diqqət çəkib.

Əfqanıstanda vəziyyətin gərgin qalmasında maraqlı olan pozucu qüvvələrin və terror qruplaşmalarının destruktiv cəhdlərinin qarşısının alınmasında vahid mövqe ortaya qoyulmasının tədbirin keçirilməsində əsas məqsədlərdən biri olduğunu vurğulayan xidmət rəisi, Əfqanıstanın beynəlxalq münasibətlər sistemində öz yerini tutmasının, bu ölkədə əmin-amanlığın təmin edilməsinin vacibliyini diqqətə çatdırıb, bütün bunlar üçün region ölkələrinin və digər dövlətlərin koordinasiyalı fəaliyyət və birgə səy göstərəcəklərinə inamını ifadə edib.

Konfransda digər ölkələrin təmsilçiləri də mövzu ilə bağlı çıxışlar edib, tədbirin Əfqanıstanda sülhün və təhlükəsizliyin təminatı yönündə daha ciddi addımların atılmasına lazımi imkanlar açacağına, beynəlxalq aləm tərəfindən Əfqanıstanda davamlı sabitliyin formalaşmasına dəstək göstəriləcəyinə inandıqlarını bildiriblər.

# Siyasi partiya sədrlərinin birgə səfərlərinin növbəti ünvanı Laçın şəhəridir







Ölkəmizdə fəal şəkildə təşviq olunan siyasi dialoq mühiti və bununla əlaqədar formalaşmaqda olan yeni siyasi mədəniyyət çərçivəsində siyasi partiya sədrlərinin işğaldan azad edilmiş ərazilərə birgə səfərlərinin təşkili Azərbaycan ictimaiyyəti tərəfindən artıq müsbət demokratik ənənə kimi qəbul olunur. Milli həmrəylik təzahürü ilə təcəssüm olunan və ictimaiyyət tərəfindən təqdir edilən bu demokratik təcrübə siyasi proseslərdə iştirak edən tərəflər arasında etibarlı və işgüzar münasibətləri daha da dərinləşdirir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində mütəmadi şəkildə müxtəlif səpgili layihələr icra edilir. Görüşlər, açıq müzakirələr, teledebatlar, peşəkar diskussiyalar, birgə səfərlər, konfranslar və bu kimi digər layihələr siyasi proseslərdə iştirak edən tərəflər arasında etibarlı əməkdaşlıq münasibətlərinin bərqərar olunmasına xidmət göstərir. Azərbaycan ictimaiyyəti təqribən son beş il ərzində iqtidarın mövcud istiqamətdəki davamlı təşəbbüslərinin şahididir. Siyasi dialoq ilə əlaqədar hökumət tərəfindən atılan bütün təşəbbüslər mediada açıq şəkildə işıqlandırılır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev öz çıxış və müsahibələrində siyasətdə sağlam münasibətlərin bərqərar olunması, siyasi dialoq mühitinin əhəmiyyəti və konstruktiv əməkdaşlığın vacibliyi kimi önəmli demokratik məzmunlu təzahürləri prinsipial və davamlı şəkildə qeyd edir.

Siyasi partiya rəhbərlərinin işğaldan azad olunmuş ərazilərə birgə səfərlərinin təşkili təcrübəsi konkret məsələlərin müzakirəsi üçün işgüzar mühiti yaratmaqla tərəflər arasında konstruktiv əməkdaşlığı təşviq edir. Xatırladaq ki, sağlam və səmərəli əməkdaşlıq mühitinin bərqərar olunmasına xidmət edən siyasi partiya rəhbərlərinin birgə səfərləri daha əvvəl Ağdam, Şuşa (2 dəfə), Zəngilan, Xocalı, Əsgəran və Xankəndiyə təşkil olunub.

Ölkəmizdə yaşanan siyasi dialoq mühiti sayəsində müxalif siyasi partiyalar, eyni zamanda, beynəlxalq tədbirlərdə də tərəf müqabili kimi iştirak edirlər. Belə ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə birgə səfərlərlə yanaşı, ölkə siyasiləri, həmçinin Şuşa Bəyannaməsinin birinci ildönümü ilə əlaqədar 2022-ci il iyunun 15-də Şuşa şəhərində keçirilmiş "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" adlı beynəlxalq konfransa da qatılıblar. Bununla da siyasi partiyalar cəmiyyətin intellektual potensialının səfərbər edilməsi kimi dövlət üçün mühüm və strateji vəzifənin icrasını təmin etmiş olurlar.

AZƏRTAC xəbər verir ki, növbəti, artıq sayca 6-cı olan birgə səfərin ünvanı Laçındır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə aprelin 29-da həyata keçirilmiş səfərdə ümumilikdə 80 nəfər olmaqla, 24 siyasi partiyanın sədr və nümayəndələri, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər iştirak ediblər. Səfər çərçivəsində Zabuxçay su anbarı, Laçın şəhəri, o cümlədən Heydər Əliyev küçəsi, "Lacinema" kino mərkəzi, "Hoçazfilm" kinopavilyonu və Bəylik kəndində aparılan bərpa və yenidənqurma işləri ilə tanışlıq olub, habelə "Zerti Aqro-Sənaye Parkı"nda fəaliyyət göstərən müəssisələr haqqında ətraflı məlumatlar verilib.

Səfər zamanı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Laçın şəhərində iştirakçılar qarşısında çıxış edərək ötən dövr ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı şəkildə təşviq olunan həmrəylik mühitinin strateji əhəmiyyəti və mövcud istiqamətdə görülmüş işlər haqqında geniş məlumat verib.

Ölkədə həmrəylik mühitinin qorunmasında siyasi partiyaların müstəsna əhəmiyyətini vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə bütün dünya azərbaycanlılarının qürur mənbəyidir. Vətənpərvər qüvvələri birləşdirən əsas amilin milli maraqlar və dövlətçilik mövqeyi olduğunu qeyd edən Ədalət Vəliyev bildirib ki, Laçının timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan bərpa-quruculuq işlərinin səviyyəsi haqqında təsəvvürlər formalaşa bilər. İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafının müasir Azərbaycan tarixinin ən qürurlu səhifələrindən olduğunu bildirən Administrasiya rəsmisi mövcud istiqamətdə Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş müvafiq dövlət proqramlarından da söhbət açıb.

Suverenliyin tam bərpasının Azərbaycan tarixinin mahiyyət və keyfiyyət etibarilə yeni inkişaf mərhələsi olduğunu xüsusi vurğulayan Ədalət Vəliyev diqqətə çatdırıb ki, ölkəmizdə yaşanan milli həmrəylik mühiti sabitlik və dayanıqlı inkişafın zəmanətidir. Siyasi dialoqda fəal iştirak edən siyasi partiyalar həmrəylik mühitinin qorunmasına öz töhfələrini verirlər. Odur ki, siyasi partiyaların Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan bu cür layihələrdə fəal iştirakı bilavasitə milli və siyasi həmrəyliyin təzahürüdür.

Səfər çərçivəsində siyasilər Laçının iqtisadi, habelə turizm potensialı ilə də tanış olublar. İştirakçılara bildirilib ki, Laçının turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Nəzərə alınmalıdır ki, yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq.

Hökumətin bu cür təşəbbüslərində siyasi partiyaların fəal iştirakı sayəsində siyasətdə konstruktiv əməkdaşlıq, dövlət naminə şəxsi ambisiyalardan imtina olunması, milli həmrəylik, habelə etibarlı münasibətlər təmin edilir. Əlamətdar və müsbət haldır ki, sözügedən səfərlər Prezident İlham Əliyevin yerlərdə yeni yaşayış məkanların rəsmi açılışlardan və Qarabağa köçmüş sakinlər ilə görüşlərdən sonra təşkil olunur. Sözügedən hal bir daha ölkəmizdə sağlam iqtidar-müxalifət münasibətlərinin mövcudluğundan xəbər verir.

# Birləşmiş Krallığın dövlət naziri Ermənistanın mina təhdidi barədə məlumatlandırılıb

Aprelin 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Birləşmiş Krallığın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti arasında telefon danışığı baş tutub.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı iki ölkə arasında gündəlikdə duran məsələlər, ikitərəfli və regional əməkdaşlıq mövzuları, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, habelə mina təhdidi barədə məlumatlandırıb. O, Ermənistanla normallaşma gündəliyinə də toxunaraq, Azərbaycan tərəfinin təşəbbüskarı olduğu sülh sazişi üzrə danışıqlar prosesində əldə olunmuş irəliləyişlər və bu prosesin uğurla yekunlaşmasının qarşısında duran əsas maneələrdən bəhs edib. Ermənistan Konstitusiyası və digər qanunvericilik aktlarında ölkəmizə qarşı ərazi iddialarından imtina edilməsinin Cənubi Qafqazda dayanıqlı sülhə nail olunması baxımından müstəsna əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Telefon danışığında, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Leyla Əliyeva və Arzu Əliyeva Türk Mədəniyyəti və İrsi Fondunu ziyarət ediblər











Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Türk Mədəniyyəti və İrsi Fondunun (TMİF) inzibati binasını ziyarət ediblər.



AZƏRTAC xəbər verir ki, TMİF-in prezidenti Aktotı Raimkulova qonaqları salamlayaraq rəhbərlik etdiyi qurum tərəfindən türk xalqlarının ortaq irsinin qorunması istiqamətində görülən işlər barədə məlumat verib. Leyla Əliyeva türk dünyasının zəngin tarixinin və mədəniyyətinin dünyaya tanıdılması məqsədilə TMİF-in atdığı addımları yüksək qiymətləndirib və həyata keçirilən layihə və tədbirlərdə gənclərin iştirakının daha da artırılmasının vacibliyini vurğulayıb.

TMİF-in muzeyində təqdim olunan ənənəvi sənətkarlıq nümunələri və türk xalqlarının maddi-mədəni irsini əks etdirən digər eksponatlarla tanış olan Leyla Əliyeva və Arzu Əliyeva, həmçinin müxtəlif türk musiqi və rəqs nümunələrindən ibarət mədəni proqramı izləyiblər. Yekunda Leyla Əliyeva TMİF-in xatirə kitabına ürək sözlərini yazıb.

Qeyd edək ki, Türk Mədəniyyəti və İrsi Fondu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. Fondun fəaliyyət istiqamətlərinə türk mədəniyyətinin və irsinin qorunması, bərpası və təbliği ilə bağlı müxtəlif layihə və tədbirlərin icrası, dəstəklənməsi daxildir.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə Respublikaları üzv, Macarıstan isə müşahidəçi dövlət qismində TMİF-in fəaliyyətində iştirak edir. Təşkilatın mənzil-qərargahı Bakı şəhərində yerləşir.

# Türkiyənin "Roketsan" şirkətinin nümayəndələri BMU-da olublar

Bakı Mühəndislik Universitetinin (BMU) rektoru Yaqub Piriyev Türkiyənin raket istehsalı ilə məşğul olan "Roketsan" şirkətinin Azərbaycandakı təmsilçisi "Azroksan"ın rəhbərliyi ilə görüşüb. Görüşdə "Bayraktar Teknoloji Azerbaycan" və Sumqayıt Texnologiyalar Parkının (STP) nümayəndələri də iştirak ediblər.





Bu barədə AZƏRTAC-a BMU-dan məlumat verilib.

Təmsil etdiyi şirkət haqqında ətraflı informasiya verən Mehmet Ali Tahancalıo "Azroksan"ın Türkiyənin raket istehsalı ilə məşğul olan "Roketsan" şirkətinin Azərbaycandakı təmsilçisi kimi fəaliyyət göstərdiyini bildirib. "Roketsan" ilə STP-nin birlikdə yaratdığı "Azroksan"ın hədəflərini diqqətə çatdıran qonaq şirkətin müdafiə sənayesi üçün məhsullar istehsal və dizayn etmək, eləcə də satışını həyata keçirmək istiqamətində çalışdığını deyib. Habelə bunun üçün bacarıqlı mühəndislərə ehtiyac duyulmasından, BMU ilə əməkdaşlığın əhəmiyyətindən, mexanika, elektrik və elektronika, kimya mühəndisliyi ixtisaslarında təhsil alan tələbələrə şirkətdə, həmçinin Türkiyədə nüfuzlu müəssisələrdə təcrübə imkanlarının yaradılması mümkünlüyündən danışıb.

Görüşdə BMU haqqında qonaqlara geniş məlumat verən rektor Yaqub Piriyev universitetin mövcud imkanları, elmi-tədqiqat potensialı, Cənubu Koreya və Çin universitetləri ilə ikili diplom proqramları barədə zəruri informasiyaları təqdim edib. Universitet-sənaye işbirliyinin əhəmiyyətini vurğulayan rektor bu baxımdan qardaş ölkə olan Türkiyənin nüfuzlu şirkətləri, o cümlədən "Bayraktar Texnoloji Azerbaycan" ilə qurulan əlaqələrə, bu yaxınlarda imzalanmış müqaviləyə diqqət çəkib. Yaqub Piriyev universitetdə nəzərdə tutulan yeniliklər, eləcə də BMU tələbələrinin uğurlu startap layihələrindən ətraflı bəhs edib və mümkün əməkdaşlıq istiqamətlərini vurğulayıb.

STP şirkətlər qrupunun rəsmisi Nigar Bayramova görüşdə "Sabahın gücü" inkişaf proqramı haqqında məlumat verib. Proqramın mühəndislik sahəsində təhsil alan gənclərin sənaye mühəndisliyi istiqamətində peşəkar inkişafını yüksəltmək məqsədilə yaradıldığı qeyd olunub.

Müzakirələrlə davam edən görüşdə yaxın gələcəkdə BMU ilə "Azroksan" arasında əməkdaşlıq müqaviləsinin imzalanması məsələsi nəzərdən keçirilib.

Sonda qonaqlar BMU-nun laboratoriyaları, texnoparkı ilə tanış olublar.

# Bakıda ICESCO-nun regional ofisinin rəsmi açılış mərasimi olub

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva tədbirdə iştirak ediblər















Aprelin 29-da Bakıda "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində ICESCO-nun Azərbaycanda yeni istifadəyə verilmiş regional ofisinin rəsmi açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Həmçinin tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki, elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəyli, Özbəkistan, Tacikistan, Qazaxıstan və Qırğızıstanın Azərbaycandakı səfirləri, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova və Azərbaycanda akkreditə olunmuş digər ölkələrin səfirləri, Azərbaycanın ictimai-siyasi xadimləri iştirak ediblər.

ICESCO-nun Bakı ofisinin rəhbəri Abdulhakeem Alsenan bu tarixi əhəmiyyətli tədbirdə iştirak edən hər kəsə təşəkkürünü bildirib.

Sonra tədbirdə çıxış edən ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki deyib: "Bu gün biz burada, ICESCO-nun yeni regional ofisinin açılışını qeyd edirik, uzun müddətdir arzuladığımız bir xəyala nəfəs veririk. Bu, əlaqələr qurmaq, əməkdaşlıq etmək arzusu və müdriklik, bilik və ortaq məqsədlə qurulmuş gələcəklə bağlı bir xəyaldır. Burada - əsrlər boyu sivilizasiyaların qovuşduğu yer və sülhün beşiyi olan Bakının mərkəzində təhsil, elm, mədəniyyət və kommunikasiyanın, müasirliyin və adət-ənənənin harmoniya içində qovuşduğu bir mərkəz olacaq regional ofisin açılışında iştirak edirik".

Bu regional ofisin Azərbaycana və Mərkəzi Asiyanın ICESCO-nun üzvü olan dövlətlərinə xidmət göstərəcəyini, regionun digər ölkələrinə də öz töhfəsini verməklə yanaşı, əməkdaşlıq və mükəmməllik ruhunu təşviq edəcəyini vurğulayan Salim bin Məhəmməd əl-Maliki deyib: "Əziz dostlar, bu nailiyyət heç də təsadüfən əldə edilməyib. Bu, həqiqi liderliyin, aydın baxışın və daha yaxşı gələcəyə olan davamlı sadiqliyin bəhrəsidir. Parlaq müdrikliyi və biliyin qüdrətinə olan dərin inamı hamımız üçün bir işıq kimi saçan lider, Zati-aliləri Prezident İlham Əliyevə səmimi minnətdarlığımızı bildiririk. Onun davamlı dəstəyi bu baxışı reallaşdırıb. Həmçinin Zati-aliləri, ICESCO-nun xoşməramlı səfiri, təhsilə, mədəniyyətə və insanlığa olan sevgisi ilə bu layihənin reallaşmasına təkan verən Birinci vitse-prezident Mehriban Əliyevaya da minnətdarlığımızı bildiririk.

Bu gün fəxri qonaq qismində tədbirə qoşulan Zati-aliləri Leyla xanıma və Arzu xanıma bizi hörmətlə qarşıladıqlarına və ICESCO ilə Heydər Əliyev Fondu arasında əməkdaşlığın həqiqi çempionu olduqlarına görə xüsusi olaraq səmimi minnətdarlığımızı bildiririk".

Bu ofisin xüsusi bir ofis olacağını vurğulayan Salim bin Məhəmməd əl-Maliki qeyd edib: "Bu ofis fərqli şəkildə fəaliyyət göstərəcək. Fərqli ideyalara sahib olacaq. O, məqsədlərinə fərqli şəkildə çatacaq. O, üzv dövlətlərimizlə möhkəm əməkdaşlıq ruhu ilə döyünən, təhsil, mədəniyyət, elm, kommunikasiya sahələrində yeni tərəfdaşlığın ritmlərini əks etdirən canlı bir ürək olacaq.

ICESCO-nun strateji məqsəd və vəzifələrini inkişaf etdirməklə yanaşı, Bakı ofisi ətraf mühitimizi müdrikliklə və təcili olaraq qorumaq, bəşəriyyətə xidmət etmək üçün süni intellekti daha da inkişaf etdirmək, diqqəti sabahın memarları olan gənclərimizə yönəltmək və dəyərli irsimizin, kimliyimizin ruhunun qorunub saxlanılması kimi məqsədlərə xidmət edəcək. Bu ofisdə ilhamverici layihələr və yeni ideyalar yaradılacaq. Burada ölkələr və nəsillər arasında əlaqələri möhkəmləndirən bağlar yaranacaq.

Biz ICESCO olaraq bu mərkəzi xəyallarla, müdrikliklə və biliklə qurmağı seçirik. Bu yeni regional ofis xəyalpərəstləri, o cümlədən bunun reallaşmasını mümkün edən liderləri ləyaqətə, biliyə, mədəniyyətə, sülhə və xüsusilə də gələcəyin formalaşmasında birgə işləməyə çağıran, onlara bələdçilik edən, yollarını işıqlandıran bir mayak olacaq. Sizi bir daha əmin edirəm ki, bu ofis kökü müdriklik, budaqları sülh, meyvələri gələcək nəsillərə ümid mirası olan qüdrətli bir ağacın toxumu olacaq".

Daha sonra tədbirdə ICESCO-nun yaranma tarixi, Azərbaycanla qurulan ikitərəfli əlaqələr barədə videoçarx nümayiş olunub.

Sonda Leyla Əliyeva ofisin xatirə kitabına ürək sözlərini yazıb.

# Parlament həyatı

## İtaliyalı deputatlar Fəxri xiyabanı və Zəfər parkını ziyarət ediblər

Azərbaycanda səfərdə olan İtaliya parlamentinin Azərbaycanla dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyəti aprelin 29-da Fəxri xiyabanı və Zəfər parkını ziyarət ediblər.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri düzüb.

Səfər çərçivəsində italiyalı parlamentarilər Bakıda Zəfər parkına gələrək abidə önünə gül dəstələri düzüblər, Vətən müharibəsində həlak olanların xatirəsini ehtiramla anıblar. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib.




Qonaqları Milli Məclisin deputatı, Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimli və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

## Azərbaycan-İtaliya münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib



Aprelin 29-da Milli Məclisin Sədrinin birinci müavini Əli Əhmədov İtaliya parlamentinin Parlamentlərarası İttifaq yanında Azərbaycanla dostluq qrupunun üzvləri ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov İtaliya və Azərbaycan arasında iqtisadi, mədəni və siyasi sahələrdə yüksəksəviyyəli əməkdaşlığın mövcud olduğunu vurğulayıb. O, parlamentlərarası əlaqələrin iki ölkə arasında iqtisadi və siyasi dialoqun inkişafına müsbət təsir göstərdiyini bildirib. Əli Əhmədov İtaliyaya Azərbaycan neft və qazının ixracını iki ölkə arasında etibarlı tərəfdaşlığın bariz nümunəsi kimi dəyərləndirib. O həmçinin Azərbaycan ərazilərinin 30 il müddətində işğalda olduğu dövrdə İtaliyanın ölkəmizə göstərdiyi dəstəyi xüsusi qeyd edib.

Öz növbəsində, İtaliya Deputatlar Palatasının Ətraf mühit, ərazi və ictimai işlər komitəsinin üzvü Salvatore Kayata nümayəndə heyəti adından göstərilən səmimi qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. O, İtaliya və Azərbaycan dövlət başçılarının qarşılıqlı səfərlərinin ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynadığını xüsusi vurğulayıb. Salvatore Kayata İtaliya və Azərbaycan arasında inşaat sektorunda gələcək əməkdaşlıq perspektivlərinə toxunaraq, bu sahədə birgə layihələrin hər iki ölkənin iqtisadi inkişafına mühüm töhfə verəcəyini bildirib.

Görüşün sonunda tərəflər Azərbaycan-İtaliya münasibətlərinin gələcəkdə daha da inkişaf edəcəyinə və qarşılıqlı əməkdaşlığın yeni perspektivlər qazanacağına dair ümidlərini ifadə ediblər.

Görüşdə Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimli və digər rəsmi şəxslər iştirak ediblər



***

Dünən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ilə İtaliya parlamentinin Parlamentlərarası İttifaq yanında Azərbaycanla dostluq qrupunun üzvləri arasında görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov İtaliya parlamentinin Azərbaycanla dostluq qrupunun üzvü Salvatore Kayatanın rəhbərlik etdiyi nümayəndə heyətini salamlayaraq, onları Azərbaycan parlamentində görməkdən məmnunluq duyduğunu bildirib. Strateji əməkdaşlıq və tərəfdaşlıq səviyyəsinə yüksələn Azərbaycan-İtaliya münasibətlərindən bəhs edən komitə sədri qeyd edib ki, ikitərəfli əlaqələrin inkişafında hər iki ölkənin dövlət başçılarının mühüm rolu var. O, hazırda Azərbaycan ilə İtaliya arasında münasibətlərin bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası əlaqələrin uğurla inkişaf etdiyini vurğulayıb və əməkdaşlığın daha da möhkəmləndirilməsinin hər iki ölkənin maraqlarına cavab verdiyini qeyd edib.

İtaliya parlamentinin Parlamentlərarası İttifaq yanında Azərbaycanla dostluq qrupunun üzvü Salvatore Kayata göstərilən qonaqpərvərliyə və səmimi münasibətə görə təşəkkürünü bildirib. Qonaq ölkələrimiz arasında müxtəlif sahələrdə qurulmuş əlaqələrə toxunaraq, bu əməkdaşlığın və qarşılıqlı münasibətlərin daha da dərinləşdirilməsinin əhəmiyyətini vurğulayıb.

İki ölkə arasındakı dostluq münasibətlərinin tarixi və bu günü barədə fikirlərini bölüşən İtaliya parlamentinin üzvləri - deputat Naike Qruppioni, senatorlar Ernesto Rapani və Luici Nave, eləcə də sabiq senator Maria Rizzotti dövlətlərarası münasibətlərin inkişafından məmnun olduqlarını bildiriblər, parlamentlərarası əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğulayıblar.

Söhbət zamanı dövlətlərarası əlaqələrin inkişafında Azərbaycan və İtaliya xalqları arasında mövcud olan dostluq münasibətlərinin mühüm rol oynadığı xüsusi vurğulanıb, ortaq dəyərlərin bölüşüldüyü və xalqlarımız arasında qarşılıqlı rəğbətin yarandığı qeyd edilib, qanunverici orqanlarda fəaliyyət göstərən dostluq qruplarının səmərəli işindən məmnunluq ifadə olunub.

Görüşdə Milli Məclisin İtaliya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimli və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

## Tibb mütəxəssislərinin peşəkarlığının yüksəldilməsi üçün daha effektiv üsullardan istifadə ediləcək

Aprelin 29-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Musa Quliyev gündəliyə iki qanun layihəsinin daxil edildiyini bildirib.



Əvvəlcə Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) təqdim edilib.

Komitə sədri Musa Quliyev məsələ barədə danışaraq, komitənin profilinə uyğun olaraq Əmək Məcəlləsində nəzərdə tutulan dəyişikliklərə dair fikirlərini bölüşüb. O, bildirib ki, Əmək Məcəlləsinin 2 maddəsinə 7 dəyişiklik təklif olunur və bu dəyişikliklər tibb sahəsində çalışan işçilərin əmək münasibətlərinin və hüquqlarının təmin olunmasında, onların fəaliyyətinin yaxşılaşdırılmasında, peşəkarlığının artmasında böyük əhəmiyyət kəsb edir. O, nəzərə çatdırıb ki, dəyişikliklərdə davamlı peşəkar inkişafın (DPİ) tətbiqi, tibb işçilərinin peşə bilik və bacarıqlarının qorunub saxlanılması, inkişaf etdirilməsi, sertifikasiya imtahanından keçməyən işçinin təkrar sertifikasiya imtahanından keçənə qədər altı ay müddətində iş yeri və vəzifə maaşı saxlanılmaqla, müvafiq təhsil müəssisələrində peşə hazırlığı keçərək, təkrar sertifikasiya imtahanı üçün müraciət etmək imkanı və digər məsələlər ehtiva olunur.

Sonra parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qanun layihəsinin mahiyyəti barədə məlumat verib. O, diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihəsində 4 qanuna ümumilikdə 34 dəyişiklik təklif olunur. Əmək və sosial siyasət komitəsinin qanunvericilik sahəsinə aid olan Əmək Məcəlləsinə ediləcək dəyişikliklər "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda nəzərdə tutulan dəyişiklikdən qaynaqlanır, unifikasiya xarakterlidir və qanunlararası kolliziyanın aradan qaldırılması məqsədini daşıyır. Şöbə müdiri qeyd edib ki, layihədə təklif olunan yeni normalar tibb mütəxəssislərinin peşə yararlılığının, onların peşəkarlığının yüksəldilməsi üçün daha çevik və effektiv üsullardan istifadəni nəzərdə tutur. Belə ki, bu dəyişikliklər peşəkar inkişaf üçün daha geniş imkanlar yaradacaq, tibb mütəxəssislərini öz üzərlərində işləməyə motivasiya edəcək və onların beynəlxalq peşəkar mühitə inteqrasiyasına hüquqi zəmin yaradacaq.

Adil Vəliyev Əmək Məcəlləsinə təklif olunan müddəaları təqdim edərək bildirib ki, ölkəmizdə praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması məqsədilə onların imtahana cəlb olunması ilə sertifikasiyası həyata keçirilir. Təklif olunan yeni dəyişikliklərə əsasən, tibb işçilərinə şərait yaradılır ki, onlar öz sertifikat şəhadətnamələrini ya 5 ildən bir imtahan yolu ilə, ya da 5 il ərzində 250 kredit balı yığaraq imtahandan azad olunmaqla əldə etsinlər. Yəni onların peşə bilik və bacarıqlarının qorunub saxlanılması, inkişaf etdirilməsi və peşə yararlılığının yoxlanılması məqsədilə alternativ DPİ mexanizmi tətbiq olunacaq.

Digər dəyişiklikdə mövcud uyğunsuzluğun aradan qaldırılması üçün tibb mütəxəssislərinin ixtisaslarının dəyişdirilməsi məsələsinə dair "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda 48-ci maddənin 4-cü hissəsinin ləğvi ilə əlaqədar Əmək Məcəlləsinin 67-1-ci maddəsinin 3-cü hissəsinin yeni redaksiyada verilməsi təklif olunur.

Növbəti düzəlişə əsasən 67-1-ci maddənin 4-cü hissəsinin 1-ci cümləsində "Sertifikasiyadan qanunvericiliyə uyğun olaraq keçməyən" sözlərinin "Sertifikasiya şəhadətnaməsi olmayan və ya qüvvədə olmayan" sözləri ilə əvəz edilməsi təklif edilir.

Habelə, qeyd olunub ki, mövcud qanunvericiliyin tələblərinə əsasən sertifikasiya imtahanından keçməyən şəxs 6 ay ərzində hazırlaşıb yenidən imtahan verə bilər. Məcəlləyə edilən daha bir dəyişiklikdə bu müddət ərzində işçilərin aylıq vəzifə maaşının saxlanılması məqsədilə məcəllənin 67-1-ci maddəsinin 4-cü hissəsinin 2-ci cümləsinin yeni redaksiyada verilməsi təklif edilir. Məcəllədə nəzərdə tutulan digər 3 dəyişiklik dəqiqləşdirmə xarakteri daşıyır.

Məsələ ilə bağlı müzakirələrdə çıxış edən komitənin sədr müavini Elşad Musayev, üzvləri Soltan Məmmədov, Jalə Əliyeva, Səttar Möhbalıyev, Nigar Məmmədova fikir və qeydlərini bildiriblər. Komitə sədri Musa Quliyev qaldırılan məsələlərə münasibət bildirib. İclasda iştirak edən Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsi müdirinin müavini Təranə Əhmədova deputatların suallarını cavablandırıb.

Sonra iclasda Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Mülki Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə (üçüncü oxunuş) baxılıb.

Komitənin üzvü Nigar Məmmədova bildirib ki, təklif olunan dəyişikliklər qəyyumluq və himayəçilik orqanlarının razılığı ilə əlaqədar həmin orqanların qərarlarının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın informasiya sisteminə daxil edilməsi və həmin sistem vasitəsilə əldə edilməsi məqsədilə hazırlanıb və bu sahədə fəaliyyətin elektron informasiya sistemi üzərindən daha operativ həyata keçirilməsinə yönəlib.

İclasın yekununda gündəlikdəki qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

*"Azərbaycan"*

## Milli Məclisdə görüş

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, İordaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anar İsgəndərov aprelin 29-da İordaniya Haşimilər Krallığı Senatının üzvü Asia Abdel ilə görüşüb.



Qonağı salamlayan Anar İsgəndərov ölkələrimizin tarixi keçmişindən söz açıb, Azərbaycan və İordaniya arasında mədəni, dini, mənəvi oxşarlıqlara diqqət çəkib. Komitə sədri 44 günlük Vətən müharibəsində İordaniyanın Azərbaycana dəstəyini məmnunluqla xatırlayıb, ölkələrimiz və dövlət başçılarımız arasındakı münasibətlərin dost, qardaş münasibətləri olduğunu vurğulayıb. O, bundan sonra da əlaqələrimizin yüksək səviyyədə inkişaf edəcəyinə inamını bildirib.

Senator Asia Abdel səmimi görüşə və qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib. Bakıda keçirilən "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" adlı forumda iştirakından söz açıb. O, forum çərçivəsində keçirilən görüşlərin, aparılan müzakirələrin, tədbirdə Qlobal Cənub QHT Platformasının təsis edilməsinin əhəmiyyətini vurğulayıb.

İordaniyanın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu qeyd edən senator dövlətlərarası əlaqələrin möhkəmlənməsində İordaniya Kralı ilə Azərbaycan Prezidenti arasındakı dostluq münasibətlərinin rolunu vurğulayıb, əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Görüşdə deputatlar Mehriban Vəliyeva, Şahin Seyidzadə, Vasif Qafarov, "Vətəndaşların Sosial Rifahi Naminə" İctimai Birliyinin sədri İradə Rizazadə, həmin təşkilatın sədr müavini Nədimə Rəhimli çıxış ediblər. Çıxışlarda ikitərəfli və çoxtərəfli münasibətlərin dərinləşməsində parlamentlərin rolundan danışılıb, bu sahədə parlamentlərdə fəaliyyət göstərən dostluq qruplarının və parlamentarilərin qarşılıqlı səfərlərinin əhəmiyyəti qeyd olunub.

Söhbət əməkdaşlığımızın inkişafı və tərəfləri maraqlandıran digər mövzular ətrafında fikir mübadiləsi ilə davam etdirilib.

*"Azərbaycan"*

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider

**Ölkələr arasında siyasi əlaqələr güclü olanda, siyasi dialoqla dostluq və qardaşlıq münasibətləri bir-birini tamamlayanda iqtisadiyyatın inkişafı üçün də geniş meydan açılır. İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə rəsmi səfəri zamanı bu fikir dönə-dönə vurğulanıb. Konkret olaraq bu iki qonşu ölkə arasında ticarətin, biznesin, ayrı-ayrı iqtisadi sahələr üzrə əməkdaşlığın genişlənməsi onların dövlətlərinin və xalqlarının bir-birinə yaxşı qonşu, etibarlı dost münasibəti bəsləməsindən çox asılıdır.**



## Yaxın qonşuluqdan hərtərəfli əməkdaşlığa

### Azərbaycan-İran iqtisadi əlaqələrinin inkişafı üçün geniş perspektivlər və real ünvanlar var

Səfər çərçivəsində keçirilən tədbirlərdə və prezidentlərin mətbuata bəyanatlarında o da vurğulanıb ki, Azərbaycan-İran iqtisadi əməkdaşlığı üçün böyük perspektivlər mövcuddur. Bunlardan istifadə üçün fikir mübadilələri aparılıb və müəyyən yollar da göstərilib.

Azərbaycan-İran biznes-forumunda Prezident İlham Əliyev deyib: "Növbəti illərdə ticarət dövriyyəsinin artırılması üçün konkret addımlar atılmalıdır. Bu gün biz statistik rəqəmlərə baxdıqda görürük ki, iki ölkə arasındakı ticarət dövriyyəsi heç bir milyard dollara çatmır və əlbəttə ki, bu, bizi qane edə bilməz. Ona görə ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, müştərək müəssisələrin yaradılması və digər buna oxşar təşəbbüslər əlbəttə ki, təqdirəlayiq olacaq. Hesab edirəm ki, burada aparıcı rol Azərbaycan-İran hökumətlərarası komissiyaya məxsusdur. Mən komissiyanın fəaliyyətini yüksək qiymətləndirirəm. Komissiyanın həmsədrləri, üzvləri müntəzəm olaraq görüşürlər və hər bir görüşün böyük əhəmiyyəti var".

Azərbaycan və İran eyni zamanda önəmli beynəlxalq layihələrdə iştirak edirlər. Məsələn, "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsində. İndi arzu edilir ki, bu, sadəcə, nəqliyyat dəhlizi olmasın, həm Azərbaycan, həm də İran ərazisində yol boyunca yeni bizneslərin açılması, yeni sənaye müəssisələrinin yaradılması üçün imkan yaratsın. Hər iki ölkənin böyük iqtisadi potensialı, sahibkarlarının fəallığı buna imkan verir. Sadəcə olaraq iş adamlarının bir araya gətirilməsi gərəkdir. Dövlətimizin başçısı məhz bu məsələyə toxunub: "Onlara konkret layihələr təqdim olunmalıdır. Ölkələrimizin vergi sistemi, tariflər, sərmayə iqlimi, biznes sahəsindəki qanunvericilik - bütün bunlar iki ölkənin iş adamlarına aydın olmalıdır. Yəni qaydalar nədir, qanunlar nədir? Ondan sonra əlbəttə ki, böyük sərmayə qoyuluşundan söhbət gedə bilər. Mən hesab edirəm ki, uzun fasilədən sonra Azərbaycan və İran iş adamlarının belə mötəbər toplantısı, xüsusilə prezidentlərin iştirakı ilə biznes-forumun keçirilməsi çox ciddi bir addımdır və əlbəttə ki, biz iş adamlarımızdan konkret nəticələr gözləyirik".

Kiçik və orta sahibkarlığın inkişafının da həmişə diqqət mərkəzində olduğunu qeyd edən dövlətimizin başçısı əminliyini bildirib ki, biznes dairələri, Azərbaycanın və İranın iş adamları rəhbərlikdən, yəni siyasi rəhbərlikdən gələn bu mesajları düzgün qəbul edəcəklər və öz fəaliyyətlərində rəhbər tutacaqlar. Konkret işləri ilə iqtisadi və ticarət əlaqələrimizi daha da gücləndirəcəklər.

İran şirkətləri Azərbaycanda dövlət xətti ilə həyata keçirilən infrastruktur layihələrində iştirak etməyə dəvət olunub. Buraya dəmir və avtomobil yolları, kommunikasiya və elektrik xətləri layihələri aiddir. Eləcə də işğaldan azad edilmiş ərazilərimizdə hazırda geniş quruculuq işləri getdiyi nəzərə çatdırılıb.

Müzakirə edilən mövzular sırasında elektroenergetika məsələləri də vardı. Həm də təkcə elektrik stansiyalarının deyil, ötürücü xətlərin tikintisi də nəzərdə tutulur. Bu barədə Prezident İlham Əliyev belə deyib: "Burada da bu sahədə təcrübəsi olan şirkətlər üçün yaxşı fürsətlər, yaxşı imkanlar yaradılır. Biz gələcəkdə iki ölkə arasında həm ikitərəfli, həm də çoxtərəfli - qonşu ölkələrlə birlikdə formatda enerji mübadiləsi layihələrinə də baxa bilərik. Daha doğrusu, bu gün artıq bu, gündəlikdə duran məsələlərdən biridir. Azərbaycanda "yaşıl enerji"nin istehsalı prosesi artıq başlamışdır və bunun böyük gələcəyi var. Biz beş ildən sonra 6500 meqavat gücündə günəş, külək və su enerji potensialımızı ortaya qoyacağıq və bunun böyük hissəsi ixracyönümlü enerji növləridir. Bu istiqamətdə əlbəttə ki, indidən hazırlıq işləri aparılmalıdır. Eyni zamanda Araz dəhlizi layihəsi böyük diqqət cəlb edir, həm bölgəmizdə, həm dünyada, bu layihə ilə bağlı müxtəlif fərziyyələr, müxtəlif şayiələr gəzir. Əslində, buna heç bir əsas yoxdur. Çünki bu, sadəcə olaraq, yeni bir nəqliyyat, bağlantı layihəsidir və Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə İran ərazisindən birləşdirən bir layihədir. Burada eyni zamanda böyük tranzit imkanları yaranacaq. Bu, sadəcə olaraq, bu bölgənin layihəsi deyil. Biz hesab edirik ki, bu, Asiyadan Avropaya uzanan nəqliyyat dəhlizinin bir qolu olmalıdır".

Bu layihənin ərsəyə gəlməsində əsas rolun yenə də ölkələrimizin üzərinə düşdüyü və bu istiqamətdə Azərbaycan tərəfindən aparılan işlərin demək olar ki, tamamlandığı nəzərə çatdırılıb.

"O ki qaldı dəmir yolu körpüsünə, bu məsələ də müzakirə mövzusudur. Biz dəmir yolumuzu artıq gələn il İran sərhədinə, Zəngilan-Ağbənd istiqamətinə çatdıra bilərik və təbii olaraq İran ərazisində dəmir yolu inşası da nəzərdə tutularsa, o zaman bu da beynəlxalq nəqliyyat dəhlizi olacaq", - deyə Prezidentimiz biznes-forumdakı çıxışında bildirib.

İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın Azərbaycana rəsmi səfəri çərçivəsində hər iki dövlət başçısının iştirakı ilə imzalanan sənədlər də göstərir ki, iqtisadi əməkdaşlıq bundan sonra davamlı olaraq inkişaf edəcək. Bunu İranın Prezidenti Məsud Pezeşkian da vurğulayıb: "Beləliklə, bütün sahələrdə əməkdaşlıq edə bilərik. Elə bir bölgə yarada, ölkələr arasında elə bir əlaqə qura bilərik ki, Avropa ölkələri arasında olan əlaqələrdən daha üstün olsun. Bunun üçün yolları birləşdirək, maliyyə, ticarət əlaqələrimizi düzəldək, "Şimal-Cənub", "Şərq-Qərb" dəhlizlərini yaradaq. Bütün bunları qarşılıqlı dəstək sayəsində həyata keçirək. İş adamlarımız birgə istehsal proseslərini həyata keçirsinlər, birgə sərmayələr yatırsınlar, işlər qursunlar".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Məsud Pezeşkianın səfəri münasibətlərin inkişafına ciddi təkan verəcək

"İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana rəsmi səfəri çoxdan gözlənilirdi. İran Xarici İşlər Nazirliyinin mətbuat katibi İsmayıl Bəqain İran Prezidentinin bu səfərinin hazırlanması üçün aylarla səy göstərildiyini bildirmişdi.

Buna baxmayaraq səfərin reallaşmasına saatlar qalmış İranın Bəndər Abbas şəhərindəki Şəhid Rəcai limanında baş verən partlayışla əlaqədar olaraq kluarlarda səfərin bəlkə də təxirə düşə biləcəyi ilə bağlı skeptik yanaşmaların da şahidi olduq. Lakin səfər buna baxmayaraq baş tutdu".

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, İran Prezident Administrasiyasının siyasi şöbəsinin müdir müavini Mehdi Sənai isə Pezeşkianın Bakıya gəlişinin intensiv olacağını və onun faciə ilə bağlı vəziyyətə şəxsi nəzarət etməsi zərurətinə görə səfərin bir gün çəkəcəyini deyib. Bununla belə Prezidentin proqramına baxdığımız zaman rəsmi görüşlər, sənədlərin imzalanması, birgə biznes-forumda iştiraka qədər, Pezeşkianın Bakı gəzintisi də daxil olmaqla səfərin olduqca geniş gündəliyə malik olduğunu görürük. Elə məhz buna görədir ki, Bəqain bu səfəri qiymətləndirərkən "İranın Azərbaycanla əlaqələri çox önəmlidir" deyə xarakterizə etdi. Bu səfər, həqiqətən, iki ölkə arasında yeni səhifə aça bilər.

Deputat qeyd edib ki, Bəqainin İran Prezidentinin səfəri ərəfəsində Cənubi Qafqazın stabilliyində təyinedici rola sahib ölkə kimi Azərbaycanı ölkəsi üçün əhəmiyyət kəsb edən aktor adlandırması da çox vacib açıqlamadır: "Səfərə qədər, səfər çərçivəsində səsləndirilən fikirlər, verilən bəyanatlar da səfərin məqsədinin olduqca uzunmüddətli, dayanıqlı, siyasi iradə əsaslı olduğundan xəbər verir. Azərbaycan Prezidenti bildirdi ki, BMT, İslam Əməkdaşlıq Təşkilatı, ECO, Qoşulmama Hərəkatı və digər təşkilatlar çərçivəsində Azərbaycan və İran ənənəvi olaraq bir-birini dəstəkləyir. Dövlət başçımız "Şimal-Cənub" nəqliyyat dəhlizinin əməkdaşlıq layihələrində xüsusi yer tutan vacib amil üzərində bir daha dayandı və bildirdi ki, lazımi infrastruktur Azərbaycan tərəfindən var, qarşıda duran hədəf isə artan yüklər üçün imkanların genişləndirilməsidir. İran və Azərbaycan nəinki "Şimal-Cənub", "Şərq-Qərb" dəhlizini də inkişaf etdirə bilərlər. Bunun üçün hər iki tərəfdə mütəmadi əlaqə, siyasi iradə vacibdir. İki lider açıqlamaları zamanı birgə istehsal motivasiyasının qurulmasını təklif etməklə təşkilati fəaliyyətin makroəsasları üzərində də dayandılar".

A.Badamov qeyd edib ki, dövlət başçılarının iştirakı ilə keçirilən biznes-forum ölkələrarası ticari, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi baxımından çox əhəmiyyətlidir. Prezident İlham Əliyev biznes-forumda "Şimal-Cənub" nəqliyyat dəhlizinin ancaq tranzit daşımaları üçün yox, həm də hər iki ölkənin sahibkarlıq subyektlərinin sərmayələri əsasında yeni istehsal müəsisələrinin yaradılmasında vacib olduğunu bildirdi. Həm də növbəti biznes-forumda daha çox biznes strukturlarının iştirak edəcəyinə inandığını ifadə etdi.



Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin həm "Şimal-Cənub", həm də Araz dəhlizi ilə bağlı səsləndirdiyi fikirlər Azərbaycanla İran arasında ticari-iqtisadi əməkdaşlıqda yeni səhifə açılacağına mesajdır. Belə həvəsləndirici şəraitdə görüşdə də bildirildiyi kimi, istehsalçılar, sahibkarlar birgə istehsalı inkişaf etdirə, birlikdə məhsullar istehsal edə bilərlər. İki ölkənin iqtisadi potensialını artırmaq üçün siyasi səylərini birləşdirməsi vacibdir.

A.Badamov qeyd edib ki, İran Prezidentinin ölkəmizə səfərinin ən həssas məqamlarından biri Pezeşkianın özünü Təbrizdəki, Ərdəbildəki kimi yad hiss etmədiyi fikrini səsləndirməsidir: "Düşünürəm ki, bu, İranda yaşayan soydaşlarımız üçün də vacib açıqlamadır. Digər bir mühüm açıqlama isə Pezeşkianın yaxın gələcəkdə yenidən Azərbaycana səfər edəcəyi anonsunu verməsidir. Bütövlükdə səfərin iki ölkə arasında münasibətlərin inkişafına ciddi təkan verəcəyi qədər bölgənin təhlükəsizliyi, inkişafı, rifahı üçün də əsas olduğunu vurğulamalıyıq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Etimadın güclənməsinə xidmət edən səfər

### Azərbaycan-İran əlaqələrində yeni dövr başlanır

Aprel ayı Azərbaycanın siyasi həyatında mühüm hadisələrlə əlamətdar oldu. Bu sırada Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət, Türkiyəyə isə işgüzar səfərləri, o cümlədən Almaniya və Gürcüstan prezidentlərinin, ATƏT-in Baş katibinin, Avropa İttifaqının ali nümayəndəsinin Azərbaycana səfərləri respublikamızın xarici siyasət prioritetləri baxımından xüsusi qeyd edilməlidir.

#### Əməkdaşlığın dərinləşdirilməsi üçün imkanlar böyükdür

Yuxarıda qeyd olunan hər rəsmi səfər bütün siyasi meyarlarla yanaşı, həm də Azərbaycanın müstəqil siyasətinin, respublikamızın regiondakı aparıcı mövqeyinin, yeni dünya nizamındakı mühüm roluna qlobal səviyyədə olan böyük marağın və ehtiramın göstəriciləridir. Bu baxımdan başa vurduğumuz ayın əsas siyasi hadisələrindən biri də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə rəsmi səfəri oldu.

Qeyd edək ki, qonşu dövlətlər olan Azərbaycanla İran arasında əlaqələr həmişə geniş olub. İki dövlət arasında bir sıra sahələrdə əməkdaşlıq həyata keçirilib. Bununla belə hər iki dövlət münasibətlərin daha da inkişafında maraqlıdır. Təsadüfi deyil ki, İran Prezidentinin rəsmi səfərinin gündəliyi olduqca geniş idi və Azərbaycan-İran əlaqələrinin daha da inkişaf etdirilməsi ilə bağlı bir çox məsələni əhatə edirdi. Səfər cəmi bir gün çəksə də, prezidentlər arasında məhdud və geniş tərkibdə görüşlərin keçirilməsi, imzalanmış sənədlərin mübadilə olunması, dövlət başçılarının mətbuata bəyanatlarla çıxış etmələri, Heydər Əliyev Mərkəzində Azərbaycan-İran biznes-forumunun keçirilməsi səfərin olduqca zəngin və əhatəli olduğunu göstərir.

Azərbaycan və İran prezidentləri arasında aparılan danışıqlar zamanı bir çox mühüm məsələ ətrafında fikir mübadiləsi aparıldı. Energetika, elektrik enerjisi sahəsində əməkdaşlıq, Araz çayı üzərində su-elektrik stansiyalarının tikintisi, Ağbənd-Kələlə avtomobil körpüsü layihəsinin yekunlaşdırılmasının önəmi, Azərbaycanla İranın beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı, üçtərəfli əməkdaşlıq layihələri, "Şimal-Cənub" nəqliyyat dəhlizi, humanitar və mədəniyyət sahələrində ənənəvi dostluq əlaqələrinin davam etdirilməsi dövlət başçılarının toxunduğu əsas məsələlər oldu.

"Əminəm ki, bu səfərin tarixi əhəmiyyəti olacaq. Biz bu gün Sizinlə məhdud tərkibdəki görüşdə bir çox məsələləri müzakirə etdik və görürük ki, əməkdaşlığın dərinləşməsi üçün çox gözəl imkanlar var. Həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə əməkdaşlığın dərinləşməsi iki qardaş xalqın marağındadır. Ümid edirəm ki, bu gün müzakirə olunan və olunacaq məsələlər, verəcəyimiz tapşırıqlar bizim əlaqələrimizi daha da gücləndirəcək", - deyə Prezident İlham Əliyev geniş tərkibdə keçirilən görüşdə bildirib.

#### Münasibətlərin hüquqi bazası genişlənir

İran Prezidentinin səfəri zamanı mübadilə olunan sənədlər iki dövlət arasındakı əlaqələrin hüquqi bazasını daha da gücləndirir. Onların arasında prezidentlərin Birgə Bəyanatı xüsusi qeyd edilməlidir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bu, çox ciddi sənəddir və gələcək əməkdaşlıq üçün bizə yol göstərən sənəddir. Prezidentlər səviyyəsində imzalanmış sənəd həm də hər iki tərəfin əlaqələrin inkişafı baxımından xoş niyyətini göstərir.

Səfər zamanı keçirilən tədbirlərdən biri də Azərbaycan-İran biznes-forumu oldu. Forumda İrandan gələn 120 nəfərdən çox iş adamının iştirak etməsi bu ölkənin biznes dairələrinin ölkəmizdə fəaliyyət göstərməyə olan marağından xəbər verir. Eyni zamanda bu, Azərbaycandakı əlverişli biznes mühitinin göstəricisidir. Respublikamızda isə bizneslə məşğul olmaq üçün imkanlar böyükdür. O cümlədən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən işlər iş adamları üçün geniş imkanlar yaradır. Elə buna görə Prezident İlham Əliyev həm də İran şirkətlərini Azərbaycanda həyata keçirilən infrastruktur layihələrində iştiraka dəvət etdi. "Erməni işğalından azad edilmiş ərazilərdə hazırda geniş quruculuq işləri gedir. Biz kəndləri, şəhərləri demək olar ki, sıfırdan qururuq. Çünki işğal dövründə Ermənistan bizim bütün şəhər və kəndlərimizi yerlə yeksan etmişdir. Ona görə orada böyük iş imkanları yaradılır və istərdim ki, İrandan, bizim dost, qardaş ölkədən olan biznesmenlər bu istiqamətdə də işləsinlər", - deyə dövlətimizin başçısı bildirdi.

Hazırda iki dövlət tərəfindən Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə İran ərazisindən birləşdirən layihə uğurla icra olunur. Bu istiqamətdə Azərbaycan tərəfindən aparılan işlər demək olar ki, tamamlanıb. Araz çayı üzərində Azərbaycan tərəfinə düşən körpünün inşası demək olar ki, hazırdır, o cümlədən sərhəd-keçid məntəqəsinin inşası prosesi gedir. Azərbaycan bu layihənin reallaşmasına strateji yanaşır və Prezident İlham Əliyevin dediyi kimi, bu, sadəcə olaraq, bu bölgənin layihəsi deyil: "Biz hesab edirik ki, bu, Asiyadan Avropaya uzanan nəqliyyat dəhlizinin bir qolu olmalıdır. Bir tərəfi Aralıq dənizinə, bir tərəfi Fars körfəzinə uzanan yeni nəqliyyat bağlantı dəhlizi olmalıdır və bir çox ölkələr bundan fayda götürəcək".

#### İran Azərbaycanın yaratdığı reallıqları tanıyır

Azərbaycanı bu gün dünyaya təqdim edən əsas hadisələrdən biri torpaqlarımızın işğaldan azad edilməsi, ərazilərimizdə erməni separatizminə son qoyulmasıdır. Bununla bağlı əsas məsələlərdən biri də odur ki, ölkəmizin yaratdığı reallıqlar qonşu dövlətlər tərəfindən dəstəklənir və qəbul edilir. Bu baxımdan Məsud Pezeşkianın Prezident İlham Əliyevlə görüşdə "Sizin, Azərbaycanın və əziz Azərbaycan xalqının Qarabağda və Azərbaycanın sahib çıxmalı olduğu digər ərazilər üzərindəki hüququnu tanıyırıq. Biz inanırıq ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və buna hörmətlə yanaşırıq" deməsi bir daha göstərir ki, İran dövləti Azərbaycanın yaratdığı reallıqları tanıyır və dəstəkləyir.

Bütövlükdə, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə rəsmi səfəri məhsuldar keçdi. İki dövlət arasında etimadın gücləndirilməsi üçün fürsətlər yaradan bu ali səviyyəli səfər çərçivəsində əldə olunan bütün razılaşmalar, mübadilə edilən sənədlər göstərir ki, Azərbaycan-İran əlaqələrində yeni dövr başlanır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycan Qlobal Cənubun güclü səsinə çevrilir

### Ölkəmizin təşəbbüsü ilə Bakıda Qlobal Cənub QHT Platformasının təsis olunması müstəsna tarixi əhəmiyyət daşıyır

"Azərbaycan fəal diplomatiya vasitəsilə Qlobal Şimal və Qlobal Cənub arasında mövqe fərqliliklərini aradan qaldırmaq, daha inklüziv və effektiv dialoqu inkişaf etdirmək üçün bu gün də əzmlə çalışır.

Lakin bu prosesdə uğura nail olmaq yolunda ən böyük maneə Qlobal Cənub və Qlobal Şimal arasında illər ərzində formalaşmış etimadsızlıqdır. Biz bu disbalansı aradan qaldırmaq məqsədilə Qlobal Cənub ilə Qlobal Şimal arasında körpü rolunu öz üzərimizə götürərək etimad quruculuğu işinə yeni töhfələr vermək əzmindəyik".

Aprelin 28-də Bakıda "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" adlı forumun iştirakçılarına müraciətində Prezident İlham Əliyevin vurğuladığı kimi, bu gün qlobal xarakter daşıyan məsələlərin həllində aktiv rol oynayan və onların aradan qaldırılması üçün fəal dəstək göstərən Azərbaycan dünya miqyaslı problemlərin həllində dialoq yolunun mümkünlüyünü daim təbliğ edir. Qlobal Şimalla Qlobal Cənub arasında yaranmış uçurumların aradan qaldırılmasının dövrümüzün təxirəsalınmaz çağırışı olduğuna diqqət çəkən ölkəmiz eyni zamanda bu iki nəhəng qütb arasındakı münasibətlərin sağlam, dayanıqlı, ən əsası etimada əsaslanan təməllər üzərində möhkəmlənməsi üçün əməli fəaliyyət göstərir.

Bu baxımdan sivilizasiyalararası dialoqların baş tutduğu unikal ünvan kimi tanınan Bakıda dünya əhalisinin təxminən 80 faizə yaxın hissəsini özündə birləşdirən 116 ölkədən nüfuzlu QHT rəhbərlərinin, vətəndaş cəmiyyəti təmsilçilərinin iştirakı ilə keçirilən forumda Qlobal Cənub QHT Platformasının təsis olunması müstəsna tarixi əhəmiyyət kəsb etdi.

#### Liderlik nümunəsi

Asiya, Afrika, Latın Amerikası, Okeaniya bölgələrini - dünya ölkələrinin üçdəiki hissəsini əhatə edən Qlobal Cənubun vətəndaş cəmiyyətinin həyatına əlamətdar hadisə kimi yazılan bu nəhəng platformanın məhz Azərbaycanın təşəbbüsü ilə təsis olunması həm də ölkəmizə olan beynəlxalq etimadın təzahürü kimi diqqət çəkdi.

Ötən ilin noyabrında - COP29 çərçivəsində Azərbaycan Milli QHT Forumu bu platformanın yaradılması təşəbbüsü ilə çıxış edib. Təşəbbüsün qısa müddətdə beynəlxalq rezonans doğurması sayəsində COP29 QHT Koalisiyası Azərbaycan Milli QHT Forumu qarşısında bu platformanın təsisatlandırılmasına dair məsələ qaldırıb. Vurğulayaq ki, Azərbaycan QHT-lərinin təşəbbüsü ilk dəfə dünya miqyasında belə qlobal dəstək qazanıb.

Son dörd il ərzində Azərbaycanın dünyada BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına (QH) uğurla sədrlik etməsi də ölkəmizə olan qlobal etimada təkan verib. Bu hərəkata sədrliyinin COVID-19 pandemiyasının dünyada tüğyan etdiyi bir zamanla üst-üstə düşməsinə baxmayaraq, Azərbaycanın həmin çətin dövrdə də QH sədrliyi qismində mühüm beynəlxalq təşəbbüslərlə çıxış etməsi, qlobal problemdən həmrəylik sayəsində çıxmaq üçün effektiv təkliflər irəli sürməsi və onların üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənməsi sayəsində bu dünya miqyaslı bəladan birgə çıxış üçün geniş imkanlar yaranıb.

Eyni zamanda ölkəmizin müvəffəqiyyətlə evsahibliyi etdiyi beynəlxalq iqlim sammiti olan COP29-da bəşəriyyət adına mühüm qərarların qəbul olunması və nailiyyətlərin qazanılması da beynəlxalq ictimaiyyət tərəfindən təqdirlə qarşılanıb.

COP29-da Bakı Maliyyə Məqsədi (BMG) barədə razılıq əldə olundu, Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirildi, İtki və Zərər Fondu tam şəkildə institutlaşdırıldı, Bakı Adaptasiya Yol Xəritəsi yaradıldı və iqlimlə bağlı digər vacib qərarlar qəbul edildi.

Bütün bu dünya miqyaslı uğurların fonunda Azərbaycan dövlətinə yaranan böyük rəğbət özünü həm də Qlobal Cənub QHT Platformasının meydana gəlmə təşəbbüsünün yekdilliklə qəbul olunması ilə bir daha göstərdi.

Forumda çıxış edən SMACHS Fondunun təsisçisi və baş direktoru, Keniya Prezidentinin qızı Charlene Ruto bildirdi ki, Azərbaycan iqlim dəyişmələri ilə mübarizədə və dayanıqlı inkişaf məqsədləri istiqamətində öz səylərini ortaya qoyub: "Azərbaycan Qlobal Cənubu daim təşviq edir və Qlobal Şimalla dialoqun inkişafına töhfə verir".

Özbəkistan parlament komitəsinin, "Yüksəliş" hərəkatının sədri Bobur Bekmurodovun sözlərinə görə, bu forumun məhz Bakıda keçirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin dayanıqlı inkişafa verdiyi dəstəyin sübutudur: "Azərbaycan Prezidentinin bu sahədə nümayiş etdirdiyi liderlik və irəli sürdüyü təşəbbüslər digər ölkələr üçün də nümunə olmalıdır".

#### "Azərbaycana hər zaman güvənə bilərsiniz!"

Azərbaycan XXI əsrdə hələ də bəzi ölkələr tərəfindən sürdürülən neokolonializm siyasətinə qarşı beynəlxalq fəaliyyət göstərir. 2023-cü ildə paytaxtımızda yaradılan Bakı Təşəbbüs Qrupu bu istiqamətdə mühüm platformadır və müstəmləkəçilikdən əziyyət çəkən xalqlar azadlıq səslərini dünyaya çatdırmaq üçün onun ətrafında sıx birləşiblər.

Sözügedən forumun iştirakçılarına müraciətində "Qlobal Cənubun güclü səsinə çevrilən Azərbaycan bu platformanın məhz Bakıda təsis olunmasını Qoşulmama Hərəkatına və COP29-a sədrlik dövrlərində fəaliyyətinə verilən yüksək qiymət kimi qəbul edir", - deyən Prezident İlham Əliyev inandığını söyləyib ki, Qlobal Cənub QHT Platforması xalqlarımızın səsinin eşidilməsi, mövqelərinin dünya ictimaiyyətinə çatdırılması, onların haqlarının qorunması və hüquqlarının təmin edilməsi işinə böyük töhfə verəcəkdir. Dövlət başçısının sözlərinə görə, Azərbaycan hər zaman qarşılıqlı hörmət və birgə inkişaf prinsiplərinə əsaslanan siyasət aparıb: "Təəssüflər olsun ki, hazırda Qlobal Cənubu təmsil edən bir sıra ölkələrin hələ də əziyyət çəkdikləri əsas problemlərdən biri də bəzi Qərb ölkələrinin yürütdüyü neokolonializm siyasətidir. Biz müstəmləkəçiliyin bütün formalarını və təzahürlərini qətiyyətlə rədd edir, xalqlara faciələr, köləlik, iztirab gətirən bu cür davranışları qəbuledilməz hesab edirik".

Dövləti başçısı onu da bəyan edib ki, Azərbaycan ölkələrin daxili işlərinə qarışmamaq prinsipinə əməl edən, xalqların siyasi sistemlərinə, mədəni, etnik, dini fərqliliklərinə hörmət edən, dinlərarası, sivilizasiyalararası, mədəniyyətlərarası dialoqu daim güclü təşviq edən ölkədir: "İnanıram ki, birgə fəaliyyətimizlə xalqlarımız üçün daha işıqlı bir gələcək, yeni, ədalətli dünya düzəni qura bilərik...

...Azərbaycana hər zaman güvənə bilərsiniz!"

Göründüyü kimi, dünyanın yeni çağırışlarına adekvat reaksiya verən və qlobal məsələlərin aradan qaldırılması üçün mühüm təşəbbüslər irəli sürən Azərbaycan ədalətli dünya nizamına yön verən ölkə olaraq həm də hər zaman əməli fəaliyyəti ilə beynəlxalq problemlərin çözülməsi işinə mühüm töhfələr bəxş edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Yeni və ədalətli dünya

### Bakıda təsis edilən Qlobal Cənub QHT Platformasının əsas fəaliyyət istiqaməti olacaq

Bakıda 116 ölkədən nüfuzlu qeyri-hökumət təşkilatları (QHT) rəhbərlərinin, vətəndaş cəmiyyəti təmsilçilərinin iştirakı ilə Qlobal Cənub QHT Platformasının təsis konfransının keçirilməsi dünya ictimaiyyətinin diqqətini cəlb edən hadisələrdən birinə çevrilib.

Bu möhtəşəm tədbir Asiya, Afrika, Latın Amerikası, Okeaniya bölgələrini - dünya ölkələrinin üçdəiki hissəsini əhatə edən Qlobal Cənubun vətəndaş cəmiyyətinin həyatında əlamətdar hadisəsi hesab edilir.

Azərbaycan Prezidenti İlham Əliyevin Qlobal Cənub QHT Platformasının iştirakçılarına ünvanlanan məktubunda deyilir: "Çox şadıq ki, keçən ilin noyabrında Bakıda COP29 çərçivəsində Qoşulmama Hərəkatı ölkələrinin QHT-lərinin Cənub-Cənub əməkdaşlığı üzrə baş tutan beynəlxalq konfransı zamanı Azərbaycan Milli QHT Forumunun Qlobal Cənub QHT Platformasının yaradılması barədə təşəbbüsü güclü dəstək qazanmışdır. Bununla əlaqədar 140-a yaxın ölkədən 1000 nəfərdən çox QHT təmsilçisi və ictimai fəal birgə bəyanat imzalamışdır".

Bakıda Qlobal Cənub QHT Platformasının təsis konfransının keçirilməsi uğurlu siyasətin reallığıdır. Platformanın yaradılması təşəbbüsü ilə 2024-cü ilin noyabrında - COP29 çərçivəsində Azərbaycan Milli QHT Forumu çıxış edib. Təşəbbüs qısa müddətdə beynəlxalq rezonans doğurub. Nəticədə COP29 QHT Koalisiyası Azərbaycan Milli QHT Forumu qarşısında bu platformanın təsisatlandırılmasına dair məsələ qaldırıb. Azərbaycan QHT-lərinin təşəbbüsü ilk dəfə dünya miqyasında belə bir qlobal dəstək qazanıb. Beləliklə, ölkəmizin liderliyi ilə Qlobal Cənub QHT Platforması təsis olunub.

Bakıda keçirilən "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" adlı forumda qəbul olunan bu qərarı dünya ictimaiyyəti yüksək qiymətləndirir. Braziliyanın Beynəlxalq Münasibətlər üzrə Tədqiqat İnstitutunun direktoru, professor Almir Lima Nascimento qeyd edib ki, yeni Qlobal Cənub QHT Platforması regional və qlobal çətinlikləri təşəbbüslərlə həll etməyə yönələcək. O bildirib ki, hazırda sosial və iqtisadi sahələrdə bir çox problemlə üz-üzəyik: "Bu platforma Qlobal Cənub çərçivəsində vahid cəbhə olaraq ədalətsizliyə, yoxsulluğa və iqlim dəyişikliyi kimi digər qlobal çağırışlara qarşı birgə mübarizəni vacib edir. Yeni şəbəkənin əhəmiyyəti üzv dövlətlər arasında qarşılıqlı əməkdaşlıqdan asılıdır və bütün şəbəkə üzvləri bundan faydalanmalıdır". Almir Lima Nascimento platformaların yalnız dialoqla kifayətlənməyəcəyini, həm də yaradıcı həll yollarının tapılmasına kömək göstərəcəyinə ümid etdiyini bildirib.

Ekvadorun keçmiş xarici işlər naziri və UNITAR-in prezidenti Luis Gallegos isə deyib ki, Qlobal Cənub QHT Forumu əməkdaşlığın gücləndirilməsinə töhfə verəcək. Cənub-Cənub arasında əməkdaşlığa xüsusilə ehtiyac olduğunu deyən Gallegos bildirib ki, dünya hər gün yeni çağırışlarla üzləşir və biz yeni pandemiyalara hazır olmalıyıq: "Pandemiyalar istənilən dövlətə təsir edir və hər bir insan buna diqqət etməlidir. Pandemiyanın təsirləri nəzərə alınmalı və qarşısını almaq üçün qlobal səviyyədə tədbirlər görülməlidir. Qarşılaşdığımız problemləri dialoq yolu ilə həll etməyə çalışmalıyıq. Biz bütün dünya cəmiyyətlərini çağırmalıyıq ki, məsuliyyətlərini bölüşsünlər və birgə qərarlar qəbul etsinlər". Luis Gallegos vurğulayıb ki, hazırda dünyada 60-dan çox silahlı münaqişə cərəyan edir və bu münaqişələr BMT-yə üzv dövlətlərin üçdəikisinə təsir edir. Sülh, ədalət və rifahın təmin olunması cəmiyyətlər üçün mühüm hədəf olmalıdır.

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva hesab edir ki, təcrid edilmiş səslərin Qlobal Cənub çərçivəsində ucaldılması olduqca vacibdir: "Əsas dəyişikliyin gücü bizim birləşmək qabiliyyətimizdədir. Müxtəlif sektorlar və sahələr arasında əməkdaşlıq bu baxımdan xüsusi əhəmiyyət daşıyır". O qeyd edib ki, müxtəlif ölkələrin bir araya gəlməsi, iqlim maliyyələşməsi, adaptasiya və birgə həll yolları faydalı və səmərəli tərəqqiyə yol açır: "Bizi 2030-cu ildən cəmi beş il ayırır və Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün doğru yoldayıq. Hazırda Dayanıqlı İnkişaf Məqsədlərinin üçdəbiri ya dayandırılıb, ya da geriləyir. Bir çox ölkə iqlim dəyişikliyi və yoxsulluğun aradan qaldırılması sahəsində ciddi çətinliklərlə üzləşirlər. Bu səbəbdən dövlət və özəl sektor birlikdə çalışaraq maliyyənin gücləndirilməsi və təşəbbüslərin artırılması üçün daha fəal addımlar atmalıdır".

Yeri gəlmişkən xatırladaq ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə yeni və ədalətli dünya nizamı üçün gərgin fəaliyyəti, irəli sürdüyü mühüm təşəbbüslər, COP29 zamanı "Bakı dönüşü"nün əldə olunması Qlobal Cənubda Azərbaycan dövlətinə böyük rəğbət yaradıb. Qlobal Cənub QHT Platforması da Azərbaycanın vətəndaş cəmiyyətinin həyatında yeni başlanğıc kimi qiymətləndirilir. Hesab olunur ki, Qlobal Cənub QHT Platformasının Bakıda formalaşması Azərbaycanın Qlobal Şimal və Qlobal Cənub arasında uğurlu vasitəçi, körpü olmasının növbəti təzahürüdür. Qlobal Cənub QHT Platforması bu strateji coğrafiyada ölkələrin üzləşdikləri problemlərin beynəlxalq səviyyədə eşidilməsinə güclü dəstək verməyi, BMT daxil olmaqla beynəlxalq təşkilatlarda vahid mövqedən çıxış etməyi, qlobal koordinasiyanı aparmağı nəzərdə tutur. Bu, ölkələrin üzləşdiyi ədalətsizliyə - yoxsulluq, iqlim dəyişmələrinin fəsadları, müstəmləkəçilik keçmişi, rəqəmsal uçurum, ticarət bərabərsizliyi və digər məsələlərə qarşı birgə səylərlə mübarizə aparma platformasıdır. O, həmçinin Cənub-Cənub əməkdaşlığını təşviq edir.

BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti QHT şöbəsinin nümayəndəsi Vuk Tszin-Çanq bildirib ki, Qlobal Cənub QHT Platformasının yaradılması Cənub yarımkürəsi ölkələrinin beynəlxalq arenada mövqelərini gücləndirməyə kömək edəcək və vaxtında atılmış bir addımdır. Qananın "Dream Hunt" təşkilatının nümayəndəsi Porşa Adu-Mensa da hesab edir ki, yeni təşəbbüs çərçivəsində Qlobal Cənub QHT-lərinə dəstək son dərəcə vacibdir: "Bir çox cəmiyyət marginallaşdırılmış və həssas olaraq qalır. İndiyəcən isə kifayət qədər insan hüquqları müdafiəçilərimiz olmayıb". Qanalı nümayəndənin sözlərinə görə, QHT-lərin səylərinin birləşdirilməsi praktiki fəaliyyətlərə çevrilə biləcək ideyaları irəli sürməyə imkan verəcək: "Bir çox cəmiyyət zərər çəkib, lakin müdafiəçilərin olmaması səbəbindən onların problemləri uzun müddət diqqətdən kənarda qalıb. İndi biz layihələrin insanların real ehtiyaclarına yönəldiyi və konkret dəyişikliklərə gətirib çıxaracağı nəticələrin əldə olunmasına çalışırıq". Qlobal Cənub QHT Platformasının digər iştirakçıları da Azərbaycanda başlanan prosesi yüksək qiymətləndirirlər.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

---

*Qanalı iştirakçı:*

### "Forumda müzakirə olunan Qlobal Cənub əməkdaşlığı məsələsi bizə çox kömək edəcək"

"Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" forumunda müzakirə edilən Qlobal Cənub əməkdaşlığı məsələsi bizə çox kömək edəcək".

Bu fikirləri AZƏRTAC-a "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" forumunun qanalı iştirakçısı Adu Mensah Portia deyib.

O qeyd edib ki, fikir mübadiləsi aparmaq üçün oxşar mövqelərdə mübarizə aparan QHT-lər mövcuddur.

"Bu forum ayrı-ayrı ölkələrdə baş verənləri qiymətləndirmək, əməkdaşlıq etdiyimiz, əlaqə qurduğumuz, eyni zamanda bizimlə əməkdaşlıq edə biləcək digər təşkilatların problemlərinin həlli yollarını görmək baxımından gözəl fürsətdir. İnanıram ki, platforma bizim qarşılaşdığımız problemlərimizdə söz sahibi olmağımıza kömək edəcək", - deyə forum iştirakçısı vurğulayıb.

*Seyşel adalarının təhsil eksperti:*

### "Bakı forumu nailiyyətlərimizi və çətinliklərimizi bölüşmək imkanı yaradır"

"Bakıda keçirilən "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" forumu olduqca əhəmiyyətlidir. Çünki nailiyyətlərimizi və çətinliklərimizi bölüşmək imkanı yaradır".

Bunu AZƏRTAC-a Seyşel adalarının təhsil eksperti, tədqiqatçı Odile De Comarmond Andrine Louise deyib. O qeyd edib ki, bu platformada bir çox ölkənin, xüsusilə kiçik ada dövlətlərinin qarşılaşdığı problemlərdən bəhs olunur. "Düşünürəm ki, bu, bizim üçün çox vacib tədbirdir, çünki burada bizə lazım olan əməkdaşlıqlar yaratmaq mümkündür. Mən Azərbaycanı bu təşəbbüsü irəli sürdüyünə və belə möhtəşəm tədbirə evsahibliyi etdiyinə görə təqdir edirəm. Hesab edirəm ki, bütün iştirakçılar yüksəksəviyyəli tədbirdən razıdır", - deyə o əlavə edib.

*"EcoHarmony Eswatini" təşkilatının həmtəsisçisi:*

### "Bakı forumunda digər ölkələrin təcrübəsini öyrənə bilərik"

"Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" forumu vacib tədbirdir. Çünki başqa QHT-lərlə bir araya gələrək, onların ölkələrinin üzləşdiyi çətinliklər barədə məlumat ala, həmçinin başqa ölkələrdən yardım istəyə bilməyimiz baxımından əhəmiyyətlidir".

Bu fikirləri AZƏRTAC-a "EcoHarmony Eswatini" təşkilatının həmtəsisçisi Dlamini Philie Beketele deyib. O öz ölkəsi Esvatininin Cənubi Afrika Respublikası və Mozambik ilə həmsərhəd olduğunu vurğulayıb. Həmçinin bildirib ki, "EcoHarmony Eswatini" təşkilatının fəaliyyəti gənclərin səlahiyyətləndirilməsi və iqlim təhsili sahələrini əhatə edir. "Bu tədbir təşkilatımız üçün olduqca vacibdir. İnkişaf etməkdə olan ölkə olaraq, bizim iqlim sahədə resurslarımız və təcrübəmiz çox azdır. Məhz buna görə forumda digər ölkələrin təcrübəsini öyrənə bilərik", - deyə forum iştirakçısı əlavə edib.

*BMT-nin rezident-əlaqələndiricisi:*

### "Bakıda keçirilən forumda iştirak etməkdən böyük şərəf duyuram"

"Dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün Birləşmiş Millətlər Təşkilatı (BMT) olaraq vətəndaş cəmiyyəti və digər bütün maraqlı tərəflərlə sıx əməkdaşlıq edirik".

AZƏRTAC xəbər verir ki, bunu aprelin 28-də Bakıda keçirilən "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" adlı forumda jurnalistlərə açıqlaması zamanı BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva deyib.

O, vətəndaş cəmiyyətlərinin öz səslərini duyurmasının çox vacib olduğunu vurğulayaraq əlavə edib: "Onların tərəfdaşlarla birgə işləmək üçün imkanları və ortaq müzakirə masası var. Bu forum isə məhz həmin məqsədlərə xidmət edəcək. Mən müzakirələrin nəticələrini səbirsizliklə gözləyirəm və ümid edirəm ki, iştirakçılar həmrəylik ruhunda danışacaqlar. Çünki yalnız səmimi həmrəylik və bu məsuliyyətin bölüşülməsi sayəsində heç kimin geridə qalmaması təmin oluna bilər".

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Bakıda keçirilən forumda iştirak etməkdən böyük şərəf duyduğunu da diqqətə çatdırıb.

# Bakıda "Artıq ikili standartlar yoxdur: QHT-lər katalizator kimi, Qlobal Cənubda ədalətli inkişaf" mövzusunda müzakirələr aparılıb



Bakıda keçirilən "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" adlı forum aprelin 29-da işini panel iclaslarla davam etdirib.

AZƏRTAC xəbər verir ki, COP29-un Azərbaycan üzrə Gənclər İqlim Çempionu, Qoşulmama Hərəkatının Gənclər Təşkilatı Katibliyinin rəhbəri Leyla Həsənova və Bərpa Olunan Enerji və Enerji Səmərəliliyi üzrə Ərəb Platformasının prezidenti Kamel Esseghairinin moderatorluğu ilə keçirilən paneldə "Artıq ikili standartlar yoxdur: QHT-lər katalizator kimi, Qlobal Cənubda ədalətli inkişaf" mövzusunda müzakirələr aparılıb.

Paneldə çıxış edən İqlim Fəaliyyətləri üçün Liberiya Gəncləri səfiri Ezekiel Nyanfor ikili standartların aradan qaldırılması və ədalətli inkişaf baxımından forumun körpü rolunu oynadığını bildirərək deyib: "Cənub və Şimal coğrafiyalarının öz problemlərini bölüşmələri üçün buranın ideal platforma olduğunu düşünürəm. Hər iki tərəf ikili standartlardan uzaqlaşmalıdır".

Bəhreynin Birgə Yaşayış Proqramı üzrə Baş jurnalisti Fatima Al Najem qeyd edib ki, Azərbaycan Qlobal Cənubun səsini dünyaya çatdırmaq üçün çox önəmli platforma yaradıb. Bu təşəbbüs yalnız siyasi və diplomatik əhəmiyyət daşımır, bu, eyni zamanda QHT-lərin öz aralarında dialoq qurmaları, təcrübə bölüşmələri və birgə fəaliyyət göstərmələri üçün dəyərli məkandır. Bu platforma bizi birləşdirən, bizi gücləndirən yoldur.

Serbiyanın İnsan Hüquqları Uğrunda Gənclər Təşəbbüsünün hüquq müdafiəçisi Petkoviç İsidora beynəlxalq münasibətlərdə ikili standartların artıq adi hal aldığını vurğulayıb. Onun sözlərinə görə, insan haqları, iqlim ədaləti, inkişaf hüququ kimi anlayışlar bəzi ölkələr üçün prinsip, digərləri üçün isə, sadəcə, vasitə kimi istifadə olunur: "İkili standartlar bizə deyir ki, bəzi ölkələrin suverenliyi vacibdir, digərlərininki yox. Bəzi xalqların ağrısı görünməyə dəyərdir, digərlərinki isə statistikadır".

Belarus Gənclər Təşkilatları Komitəsinin sədri Pavel Alekso gəncləri gələcəyin qurucuları kimi dəyərləndirib. O qeyd edib: "Belarus gənclər təşkilatları ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində bizim gənclərimiz bir çox təşəbbüslərdə fəal iştirak ediblər. Bu da göstərir ki, gənclər sərhəd tanımırlar. Onların potensialı beynəlxalq əməkdaşlıq vasitəsilə daha da güclənir".

Cibutinin "Bab Et Mandeb" Assosiasiyasının nümayəndəsi Abdira Gueh Ragueh yoxsul ölkələrin inkişaf etmələri üçün maliyyə dəstəyinin vacibliyini qeyd edib. Deyib ki, əsl dəyişiklik, əsl davamlı inkişaf yerli səviyyədə, xalqın içindən çıxan həll yolları ilə baş verir. İqlim dəyişikliyi ilə mübarizə üçün ən effektiv yanaşmalardan biri lokal resurslardan istifadə, yerli biliklərə və təcrübəyə əsaslanmaqdır. Çünki hər bir cəmiyyətin özünəməxsus şəraiti və ehtiyacları var. Məhz buna görə problemlərin həllini yalnız kənardan gözləməməli, eyni zamanda öz içimizdən, öz icmalarımızdan gələn həlləri gücləndirməliyik.

Niger Milli Gənclər Şurasının nümayəndəsi Aliou Omarou qeyd edib ki, münaqişələr, çətinliklər ən çox yerli əhaliyə təsir edir. "Mənim ölkəmin olduğu bölgə - Sahel və Qərbi Afrika iqlim dəyişikliyindən ən çox əziyyət çəkən coğrafiyalardan biridir. Amma Qərb ölkələri bu vəziyyətə, sadəcə, baxmaqla kifayətlənirlər. Bizim torpaqlarımız qızıl, uran, neft, qaz və digər təbii ehtiyatlarla zəngindir. Ancaq bu sərvətlər bizə firavanlıq yox, istismar gətirib. Resurslarımız gizli şəkildə illərlə Qərb ölkələri tərəfindən istismar olunub. Bu istismar fəaliyyəti yalnız iqtisadiyyata deyil, həm də iqlimə böyük ziyan vurub. Daha acınacaqlı hal odur ki, Azərbaycan kimi ölkələr bizə yardım etmək istədikdə, "qarışmayın" deyirlər. Çünki bu yardım onların maraqlarına ziddir", - deyə o bildirib.

Panel iclası müzakirələrlə davam etdirilib.

# "Qlobal Cənubun yüksəlişi: Bandung ruhu və suveren gələcək uğrunda mübarizə"

Bakıda keçirilən "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" adlı beynəlxalq forum çərçivəsində aprelin 29-da "Qlobal Cənubun yüksəlişi: Bandung ruhu və suveren gələcək uğrunda mübarizə" mövzusunda panel sessiya keçirilib.



AZƏRTAC xəbər verir ki, panel Milli Məclisin deputatı, Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü Pərvanə Vəliyeva və BMT eksperti Karlayl Korbinin moderatorluğu ilə keçirilib.

Paneldə çıxış edən Birləşmiş Millətlər Təşkilatının (BMT) Sənaye İnkişafı Təşkilatında (UNIDO) Strateji planlaşdırma və cənub əməkdaşlığı bölməsinin proqram əməkdaşı Pradeep Paulose bildirib ki, QHT-lər beynəlxalq inkişaf ekosistemi daxilində gələcək dövrləri formalaşdıra bilər və onlar mühüm bir missiyanı yerinə yetirirlər. Onun sözlərinə görə, qeyri-hökumət təşkilatları gənclərin məşğulluğuna mane olan bacarıq boşluqlarını və sahibkarların birinci əl bazarla bağlı üzləşdiyi maneələri müşahidə edə bilirlər.

"Bu məlumatlar sənaye siyasətinə daxil edildikdə hökumətlər daha çevik tənzimləyici çərçivələr yarada bilirlər. Bu cür imkanlar isə öz növbəsində icma səviyyəsində təşəbbüslərin inkişafına şərait yaradır. Yerli innovasiyalar daha geniş dəyər zəncirlərinə bağlandıqda, onların təsiri qat-qat artır. Təsəvvür edin ki, bu dinamika bütün Cənub ölkələrində çoxalır. Biz məhz bunu təmin etmək üçün yeni bir platforma yaratmışıq. İnkişaf nəticələrinin sürətlənməsi artıq dərin təsir göstərməyə başlayıb", - deyə P.Paulose diqqətə çatdırıb.

Qətərin Təhlükəsizlik və hərbi araşdırmalar üzrə professoru, Ərəb Araşdırmalar və Siyasət Tədqiqatları Mərkəzinin (ACRPS) Strateji Tədqiqatlar direktoru Ömər Aşur Qlobal Cənub QHT platformasının bu gün və gələcəkdə Cənub ölkələrinin qarşılaşdığı ədalətsizliklərə qarşı birgə mübarizə aparmaq və cavab vermək üçün vahid bir cəbhə kimi fəaliyyət göstərdiyini qeyd edib. O bildirib ki, bu ədalətsizliklərə yoxsulluq, iqlim dəyişikliyinin təsirləri, müstəmləkə mirası, rəqəmsal bərabərsizlik, ticarət ədalətsizlikləri və digər mühüm Qlobal Cənub məsələləri daxildir. "Nəhayət, əgər biz bu yolla davam etsək, əvvəllər, sadəcə, anma xarakteri daşıyan ruh artıq yalnız bir xatirə deyil, yenidən suveren gələcəklər üçün bir strategiyaya çevriləcək", - deyə direktor bildirib.

BMT mandatlı Sülh Universitetinin (UPEACE) regional nümayəndəsi, Somali Prezidentinin İqtisadi məsələlər üzrə xüsusi məsləhətçisi Mohamed Osman bildirib ki, Somalidə yerli QHT-lərlə əməkdaşlıq təcrübəsinə əsasən, bu təşkilatlar uzun illər fəaliyyət göstərmələrinə baxmayaraq hələ də bacarıq çatışmazlığı ilə üz-üzədirlər və irəliləməkdə çətinlik çəkirlər. Onun sözlərinə görə, Qlobal Cənubda QHT-lərlə bağlı əsas məsələ onların resursları səfərbər etmək qabiliyyətinin qiymətləndirilməsidir. Çünki bu resurslar məhz real problemləri həll edə biləcək insanlar üçün nəzərdə tutulmalıdır.

Mohamed Osman əlavə edib ki, qarşıya çıxan əsas problemlər uyğunluq və əməliyyatla bağlı məsələlərdir, yəni, yaxşı idarəetmə, şəffaflıq, düzgün satınalma prosedurları, davamlı maliyyə axını və səmərəli maliyyə idarəetmə sistemi bu sahədə mühüm əhəmiyyət kəsb edir.

Zimbabvenin Gənclər səfiri Abiel Elson qeyd edib ki, Qlobal Cənub QHT Forumu təkcə inkişafyönümlü təşəbbüs deyil, bu, yerli biliklərin tanıdılması, icmayönümlü innovasiyaların qeyd olunması və təşviqi üçün bir platformadır.

"Uzun illərdir ki, Qlobal Cənubun zəngin təcrübəyə, dözümlülüyə və müdrikliyə əsaslanan səsləri ayrı-ayrı sahələrdə səslənsə də, bu gün Bakıda dilləri və mədəniyyətləri aşaraq ədalət, bərabərlik və dəyişiklik uğrunda birlikdə hərəkət edən güc kimi bir araya gəlmişik. Gəlin bu forumdan şəbəkələşmək, həll yolları təklif etmək, tərəfdaşlıqlar qurmaq, resurslarımızı bölüşmək və ən əsası, cəmiyyətlərimizi gücləndirmək üçün istifadə edək", - deyə A.Elson bildirib.

Benində fəaliyyət göstərən "Gələcək üçün Gələcək" QHT-nin prezidenti və təsisçisi Salem Ayenan Qlobal Cənubun müxtəlif ölkələrindən olan gənclərin, təşkilatların və cəmiyyətlərin bir araya gəlməsi və əməkdaşlıq etməsinin vacib olduğunu bildirib. O, gənclərin beynəlxalq tədbirlərdə iştirakının vacibliyindən və onların səsini eşitdirmək üçün daha çox imkan yaradılmasının zəruriliyindən danışıb. S.Ayenan, həmçinin viza maneələri və maliyyə çətinlikləri kimi problemlərin gənclərin beynəlxalq səviyyədə fəaliyyət göstərmələrinə mane törətdiyini və bu məsələlərin həllinin vacibliyini vurğulayıb.

"Justice For All-PF Ethiopia" təşkilatında İdarəetmə və insan hüquqları departamentinin rəhbəri, Efiopiyanın Addis Ababa Universitetinin müəllimi Getahun Mosissa qlobal məsələlərin həllində cəmiyyətin müxtəlif təbəqələrinin, xüsusilə də gənclərin və həssas icmaların fəal iştirak etməsinin əhəmiyyətini vurğulayıb. Mosissa, xüsusən qeyri-hökumət təşkilatlarının və yerli icmaların səsinin daha çox eşidilməli olduğunu, onların təkliflərinin qlobal gündəmdə yer almasının vacib olduğunu bildirib. Onun sözlərinə görə, bu cür kollektiv fəaliyyət ədalətli inkişafı təmin etməklə yanaşı, həm də Qlobal Cənub ölkələrinin mövqeyinin gücləndirilməsinə kömək edəcək.

Melaneziya Korpus Qrupu Katibliyinin nümayəndəsi Balkonan Richard insan hüquqları, Qlobal Cənubun problemləri, iqlim dəyişikliyi və digər qlobal problemləri gündəmə gətirən belə mühüm tədbirin təşkilinə görə Azərbaycana minnətdarlığını bildirib.

Komor Adaları Mayot Azadlıq Liqasının prezidenti Mahammoud Mouhidine Fransanın ada ərazilərində insan hüquqlarına necə etinasız yanaşdığını və təbii sərvətləri amansızcasına israf etdiyini bildirib. O qeyd edib ki, ada dövlətlərinin sakinləri öz vətənlərində özlərini miqrant kimi hiss edirlər.

Çıxışlardan sonra panel sual-cavab sessiyası ilə davam edib.

Qeyd edək ki, forumda dünya əhalisinin təxminən 80 faizini əhatə edən 116 ölkədən nüfuzlu QHT rəhbərləri və vətəndaş cəmiyyəti nümayəndələri iştirak edirlər.

# Forum çərçivəsində 10 beynəlxalq əməkdaşlıq memorandumu imzalanıb

Bakıda keçirilən "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" Forumu çərçivəsində Azərbaycan qeyri-hökumət təşkilatları (QHT) və beynəlxalq QHT-lər arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atılıb.



AZƏRTAC xəbər verir ki, Forumun ikinci günü müxtəlif ölkələrdən gələn QHT nümayəndələri ilə əməkdaşlıq memorandumları imzalanıb.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi Çin və Özbəkistan nümayəndəlikləri ilə əməkdaşlıq barədə razılıq əldə edib.

Bundan əlavə, Azərbaycanın müxtəlif QHT-ləri də beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq sənədləri imzalayıblar.

İmzalanan memorandumlar müxtəlif sahələrdə - insan hüquqları, sosial rifah, iqlim dəyişikliyi, əlilliyi olan şəxslərin hüquqları və vətəndaş cəmiyyətinin gücləndirilməsi istiqamətində birgə layihələrin reallaşdırılmasını nəzərdə tutur.

Bu əməkdaşlıqlar forumun beynəlxalq və regional vətəndaş cəmiyyətləri arasında həmrəyliyin və təcrübə mübadiləsinin daha da gücləndirilməsinə verdiyi töhfənin nümunəsi kimi qiymətləndirilir.

# *Vuk-Cin ÇANQ:* "Qlobal Cənubun səsi daha çox eşidilməli, forumlar real addımlar üçün platforma olmalıdır"

"Bu forum bütün QHT-lərin bir araya gələrək hazırkı qlobal problemlərə qarşı birgə mübarizə aparması, qarşılıqlı əlaqələrin qurulması və əməkdaşlıq imkanlarının müzakirəsi üçün mühüm bir platformadır".

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin QHT Şöbəsinin rəisi Vuk-Cin Çanq deyib. Azərbaycan Hökumətini və QHT-lərini bu gün böyük əhəmiyyət daşıyan foruma evsahibliyinə görə təbrik edən Vuk-Cin Çanq bildirib: "Bizim Qlobal Cənubda daha çox dəstəyə ehtiyacımız var. QHT-lərlə əməkdaşlıq üçün akkreditasiya prosesimiz mövcuddur. Hazırda 6500 akkreditə olunmuş QHT-miz var ki, onların da cəmi 40 faizi Qlobal Cənubun, 60-70 faizi isə Qlobal Şimalın payına düşür. Dünyanın üzləşdiyi problemlərin həllində Qlobal Cənubun səsi daha çox eşidilməli və bu bölgə daha fəal olmalıdır. Bu baxımdan iştirak etdiyimiz forum yalnız mövcud məsələləri müzakirə etmək üçün deyil, eyni zamanda onların həlli və konkret addımlar üçün də mühüm platforma ola bilər".

# "Sərhədləri aşmaq: firavan gələcək naminə D8 əməkdaşlığı"

Bakıda keçirilən "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" adlı beynəlxalq Forum çərçivəsində "Sərhədləri aşmaq: firavan gələcək naminə D8 əməkdaşlığı" mövzusunda panel müzakirəsi təşkil olunub.



AZƏRTAC xəbər verir ki, iclasın moderatoru Azərbaycan Respublikası Gənclər Fondunun şöbə müdiri Orduxan Qəhrəmanzadə olub. Onun sözlərinə görə, Azərbaycanın D8-ə üzv olması bizim üçün tarixi bir addımdır. Bu, təşkilatın yaranmasından sonra baş tutan ilk genişlənmə hadisəsidir. Bu fakt Prezident İlham Əliyevin uğurlu və ardıcıl xarici siyasətinin bariz göstəricisidir. Şöbə müdiri bildirib ki, biz iqtisadi, sosial və siyasi əməkdaşlıq üçün güclü bir platformada birləşməyimizdən qürur duyuruq. Qlobal müsəlman əhalisinin 60 faizini təmsil edən üzv dövlətlərlə yanaşı, Azərbaycanın D8-ə qoşulması ölkəmizin artan beynəlxalq nüfuzunu və etibarlı liderliyini əks etdirir. Şərqlə Qərb arasında körpü rolunu oynayan, İslam mədəniyyəti və sivilizasiyasının əsas mərkəzlərindən biri kimi Azərbaycan iqtisadi əməkdaşlığın, regional sabitliyin və islam həmrəyliyinin təşviqinə, eləcə də bütün dünyada islamofobiya ilə mübarizəyə dəstək olmaqla D8-in missiyasına əhəmiyyətli töhfə verəcək.

Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin sədri Hüseyn Böyükfırat qeyd edib ki, bu gün dünyada ən çox ehtiyac duyulan dəyərlər D8 bayrağında ifadə olunan altı əsas prinsipdə əks olunub. Bunlar müharibə yox, sülh, münaqişə yox, dialoq, ikili standartlar yox, ədalət, üstünlük yox, bərabərlik, istismar yox, əməkdaşlıq, zülm və hökmranlıq yox, insan haqları, demokratiya və azadlıqdır. Bu prinsiplər yalnız D8 ölkələri üçün deyil, bütün dünya üçün vacibdir.

H.Böyükfırat bildirib ki, qeyri-hökumət təşkilatları cəmiyyətin vicdanını təmsil edir. Bu gün D8 ölkələrinin və ümumilikdə müsəlman dövlətlərinin vətəndaş cəmiyyətlərinin birliyi və əməkdaşlığı mühüm nəticələr verir. O qeyd edib ki, vətəndaş cəmiyyəti təşkilatlarının əsas vəzifəsi ədaləti müdafiə etmək, cəmiyyətin haqq səsini dünyaya çatdırmaqdır.

Hüseyn Böyükfırat, həmçinin Qarabağ Zəfəri zamanı Türkiyənin və Azərbaycanın birlik nümayiş etdirdiyini vurğulayıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov bildirib ki, D8 alyansı tərkibində 10 milyon nəfər əhalisi olan ölkədən tutmuş 300 milyona yaxın əhalisi olan dövlətlər yer alır və bu müxtəliflik böyük potensial deməkdir. Onun sözlərinə görə, bu təşkilat qlobal həmrəylik və qarşılıqlı inkişaf üçün mühüm platforma ola bilər. "Bu gün burada inkişaf etməkdə olan ölkələrin nümayəndələri kimi toplaşmışıq. Tarix boyu suverenliyimizi möhkəmləndirmək, iqtisadiyyatımızı inkişaf etdirmək, təhsil, səhiyyə və ətraf mühitin qorunması sahələrində mübarizə aparmışıq. D8 çərçivəsində Azərbaycan digər ölkələrin dövlətçilik təcrübəsindən faydalana, eyni zamanda öz uğurlu modellərini bölüşə bilər ki, bu da ölkəmiz üçün unikal imkan yaradır", - deyə Amin Məmmədov əlavə edib.

Ərəb Dövlətləri Liqasının Ətraf Mühit və Meteorologiya İdarəsinin direktoru Mahmud Fəth-Allahın fikrincə, inkişaf etməkdə olan ölkələrin - Qlobal Cənubun beynəlxalq təşəbbüslərdə iştirakı bilik və öhdəliklərin paylaşılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu iştirak qlobal siyasət və qərarların daha inklüziv və müxtəlif baxışları əhatə etməsinə imkan yaradır. O bildirib ki, Qlobal Cənub ölkələrinin beynəlxalq platformalarda fəal iştirakı onların səslərinin eşidilməsini təmin edir və qlobal qərarlara təsir imkanlarını artırır. Bu, həmçinin onların sosial-iqtisadi inkişafına müsbət təsir göstərir.

Mahmud Fəth-Allah vurğulayıb ki, inkişaf etməkdə olan ölkələr arasında birliyin və əməkdaşlığın gücləndirilməsi iqlim dəyişikliyi, sağlamlıq böhranları və yoxsulluğun azaldılması kimi ortaq problemlərin həllinə yönəlmiş birgə səyləri gücləndirir. Onun sözlərinə görə, bu fəal iştirak ölkələrin maraqlarını müdafiə etməyə və qlobal miqyasda gələcəyə dair vahid vizyonun formalaşmasına mühüm töhfə verir.

İqlim dəyişikliyi üzrə fəal Olumide Idovu diqqətə çatdırıb ki, D8 təşkilatı yoxsulluq, iqlim dəyişikliyinin təsirləri, rəqəmsal bərabərsizlik, ticarət balanssızlığı və digər qlobal çağırışlar daxil olmaqla, Qlobal Cənub ölkələrinin üzləşdiyi ədalətsizliklərə qarşı mübarizədə və onlara cavab verilməsində vahid cəbhə kimi çıxış edir.

Ekofəal qeyd edib ki, hazırda keçirilən tədbirlər və müzakirə olunan mövzular D8 əməkdaşlığının firavan gələcək naminə necə gücləndirilə biləcəyini göstərir. Afrikada əhalisinin sayına görə Nigeriyanın ön sıralarda olduğunu xatırladan fəal vurğulayıb ki, ölkə iqtisadi inkişaf baxımından ciddi çağırışlarla üz-üzədir. Bu baxımdan D8 əməkdaşlığı üzv ölkələr arasında iqtisadi inteqrasiyanın və birgə inkişafın vacibliyini önə çıxarır.

Digər çıxış edənlər Banqladeşin SETU təşkilatının icraçı direktoru Abdul Quader, İnformasiya Texnologiyaları və Açıq Mənbə Assosiasiyasının nümayəndəsi Irvan Nanda, Gənc Sülh və İnkişaf Korpusunun (YPDC) üzvü Adnan Ullah, Malayziyanın "Generation Nexus" təşkilatının nümayəndəsi Muhammad Naufal Qlobal Cənub ölkələrinin birgə əməkdaşlığının və inkişafının vacibliyini vurğulayıblar. Onlar rəqəmsal bərabərlik, gənclərin sülh və inkişaf proseslərinə cəlb edilməsi, həmçinin sosial bərabərlik və inklüzivlik prinsiplərinin təşviqinin Qlobal Cənubun dayanıqlı inkişafı üçün əsas amillər olduğunu qeyd ediblər. Eyni zamanda texnoloji bərabərliyin təmin edilməsi, gənclərin liderlik bacarıqlarının inkişafı və ortaq gələcək üçün güclü tərəfdaşlıq yaradılması yolları ətrafında fikir mübadiləsi aparılıb.

Panel iclas müzakirələrlə davam etdirilib.







# Gəncə III MDB Oyunlarına hazırlaşır

## Şəhər icra hakimiyyətinin başçısı Niyazi BAYRAMOV:

### "Əminik ki, bu mötəbər idman tədbiri də ölkəmizin imicinə əlavə töhfə verəcək, sürətli inkişafımızın göstəricisinə çevriləcək"

**Bu ilin sentyabr ayında keçiriləcək III MDB Oyunları kimi əhəmiyyətli bir idman tədbirinə Azərbaycanın evsahibliyi etməsi söz yox ki, respublikamızın idman ölkəsi kimi tanınmasını bir daha göstərir. Oyunların əsas hissəsinin 2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı seçilmiş Gəncədə keçirilməsinin qərara alınması isə ölkəmizdə idmanın və idman infrastrukturunun bütün regionlarda inkişafının təsdiqidir.**

**Oyunlarda iştirak etmək üçün MDB idman heyətləri ilə yanaşı, bir sıra digər dövlətlərin idmançılarının da Azərbaycan hökumətinin dəvəti ilə ölkəmizə, o cümlədən Gəncəyə gəlmələri gözlənilir. Odur ki, yarışların masştabı nəzərə alınaraq Prezident İlham Əliyevin sərəncamı ilə III MDB Oyunlarının yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədilə Təşkilat Komitəsi yaradılmış və komitəyə qarşıya qoyulmuş vəzifələrin icrası və digər aidiyyəti məsələlər üzrə müvafiq tapşırıqlar verilmişdir. Həmin tapşırıqlara əsasən, artıq bir neçə aydır ki, Gəncədə geniş hazırlıq işlərinə başlanılmışdır. Demək olar ki, bu gün qədim Nizami yurdu bir neçə aydan sonra başlayacaq idman yarışlarının ritmi ilə nəfəs alır.**

**III MDB Oyunlarına hazırlığın vəziyyəti ilə bağlı Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovla görüşüb müsahibə aldıq:**

*- Niyazi müəllim, Gəncə bu ilin sentyabr ayında keçiriləcək mötəbər bir tədbirə - III MDB Oyunlarına evsahibliyi edəcək. Bu tədbirin Gəncədə keçirilməsi heç də təsadüfi deyil. Əvvəla, Gəncə 2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı seçilmişdir. Bundan başqa, şəhərdə əldə olunan nailiyyətlər sırasında ən çox diqqət yetirilən işlərdən biri yeni idman qurğularının istifadəyə verilməsi olub. Bütün bunlar isə III MDB Oyunlarının Gəncədə peşəkarlıqla və yüksək səviyyədə keçirilməsi üçün geniş imkanlar açır.*

- Bildiyiniz kimi, Heydər Əliyevin ölkəmizə hələ birinci rəhbərliyi dövründə digər sahələrlə yanaşı, idmanın da inkişafına böyük diqqətlə yanaşılmışdır. O illər bu sahədə maddi-texniki bazanın yaradılması üçün mühüm işlər görülmüşdür. Xeyli sayda idman kompleksləri, qurğuları tikilmiş, meydançalar salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdır. Ümummilli Liderin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra isə ölkədə idmana münasibət yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycanın müxtəlif bölgələrində müasir tipli olimpiya idman kompleksləri tikilib istifadəyə verilmişdir. Həmin komplekslərdən biri də ölkəmizin ikinci böyük şəhəri olan Gəncədə inşa edilmişdir. Kompleksin Ulu Öndərin 2002-ci ilin sentyabrında Gəncəyə səfəri zamanı istifadəyə verilməsi şəhər sakinləri üçün ən mühüm hadisələrdən biri olmuşdur.

Sevindirici haldır ki, təməli Heydər Əliyev tərəfindən qoyulan idman siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. 2024-cü ilin aprelində Prezidentin şəhərimizə növbəti səfəri zamanı istifadəyə verilən Gəncə İdman Sarayı bunun bariz nümunəsidir. Ümumi sahəsi 40 min kvadratmetrə yaxın olan idman sarayında bütün zəruri infrastruktur var. Böyük zalda beynəlxalq standartlara uyğun basketbol, voleybol, həndbol, minifutbol və atletika oyunlarının keçirilməsi nəzərdə tutulur. Zalda 2200 nəfərlik oturacaq yeri olan tribuna, 850 nəfərlik mobil oturacaq və fiziki məhdudiyyəti olan tamaşaçılar üçün müvafiq yerlər ayrılmışdır. Burada həmçinin VIP bölmə, idmançılar və hakimlər üçün müxtəlif təyinatlı sahələr də yaradılmışdır.

İdman sarayındakı üzgüçülük hovuzu Beynəlxalq Üzgüçülük Federasiyasının standartlarına tam cavab verir. Uzunluğu 50, eni 21, dərinliyi 3 metr olan hovuzda 4, 2,2 və 1,2 metrə qədər qalxa bilən mobil hərəkətli döşəmə quraşdırılmışdır. Zalda üzgüçülük yarışlarını 1400-dən çox tamaşaçı izləyə biləcək. Fiziki məhdudiyyəti olan tamaşaçılar üçün də müvafiq yerlər ayrılmışdır. Üzgüçülük hovuzu da VIP bölmə, idmançılar və hakimlər üçün müxtəlif təyinatlı sahələrdən ibarətdir.

Gəncə İdman Sarayının kiçik zalı müvafiq olaraq 2, 3 və 4 yerə bölünmək imkanına malikdir. Burada ağır atletika, güləş, cüdo və boks zalları, müxtəlif təyinatlı otaqlar fəaliyyət göstərəcək və idmanın ayrı-ayrı sahələri tədris ediləcək.

Nəhəng idman qurğusunda Beynəlxalq İdman Atıcılığı Federasiyasının (ISSF) standartlarına uyğun atıcılıq zalı, həmçinin müxtəlif ölçülü yoqa, pilates, atletika, fitnes, boulinq, masaüstü tennis, şahmat, kross-fit zalları, SPA mərkəzi, bilyard masası, uşaq otağı, 3 konfrans zalı, böyük restoran, kofe-breyk bölmələri və marketlər fəaliyyət göstərəcək.

Bu möhtəşəm idman qurğusunun əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın olmasıdır. 80 nömrəli mehmanxanada 160 idmançının qalması və istirahəti üçün hər cür imkan var. Ərazidə geniş abadlıq-quruculuq işləri görülmüş, yaşıllıq zolaqları salınmış, istirahət guşələri yaradılmış, müşahidə kameraları quraşdırılmışdır.

Gəncə sakinləri və idmansevərləri ni sevindirən digər mühüm hadisə isə şəhər stadionunun yenidən inşa edilməsidir. Dövlət başçısı Nizami yurdunda səfərdə olarkən Gəncə Şəhər Stadionunun təməlini qoydu. Məlumat üçün bildirim ki, 1959-1963-cü illərdə inşa edilən şəhər stadionu 1964-cü ildə istismara verilmişdir. Son illər tamaşaçı tribunaları yararsız vəziyyətə düşdüyündən və texniki cəhətdən istismarı mümkün olmadığından stadion qismən fəaliyyət göstərirdi. İndi isə stadionun ərazisində köməkçi məşq meydançaları və Futbol Akademiyası üçün bina tikilir. Dövlət başçısının 2023-cü il 6 oktyabr tarixli sərəncamına əsasən, Gəncə Şəhər Stadionunun yenidən qurulması işlərinin layihələndirilməsi və həyata keçirilməsi üçün Prezidentin Ehtiyat Fondundan ilkin olaraq bir milyon manat vəsait ayrılmışdır.

Onu da qeyd edək ki, yenidənqurma işləri çərçivəsində stadionun ərazisi genişləndirilərək 10 hektara çatdırılıb. UEFA-nın 4-cü kateqoriya standartlarına uyğun inşa edilən stadionun tamaşaçı tutumu layihə üzrə 15 min 464 yerlikdir. Stadionda VVIP, VIP, SKY-box, media nümayəndələri və fiziki imkanları məhdud tamaşaçılar üçün müvafiq sayda oturacaq sahələri, futbolçular üçün soyunub-geyinmə otaqları, konfrans zalı, tibb otağı, hakimlər və texniki heyət üçün otaqlar nəzərdə tutulur. Eyni zamanda layihəyə əsasən, stadionun daxilində bilet satışı, eləcə də müxtəlif ictimai iaşə obyektləri, yerüstü avtodayanacaqlar, nəzarət-buraxılış məntəqələri yaradılacaq. Stadion UEFA tələblərinə uyğun işıqlandırma, səs, yayım, internet, təhlükəsizlik, giriş-çıxış sistemləri ilə təchiz olunacaq. Bir sözlə, stadionun istifadəyə verilməsi istər yerli, istərsə də beynəlxalq yarışların keçirilməsinə hərtərəfli şərait yaradacaq. Stadionda dəmir, beton və hörgü işləri artıq başa çatmışdır.

III MDB Oyunları ilə əlaqədar olaraq Gəncə Olimpiya İdman Kompleksi də təmirə dayandırılıb. Cari ilin mart ayından burada əsaslı yenidənqurma işlərinə başlanılmışdır. 2002-ci ildən fəaliyyət göstərən kompleksdə 900 tamaşaçı yerlik universal zal, üzgüçülük hovuzu, güləş zalı, basketbol meydançası, trenajor zalı, digər köməkçi və texniki binalar mövcuddur. Burada cüdo, taekvando, karate, basketbol, gimnastika, voleybol, üzgüçülük, MMA kimi idman bölmələri fəaliyyət göstərir.













Bunlardan əlavə, "Təhsil Respublika İdman Mərkəzi" və Gəncə şəhər 1 nömrəli Uşaq Gənclər İdman Şahmat Məktəbi üçün yeni binanın inşası da sürətlə davam edir. Yeni bina 6,4 hektar ərazidə yerləşir. Burada 4 yeni - üzgüçülük, atıcılıq, gimnastika, qılıncoynatma - olmaqla ümumilikdə 19 idman növü üzrə tədris aparılacaq. Ərazidə yarışların keçirilməsi üçün 850 nəfər tamaşaçı tutumuna malik 100 metrlik məşqlərin keçirilməsi üçün isə 90 metrlik futbol meydançaları, mini bağlı meydança, 520 yerlik tamaşaçı tutumuna malik basketbol meydançası, 520 yerlik tamaşaçı tutumuna malik tennis meydançası (kort), 168x48 kvadratmetr ölçüdə 10 idman zalı, 1080 nəfərlik universal zal, 350 yerlik tamaşaçı tutumuna malik üzgüçülük zalı olacaq. Ərazidə həmçinin şəhərə qonaq gələn idmançıların yerləşdirilməsi üçün 80 nəfərlik hotel də inşa edilir.



*- Azərbaycan dünyada idman ölkəsi kimi tanınır və bu sahədə qazandığımız uğurlar, əldə etdiyimiz nailiyyətlər beynəlxalq idman ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Bu həm də Azərbaycanda idman sahəsindəki inkişaf proseslərinə beynəlxalq miqyasda göstərilən marağın nümunəsidir. Ötən illər ərzində Azərbaycan bir çox mötəbər beynəlxalq tədbirə evsahibliyi edib. Buna 2015-ci ilin yayında ilk dəfə keçirilən I Avropa Oyunlarını misal göstərmək olar. Həmçinin 2016-cı ildən başlayaraq Bakıda hər il "Formula-1" Qran-prisi keçirilir. Bunlardan əlavə, 2017-ci ildə ölkəmiz IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi edib. Bu il isə Azərbaycan, o cümlədən Gəncə III MDB Oyunlarının ünvanı olacaq. Təbii ki, həmin ərəfədə şəhərə çoxlu sayda idmançı və turist gələcək. Bununla bağlı hansı hazırlıq işləri görülür?*

- Bəli, həqiqətən III MDB Oyunları zamanı ölkəmizə, o cümlədən Gəncəyə idmançılarla yanaşı, xeyli sayda turistin gəlməsi də gözlənilir. İlkin proqnozlara görə, oyunlar zamanı şəhərimizə iştirakçı ölkələrdən idmançılar da daxil olmaqla, minlərlə xarici ölkə vətəndaşı gələcək. Gələn turistlərin Gəncə ərazisində olan hotellərdə yerləşdirilməsi planlaşdırılır. Hazırda Azərbaycan Hotellər Assosiasiyası Dövlət Turizm Agentliyinin Gəncə Regional Turizm İdarəsi ilə birlikdə şəhərimiz də daxil olmaqla, bütünlükdə qərb bölgəsində fəaliyyət göstərən hotellərə ulduz sertifikatlarının verilməsi işini həyata keçirir. Bununla yanaşı, Dövlət Turizm Agentliyinin təşkilatçılığı və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Gəncə şəhəri, Heydər Əliyev prospekti, 423 ünvanının qarşısında Gəncə Turizm İnformasiya Məntəqəsi quraşdırılıb. Məntəqə həftənin 5 günü saat 09:30-dan 17:30-a qədər fəaliyyət göstərir. Burada Gəncənin və qərb bölgəsinə daxil olan turistik destinasiyaların müxtəlif çap materialları və tanıtım videoçarxlarını izləyib bölgəmiz haqqında geniş məlumat əldə etmək mümkündür. Eyni zamanda Gəncə Regional Turizm İdarəsi tərəfindən şəhərimizin turist xəritəsi, o cümlədən qərb bölgəsi üzrə turizm və ekskursiya marşrutu hazırlanıb. Digər işimiz bələdçilər şəbəkəsinin formalaşdırılması və turizm şirkətlərinə, turistlərə həm də müstəqil bələdçilər tərəfindən ödənişli xidmətlər göstərilməsinin təşkili olub.

*- Həmin ərəfədə şəhərə gələn qonaqların asudə vaxtlarının təşkili üçün hansı işlər görüləcəkdir?*

- Şəhərimizə gələn turistlərin asudə vaxtlarının səmərəli təşkili üçün Gəncədə olan mədəniyyət və incəsənət müəssisələrinin repertuarlarının genişləndirilməsi nəzərdə tutulmuşdur. Belə ki, Gəncə Dövlət Milli Dram Teatrı Oyunların keçirildiyi müddətdə repertuarına 12 səhnə əsərini daxil edib. Həmin günlər teatra gələn tamaşaçılar "Hekayəti Müsyö Jordan və Dərviş Məstəli şah", "Toros canavarı", "Cavad xan", "Xərabət gözəli", "Kral ölür", "Ana", "Xanuma" və s. tamaşaları izləyə biləcəklər. Digər tədbirlərimiz də olacaq. Çalışacağıq ki, qonaqlarımız boş vaxtlarında darıxmasınlar.

*- Azərbaycanda keçirilən beynəlxalq yarışlarda könüllülərin fəaliyyətindən maksimum istifadə edilir. Təbii ki, III MDB Oyunları bu baxımdan istisna olmayacaq.*

- Hazırda III MDB Oyunları üçün könüllülər qrupu yaradılır. Bu məqsədlə Gəncədə fəaliyyət göstərən ali və orta ixtisas müəssisələrində təhsil alan tələbə-gənclərlə görüşlər keçirilir, müvafiq söhbətlər aparılır. Sözsüz ki, III MDB Oyunları regionlarda yaşayan və təhsil alan gənclər üçün beynəlxalq tədbirlərdə iştirak etmək, təşkilatçılıq bacarıqlarını inkişaf etdirmək və turizm sahəsində təcrübə qazanmaq üçün əvəzsiz bir fürsət olacaq və gənclərimiz bu fürsətdən yetərincə yararlanacaqlar.

*- Niyazi müəllim, Gəncə Azərbaycanın qədim şəhərlərindən biridir. Son illər şəhərdə aparılan abadlıq və yenidənqurma işləri onu tanınmış Avropa şəhərləri ilə müqayisə etməyə imkan verir. Söz yox ki, bu inkişaf davam edir. Elə III MDB Oyunlarına hazırlıq dövründə də şəhərdə sürətli yenidənqurma işləri aparılır.*

- Dövlət başçısı III MDB Oyunlarının Gəncədə keçirilməsindən danışarkən qeyd etmişdir ki, həmin tədbirlə bağlı həm şəhər infrastrukturu yenilənəcək, həm də tarixi binaların bərpası və digər infrastruktur layihələri icra ediləcək ki, bizim qədim şəhərimiz olan Nizami yurdu Gəncə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda tarixi simasını və müasirliyini təqdim etsin. Elə ona görə də bu gün Gəncədə genişmiqyaslı təmir-tikinti və abadlıq işlərinə başlanılmışdır.

İlk növbədə onu bildirim ki, Gəncənin daxili avtomobil yollarında təmir-tikinti işləri həyata keçirilir. İşlər Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən aparılır. Agentlik tərəfindən təmir olunan küçə və prospektlərin ümumi sahəsi 843 min, Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən təmir olunan küçə və məhəllədaxili yolların ümumi sahəsi 260 min kvadratmetrdir. Ümumilikdə 90-na yaxın küçə, prospekt və məhəllədaxili yolun asfalt örtüyü yenilənir. Həyata keçirilən işlər çərçivəsində vətəndaşların təhlükəsiz və rahat hərəkətini təmin etmək üçün yararsız piyada səkiləri təmir olunur, zəruri olan yerlərdə yeni piyada səkiləri salınır.

Bununla yanaşı, şəhərin bir çox, xüsusən mərkəzi hissəsində fasadları təmir olunan fərdi yaşayış evlərinin dam örtükləri dəyişdirilir. Ümumilikdə 91 min kvadratmetr ölçüdə dam örtüyünün yenilənməsi nəzərdə tutulur. Artıq 35 min kvadratmetr ölçüdə dam örtüyü yenilənib. Üstəlik, şəhərimizdə müxtəlif ərazilərdə 11 abad məhəllə də yaradılıb.

Paralel olaraq, "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsi çərçivəsində Gəncənin su təchizatı və kanalizasiya şəbəkəsinin tikintisi davam edir. İçməli su xətti şəbəkəsinin yenilənməsi və qurulması üzrə işlər təxminən 54, çirkli su xətti şəbəkəsinin yenilənməsi və qurulması üzrə isə 46 faiz icra edilmişdir.

*- Yəqin park və xiyabanlar da unudulmur.*

- Sözsüz. Bilirsiniz ki, Gəncədə sakinlərin və şəhərimizə gələn qonaqların zövqünü oxşayan xeyli sayda istirahət parkı və xiyaban mövcuddur. 450 hektar ərazidə yerləşən Heydər Əliyev Park-Xiyaban Kompleksi təkcə Azərbaycanın deyil, dünyanın ən böyük parklarından biridir. "Xan bağı" isə həm sakinlərin, həm də yerli və xarici turistlərin marağını çəkən istirahət parkları sırasındadır. Parkda aparılan əsaslı yenidənqurma işlərindən təqribən 15 ilə yaxın vaxt keçib. Bunu nəzərə alaraq "Xan bağı" istirahət parkında təmir işləri aparılır. Üstəlik, Gəncə şəhərinin Heydər Əliyev adına mərkəzi meydanında, Bayraq meydanında, Gəncəçay Park-Bulvar Kompleksində, həmçinin F.Əmirov adına parkda da genişmiqyaslı təmir-bərpa işləri görülür. Bundan başqa, Heydər Əliyev Park-Xiyaban Kompleksində 60 min kvadratmetr ərazidə ehtiyac duyulan hissələrdə tamet daşları yenilənəcək, ərazidəki süni göl yenidən qurulacaq, "Yaşıl teatr"da da təmir-bərpa işləri aparılacaq. İstirahət parkında olan iki fəvvarə isə ötən il yenidən qurularaq istifadəyə verilmişdir.

Onu da xatırladaq ki, qərb bölgəsində ilk dəfə olaraq Gəncə şəhərində Ekoloji Park Kompleksi yaradılmışdır. Prezident İlham Əliyev ötən ilin aprel ayında Gəncəyə etdiyi növbəti səfər zamanı burada aparılan işlərlə tanış olmuşdur. 11 hektar ərazini əhatə edən bu unikal parkda insanların rahatlığı və asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılmışdır. Kompleksdə bütün fəsillər boyu müxtəlif növ nadir gül-çiçək və ağac tingləri də yetişdirilir.

*- Gəncə həm də tarixi abidələrlə zəngindir. Oyunların keçirildiyi ərəfədə həm idmançıların, həm də şəhərə gələn turistlərin həmin tarixi yerlərə ekskursiyaları nəzərdə tutulurmu?*

- Təbii ki. Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə ölkənin elmi və mədəni həyatında xüsusi yerə malikdir. Bu özəl diyar dünyaya elmi bilikləri və fikirləri ilə öz dövrünü qabaqlamış mütəfəkkir Nizami Gəncəvi, şair, ilk şahmatçı qadın Məhsəti Gəncəvi, XVIII-XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Mirzə Şəfi Vazeh kimi dahi klassiklər bəxş etmişdir. Şəhərimizdə xeyli sayda tarixi abidə, müzey və müasir mədəniyyət ocaqları mövcuddur. Bu tikililər şəhərin qədim tarixinə şahidlik etməklə bərabər, Gəncənin zəngin mədəni irsini özündə əks etdirir. Gəncə Qala Qapıları-Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə Kompleksi, Nizami Gəncəvi Məqbərə Kompleksi, Cavad Xan türbəsi, Şah Abbas və Uğurlu xan karvansaraları, Gəncə qalası və digər abidələr tarixin qaranlıq səhifələrinə işıq tutaraq bu gündən keçmişə körpü salır. Çalışacağıq ki, gələn qonaqlar bütün bunları öz gözləri ilə görsünlər, onlar haqqında ətraflı məlumat alsınlar.

Bir sözlə, çalışırıq ki, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, qədim Nizami yurdu olan Gəncə bu mötəbər tədbir vasitəsilə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda tarixi simasını və müasirliyini təqdim etsin. Onu da bilirik ki, III MDB Oyunları üçün mərkəz şəhər məhz Gəncənin seçilməsi dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Gəncə və gəncəlilərə olan inamının nəticəsidir. Əminik ki, keçirilmiş digər beynəlxalq idman yarışları kimi, III MDB Oyunları da ölkəmizin imicinə əlavə töhfə verəcək, sürətli inkişafımızın göstəricisinə çevriləcək.

*Müsahibəni apardı*
***Sabir ƏLİYEV,***
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## "Avropa Şurasının insan hüquqları komissarının Azərbaycana qarşı bəyanatını qətiyyətlə rədd edirik"

Aprelin 29-da Avropa Şurasının (AŞ) insan hüquqları üzrə komissarı Maykl O'Flahertinin Azərbaycanda aparılan bəzi istintaq işləri, habelə bu yaxınlarda verilmiş məhkəmə qərarları ilə bağlı səsləndirdiyi qəbuledilməz, əsassız və tamamilə qərəzli bəyanatını qətiyyətlə rədd edirik.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Maykl O'Flahertinin Azərbaycan əleyhinə bəyanatını şərh edərkən deyib.

O, sözügedən bəyanatı Azərbaycanın daxili işlərinə və məhkəmə proseslərinə davam edən müdaxilə istiqamətində növbəti uğursuz cəhd adlandırıb.

Ayxan Hacızadə bildirib ki, milli qanunvericiliyə, beynəlxalq öhdəliklərə uyğun olaraq Azərbaycan Respublikasında insan hüquq və əsas azadlıqlarına təminat verilir və onlara tam hörmət edilir. Bununla yanaşı, sözügedən hüquq və azadlıqlar Azərbaycanın öz vəzifələrini yerinə yetirmək üçün müstəqil şəkildə fəaliyyət göstərən köklü məhkəmə institutları tərəfindən qorunur.

"Azərbaycanın öz suveren ərazilərində qanunun aliliyinə verdiyi təminat bəzi şəxslərə peşə fəaliyyətlərinə görə xüsusi imtiyazlar vermir, habelə onları ölkə qanunlarının tələblərinə əməl etməkdən azad etmir. Eyni zamanda insan hüquqları üzrə komissarın bəyanatında adıçəkilən şəxslərə qarşı müvafiq qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması ilə bağlı ittiham irəli sürülüb, cinayət-prosessual məcəlləyə ciddi riayət edilməklə müvafiq araşdırmalar aparılıb, onların məhkəmə qarşısında bütün hüquqları tam təmin edilib.

Biz Avropa Şurasının insan hüquqları üzrə ali komissarını Azərbaycanın müstəqil məhkəmə orqanlarında davam edən araşdırmalara müdaxilə etməkdən, habelə qəbuledilməz təzyiq göstərmək cəhdlərindən çəkinməyə, əvəzində isə diqqəti bir sıra digər AŞ ölkələrində insan hüquqları sahəsində mövcud çoxsaylı sistematik problemlərə, artan İslamofobiyaya, miqrantlara və sığınacaq axtaran şəxslərə qarşı ləyaqəti alçaldan rəftara, siyasi təqiblərə, həbsxanalarda baş verən ölüm hallarına, Avropa institutlarında geniş yayılmış korrupsiyaya və s. fokuslanmağa çağırırıq", - deyə XİN-in rəsmisi vurğulayıb.

## Fransa hökumətinin mahiyyəti - neokolonializm siyasəti



Müasir, qloballaşan dünyada neokolonializm siyasətini hələ də israrla davam etdirən ölkələrin olması təəssüf doğurur. Digər təəsüfləndirici məsələlərdən biri isə həmin ölkələrin başqalarına "demokratiya", "beynəlxalq hüquq" dərsi keçmək cəhdləridir.

Gözləri əsrlərdir ki, sərhədlərindən çox kənarda olan, başqa ölkələri müstəmləkəsinə çevirərək öz əsarətində saxlayan və yerli xalqları bütün haqq və hüquqlarından məhrum edən bir sıra Qərb ölkələri nə qədər örtbasdır etməyə çalışsalar da, əsl simalarını gizlədə bilmirlər.

İşğalçı Ermənistanın silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində 2020-ci ilin sentyabrında İkinci Qarabağ müharibəsi başlayanda da həmin ölkələr öz mövqelərini nümayiş etdirdilər. Qarabağda, Şərqi Zəngəzurda Ermənistanın işğalının başa çatmasını, haqqın, ədalətin qələbə çalmısını istəməməklə həm də işğalçılığa, müstəmləkəçiliyə qarşı çıxmadıqlarını göstərdilər. Çünki onların əksəriyyəti elə ən böyük müstəmləkəçilər idi. Ağalıq iddialarından əl çəkmədikləri neçə-neçə ölkənin tarixinə onların həyata keçirdikləri neokolonializm siyasəti nəticəsində qətliamlar, soyqırımları, dəhşətli faciələrlə dolu qara səhifələr yazılıb.

Tarixi boyu özgə torpaqlarına göz dikməmiş, əksinə, ayrı-ayrı dövrlərdə əzəli yurd yerləri işğala məruz qalmış Azərbaycan İkinci Qarabağ müharibəsində zəfərin artıq haqqın, ədalətin tərəfində olduğunu göstərdi.

Ermənistan Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərini otuz ilə yaxın ikili standartları normaya çevirən, riyakarlığı, yalanı, qərəzkarlığı özünə adət edən Fransa kimi ölkələrin havadarlığı ilə davam etdirmişdi. İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi bütün dünayaya nümayiş etdirdi ki, başqalarının himayəsinə sığınmaq deyil, öz gücünə arxalanmaq və ədalətin sonunda mütləq qalib gələcəyinə inanmaq lazımdır.

Təəssüf ki, İkinci Qarabağ müharibəsindən sonra da Ermənistan nə təxribat əməllərindən birdəfəlik əl çəkdi, nə də xarici himayədarlarından həmişəlik ümidini kəsdi. Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri və separatçılar Qarabağda təxribatlar, terrorlar törətməkdə davam etdilər. 2023-cü ilin sentyabrında Azərbaycan lokal xarakterli antiterror əməliyyatları aparmalı oldu. Nəticədə ərazi bütövlüyünü, suverenliyini tam təmin etdi.

Hər zaman sülhə, sabitliyə səy göstərən Azərbaycan öz mövqeyinə sadiqdir. Dövlətimzin, xalqımızın istəyi, məqsədi, məramı, fəaliyyəti sülhün bərqərar olmasıdır. Ermənistanla sülh sazişinin bağlanmasının təşəbbüskarı da elə qalib Azərbaycandır.

Ölkəmiz yalnız yerləşdiyi Cənubi Qafqaz regionunda deyil, bütün dünyada sülhün təmin olunmasını arzulayır. Dövlətimizin başçısı İlham Əliyevin Qlobal Cənub QHT Platformasının təsis konfransının iştirakçılarına ünvanladığı müraciətində bildirdiyi kimi, Azərbaycan hər zaman qarşılıqlı hörmət və birgə inkişaf prinsiplərinə əsaslanan siyasət aparıb: "Təəssüflər olsun ki, hazırda Qlobal Cənubu təmsil edən bir sıra ölkələrin hələ də əziyyət çəkdikləri əsas problemlərdən biri də bəzi Qərb ölkələrinin yürütdüyü neokolonializm siyasətidir. Biz müstəmləkəçiliyin bütün formalarını və təzahürlərini qətiyyətlə rədd edir, xalqlara faciələr, köləlik, iztirab gətirən bu cür davranışları qəbuledilməz hesab edirik", - Prezident İlham Əliyev deyib.

Dövlətimizin başçısı Azərbaycanın ölkələrin daxili işlərinə qarışmamaq prinsipinə əməl edən, xalqların siyasi sistemlərinə, mədəni, etnik, dini fərqliliklərinə hörmət edən, dinlərarası, sivilizasiyalararası, mədəniyyətlərarası dialoqu daim güclü təşviq edən ölkə olduğunu vurğulayıb. Prezident İlham Əliyev xoş arzularını diqqətə çatdırıb: "İnanıram ki, birgə fəaliyyətimizlə xalqlarımız üçün daha işıqlı bir gələcək, yeni, ədalətli dünya düzəni qura bilərik".

Bəşəriyyətin xilası ədalətin, haqqın qələbəsindədir. Neokolonializm siyasəti xalqlara yalnız bəlalar, ağrı-acılar, bədbəxtliklər gətirir. Onlara öz ölkələrinin təbii sərvətlərindən faydalanmağa, milli dəyərlərinə sahib çıxmağa, adət-ənənələrini yaşatmağa, inkişaf etdirməyə imkan vermir. Yeni Kaledoniyada, Korsikada, Afrikada, Mayotda, Fransa Polineziyasında və başqa ölkələrdə müstəmləkəçilik siyasətinə qarşı çıxaraq öz etiraz səslərini ucaldan yerli sakinlər işgəncələrlə üzləşir, həbs olunurlar. Çünki dünyanın ən böyük müstəmləkəçi dövlətlərindən biri olan Fransa sərhədlərindən min kilomerlərlə uzaqda yerləşən həmin ölkələri istismar etməkdə, talamaqda davam etmək üçün hər cür qanunsuzluq törətməkdən çəkinmir. Nəticədə Fransanın neokolonializm siyasəti yüz illər əvvəl olduğu kimi, bu gün də bir sıra ölkələrin faciələrinə səbəb olur. Rəsmi Paris isə yürütdüyü bədnam neokolonializm siyasətindən əl çəkmək niyyətində olmadığını hər addımda nümayiş etdirir. Müstəmləkəsi altında olan ölkələrin yerli sakinləri isə artıq əvvəlki illərlə müqayisədə daha qətiyyətlidirlər. Onlar hüquqlarını əllərindən alan, onlara əzab-əziyyətlər, dərd-ələm, faciələr gətirən müstəmləkə zəncirlərindən xilas olmaq üçün təhlükəsiz gələcək yolunda apardıqları mübarizələrdən geri çəkilmirlər.

Görünən odur ki, neokolonializm siyasətini hər vəchlə davam etdirən Emmanuel Makron hökuməti Fransanın keçmiş müstəmləkələrinə müstəqillik verməmək, əsarəti altında saxlamaqda davam etmək naminə bütün vasitələrə əl atmaqdadır. Lakin müasir, qloballaşan dünyada rəsmi Parisin əvvəlki kimi azadlıq və demokratiya adları altında müstəmləkəçilik simasını pərdələmək niyyəti baş tutmur. Çünki Fransa hökimətinin əsl üzü, məkrli, riyakar xisləti yalnız əsarəti altında saxladığı ölkələrin xalqlarına deyil, dünya ictimaiyyətinə bəllidir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## *Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxs:*
## "Talış kəndi istiqamətində yenicə basdırılmış 59 mina zərərsizləşdirdik"

Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi aprelin 29-da davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib, onları məhkəmə tərkibi, tərcüməçilər, katiblər, dövlət ittihamçıları və digərləri ilə tanış edib.

Sonra təqsirləndirilən Ruben Vardanyan və onun vəkili Avraam Berman məhkəmə kollegiyasına etiraz ediblər.

Təqsirləndirilən şəxsin müdafiəçisi A.Berman etirazı əsaslandıran zaman əvvəlki məhkəmə proseslərində verilən çoxsaylı vəsatətlərinin bir qisminin təmin olunmadığını, eləcə də hazırkı vaxtadək olan bütün məhkəmə iclas protokolları ilə tam tanış ola bilmədiklərini qeyd edərək, işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olduğunu və bu səbəbdən məhkəmə kollegiyasına etiraz etdiklərini deyib.

R.Vardanyan etirazı müdafiə edib.

Dövlət ittihamını müdafiə edən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev etiraza münasibət bildirərək deyib ki, qeyd olunan məsələlərlə bağlı məhkəmə əvvəlki proseslərdə artıq mövqeyini ifadə edib. O əlavə edib ki, məhkəmə iclas protokolları ilə tanış olmaq üçün müdafiə tərəfinə lazımi şərait yaradılır. V.Əliyev həmçinin deyib ki, ümumilikdə bu cür əsaslar, yəni, müdafiə tərəfinin vəsatətlərinin məhkəmə tərəfindən təmin olunmaması işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olması qənaətinə gəlməyə əsas verə bilməz.



Prosesdə iştirak edən zərərçəkmiş şəxslər etirazın təmin olunmamasını məhkəmədən xahiş ediblər.

Məhkəmə vəsatətə baxmaq üçün müşavirəyə gedib. Müşavirədən sonra müdafiə tərəfinin etirazına dair məhkəmə qərarı elan edilib. Qərara əsasən, etiraz baxılmamış saxlanılıb.

Belə ki, iclasa sədrlik edən qərarı əsaslandıran zaman diqqətə çatdırıb ki, müdafiə tərəfi Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə əsasən, işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olmasına dair konkret dəlillər təqdim etməyib.

Sonra zərərçəkənlər məhkəmədə ifadə veriblər.

Zərərçəkmiş şəxs Nurlan Bağırov Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidmət edərkən hərbçi yoldaşları ilə birlikdə Ermənistan silahlı qüvvələrinin qalıqları və qanunsuz erməni silahlı dəstələrinin hücumuna məruz qaldığını bildirib. N.Bağırovun sözlərinə görə, hadisə zamanı onlara atəş açılıb, əl qumbaraları atılıb. Nəticədə onun 14 hərbçi yoldaşı (Daxili Qoşunların 12, Müdafiə Nazirliyinin 2 nəfər hərbi qulluqçusu) şəhid olub, hərbçilərin bir hissəsi yaralanıb. N.Bağırov özünün də hadisə zamanı yaralandığını bildirib.

Digər zərərçəkmiş şəxs Şamil İsrəfilov da yaralandığını qeyd edərək deyib: "Odlu silahlardan atəş açırdılar, üzərimizə qumbara atırdılar. Qumbara partlaması nəticəsində yaralandım".

Ş.İsrəfilov dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandırarkən hadisə zamanı hərbçi yoldaşlarından 14 nəfərinin şəhid olduğunu, 24 nəfərin isə yaralandığını söyləyib.

Zərərçəkmiş şəxs Vüsal Eyyubov ifadəsində Ermənistan hərbçilərinin odlu silahdan açdıqları atəş nəticəsində yaralandığını diqqətə çatdırıb. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavab olaraq hadisə zamanı hərbçi yoldaşları arasında şəhid olanların və yaralananların olduğunu da bildirib.

Zərərçəkmiş Taciəddin Kərimov "N" saylı hərbi hissənin hərbi qulluqçusu kimi əvvəllər Tərtər rayonunun inzibati ərazisinə daxil olmuş, hazırda isə Ağdərə rayonuna aid olan Talış kəndi istiqamətində xidmət zamanı mina partlayışı nəticəsində xəsarət aldığını bildirib. Vurğulayıb ki, həmin vaxt o, xidmət yoldaşları ilə birgə azad edilmiş ərazilərdə təminat yolu açmaq üçün sahənin minalardan təmizlənməsi prosesi ilə məşğul olublar. Növbəti minanın zərərsizləşdirilməsi zamanı partlayış baş verib və o yaralanıb. Zərərçəkən Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavabında bildirib ki, həmin sahədə 59 mina zərərsizləşdiriblər. Aşkarlanan minalar son illər basdırılan və Ermənistanın istehsal etdiyi minalar olub. Zərərçəkmiş şəxs daha sonra bildirib: "Hadisə zamanı hərbçi yoldaşlarım aralıda olduğuna görə onlar yaralanmadılar".

Zərərçəkmiş şəxs Cavanşir Sultanov ifadəsində Ermənistan silahlı qüvvələrinin qalıqlarının və qanunsuz erməni silahlı birləşmələrinin təxribatının qarşısını alan zaman yaralandığını deyib.

Zərərçəkən Seymur Ağakərimov isə ifadəsində erməni hərbçilərinin atdıqları minaatan mərmisinin partlaması nəticəsində xəsarət aldığını vurğulayıb.

Zərərçəkmiş Vaqif Babayev Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı olduğunu, Zəngilan rayonunda xidməti vəzifələrini yerinə yetirən zaman mina partlaması nəticəsində xəsarət aldığını qeyd edib. Onun sözlərinə görə, zirehli texnika ərazidə iş apararkən tankəleyhinə minaya düşüb. Həmin vaxt yaxınlıqda olduğu üçün o, müxtəlif xəsarətlər alıb. Zərərçəkən şəxs dövlət ittihamını müdafiə edən prokurorların suallarını cavablandırarkən Ermənistanın mina terrorundan daha çox günahsız mülki insanların əziyyət çəkdiyini söyləyib.

Məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri də elan edilib.

Məhkəmənin növbəti iclası mayın 6-na təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

## Ermənistanda keçmiş hərbi xunta insanları küçə döyüşlərinə çağırır

Ermənistanda gün keçdikcə gərginlik daha da artır. Revanşistlər baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq üçün dəridən-qabıqdan çıxsa da, hələ ki, heç bir nəticəyə nail ola bilmirlər. Keçmiş hərbi xunta iqtidarın xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər.



Belə ki, son günlərdə Azərbaycanla sülh müqaviləsinin imzalanması ilə bağlı gedən müzakirələr fonunda keçmiş hərbi xuntanın revanş hərəkətləri vəziyyətin daha da qarışacağını göstərir.

Keçmiş prezident, "Respublika" partiyasının lideri Serj Sarkisyan əhalini küçə döyüşlərinə çağırıb. Sarkisyanın fikrincə, ermənilərin 90 faizi Paşinyan hakimiyyətini satqın hesab edir. Onun fikrincə, Nikolun iqtidarına qarşı ermənilərin bu cür fikirdə olması 2026-cı il seçkilərinə də öz təsirini göstərəcək. Sarkisyan daha da irəli gedərək ermənilərin narazılığının küçə döyüşlərinə çevrilməsi ehtimalının böyük olduğunu da vurğulayıb.

Qarşıdakı dövrdə Ermənistanı ciddi xaos, kəskin qarşıdurma gözləyir. Ermənistanın ikinci prezidenti Robert Koçaryan "Erməni Universiteti"nin tələbələri və müəllimləri ilə görüşündə deyib ki, effektiv olmaq üçün ölkənin döyüşə hazır ordusu olmalıdır: "Kifayət qədər mürəkkəb regionda yaşayırıq və mən sadəcə olaraq əminəm ki, bu regionda ya faktor olmalısan, ya da britaniyalıların dediyi kimi, süfrədə deyilsənsə, deməli, menyudasan. İndi ya menyuda, ya da faktor olmalıyıq. Döyüşə hazır orduya sahib olmaq üçün bizim həm də hərbi-siyasi müttəfiqlərimiz olmalıdır. Biz Çin və Rusiya deyilik. Bu məsələləri çox tez həll etmək lazımdır. Bunu bərpa etməsək, bu bölgənin menyusunda olacağıq".

"Bu regionda hər bir qeyri-sabit vəziyyət bizim üçün böyük risklər, çox böyük risklər yaradacaq və Zəngəzuru almaq həvəsi Azərbaycan üçün çox böyük olacaq. Bunun təhlükəsi var. Həm Zəngəzurla, həm də Göyçənin bir hissəsi ilə bağlı təhlükə var. Sənin dənizin yoxdur. Sənaye imkanlarının inkişafı üçün heç bir addım atılmayıb. Bu dəyişməlidir. Hətta deyə bilmərəm ki, atılmalı olan ilk addım təhlükəsizlik məsələsidir. Təhlükəsizlik məsələləri həll edilməsə, bütün digər məsələlər risk altına düşəcək", - deyə R.Koçaryan vurğulayıb.

Göründüyü kimi hər iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə növbəti dəfə hərbi xuntanın və ona bənzər digər araqızışdıranların çevriliş etmək xəyalları erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Qeyd edək ki, Azərbaycanla müharibədəki məğlubiyyət Ermənistanı elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil. Bütün bunlar, o cümlədən Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının hakimiyyətləri dövründən yığılıb qalmış ağır problemlər hazırki hakimiyyəti çətin vəziyyətdə qoyub. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövrünü unutmayıb.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR

## Ağalıda əhaliyə əkin üçün torpaqların icarəyə verilməsinə başlanıb

**Zəngilan rayonu Ağalı kəndi üzrə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi üçün kənd sakinləri ilə icarə müqavilələrinin imzalanması mərasimi keçirilib.**

İmzalanma mərasimində Kənd Təsərrüfatı Nazirliyi, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin əməkdaşları, nazirlik Aparatı və tabeli qurumların məsul şəxsləri, Zəngilan Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşları, kənd sakinləri, fermer və sahibkarlar iştirak ediblər.

Tədbirdə çıxış edən kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova bildirib ki, Ağalı kəndi üzrə torpaqların əkin məqsədli istifadəyə verilməsi üçün kənd sakinlərindən müraciətlərin qəbulu prosesi 1 mart - 31 mart tarixləri arasında Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) vasitəsilə aparılıb: "Ümumilikdə Ağalı kənd sakinlərindən kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi ilə bağlı 74 müraciət daxil olub. Torpaqların istifadəyə verilməsi prosesinin nəzərdə tutulan vaxtda yekunlaşdırılması məqsədilə Zəngilan Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşları tərəfindən kənd sakinlərinə hərtərəfli texniki dəstək göstərilib. Daxil olan müraciətlər təhlil edilib, şərtlərə cavab verən 68 müraciət təsdiqlənib. Təqdim edilən parsellərə müraciətlər çox olduğu üçün qaydalara əsasən birləşmə imkanları barədə məlumatlandırma aparılmış, habelə 2-30 aprel tarixləri arasında müraciətçilərə təlimlər keçirilmişdir. Müraciətləri təsdiqlənmiş şəxslərdən 32 nəfər tərəfindən 3 kooperativ formalaşdırılıb. Bununla da işğaldan azad olunmuş ərazilərdə ilk kooperativlər fəaliyyətə başlayıb. İlkin mərhələdə Kənd Təsərrüfatı Nazirliyi ilə kooperativlərdə birləşmiş kənd sakinləri arasında icarə müqavilələri imzalanıb. Müraciətləri təsdiqlənmiş digər kənd sakinləri ilə icarə müqaviləsinin bağlanması və icarəyə verilən ərazilərin sakinlərə yerində tanıdılması prosesi may ayının 31-dək davam edəcək".

Tədbirdə çıxış edən Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin baş məsləhətçisi Cahid Mövlayev qeyd edib ki, Böyük qayıdışın ilk ünvanı sayılan Zəngilan rayonunun Ağalı kəndində kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədi ilə sakinlərə güzəştli şərtlərlə icarəyə verilməsinə başlanılması buradakı əhalinin daha geniş səviyyədə kənd təsərrüfatı ilə məşğul olmalarına imkan yaradır və bu isə onların sosial həyat səviyyəsinin daha da yüksəldilməsinə dəstək olacaq: "Qaydalara əsasən, istifadəsinə torpaq sahələri verilmiş kənd sakinləri torpaqlardan təyinatına uyğun istifadə etməli, bu ərazinin iqlim şəraitinə uyğun, mütəxəssislərin tövsiyə etdikləri bitkiləri yetişdirməli, yalnız sertifikatlı toxum və tinglərdən istifadə etməli, torpaqların mühafizəsi, keyfiyyətinin qorunması, bərpası və yaxşılaşdırılması üçün müvafiq aqrotexniki tədbirləri görməlidirlər. Müəyyən olunmuş qaydalara (öhdəliklərinə) əməl etməyən sakinlər ilə bağlanan icarə müqavilələrinə xitam veriləcək, torpaq sahələri təyinatına uyğun istifadə üçün digər kənd sakinlərinin istifadəsinə veriləcək".

Qeyd edək ki, torpaq sahələri suvarılan ərazilər olub, əkin üçün hazır vəziyyətə gətirilmiş kənd ətrafında yerləşən torpaqlardır. Ağalı kəndində birillik və çoxillik bitkilərin əkilməsi nəzərdə tutulur. Əkin sahələrində müasir damlama və çiləmə suvarma sisteminin olması tələb edilir.



İcarə müqavilələrinin müddəti birillik bitkilər və yonca üçün 2, çoxillik bitkilər üçün 5 il təşkil edir. Növbəti illərdə torpaqdan səmərəli istifadənin nəticəsinə uyğun olaraq müqavilələrin müddəti uzadıla bilər.

Tədbir çərçivəsində kənd sakinlərinə aqrar sahədə dövlət dəstəyi tədbirləri, Kənd Təsərrüfatı Nazirliyinin tabeli qurumlarının aqrar sahədə göstərdiyi xidmətlər, aqrar subsidiya mexanizmi, texnika və damazlıq heyvanların alışının maliyyələşdirilməsi, kənd təsərrüfatı təyinatlı kreditlərin ayrılması, müasir suvarma sistemlərindən istifadənin əhəmiyyəti, aqrar sığorta mexanizminin tətbiqi ilə bağlı məlumatlandırma sessiyaları təşkil edilib.

İmzalanma mərasimindən sonra tədbir iştirakçıları Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun 5 hektar sahədə salınmış nümayiş əkinlərinə baxış keçiriblər. Nümayiş əkinlərinin salınmasında məqsəd torpaqları icarəyə götürmüş kənd sakinlərinə əkin üsulları, əkin sxemi, müasir suvarma sistemlərinin quraşdırılması təcrübəsi ilə yerində əyani tanış olmaq imkanı yaratmaqdır.

*"Azərbaycan"*

## Aqrar sektor ilin ilk rübündə

### 1,6 milyard manatlıq məhsul, 122,2 min hektarda yazlıq bitkilərin səpini

**Kənd təsərrüfatı qeyri-neft sektorunun inkişafını və əhalinin ərzaq təhlükəsizliyini təmin etmək, ümumi rifahı artırmaq baxımından olduqca vacib sahədir.**



Bu hədəflərə çatmaq üçün müasir texnologiyaların tətbiqi, sosial və iqtisadi dəstək, su və əkinçilik texnikası, infrastrukturun inkişafı kimi amillərin olması vacib və əsas şərtdir.

Bu baxımdan Azərbaycanda da son dövrlər kənd təsərrüfatının modernləşməsi üçün ünvanlı, konkret hədəflərə yönələn stimullaşdırıcı layihələrə geniş meydan verilir. Bunun nəticəsidir ki, iri biznes qurumlarının, eləcə də kiçik və orta sahibkarların - fermerlərin kənd təsərrüfatı sektorunda xüsusi fəallığı müşahidə olunur. İqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirən fermerlər daxili bazarda məhsul bolluğuna şərait yaratmaqla yanaşı, ölkənin ixrac potensialının artırılmasında da yaxından iştirak edirlər. Bu da ölkədə bitkiçilik və heyvandarlıq məhsullarının istehsalına, ümumi ixracda kənd təsərrüfatı mallarının payının artmasına səbəb olur.

Faktlara müraciət edək. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin ilk rübündə ölkə üzrə 1 milyard 602 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1,9 faiz çoxdur. Həmin vəsaitin 1 milyard 510 milyon manatlığı heyvandarlıq, 91,5 milyon manatlığı isə bitkiçilik məhsullarının payına düşür.

Havalar isindikcə ölkədə yaz-tarla işləri sürətlənir. Cari ilin birinci rübündə 122,2 min hektar sahədə yazlıq bitkilərin səpini aparılıb. İlin əvvəlindən 24 min hektarda dənli və dənli-paxlalı bitkilər (ondan 5,1 min hektarı dən üçün qarğıdalı), 26,9 min hektarda tərəvəz, 26,1 min hektarda kartof, 3,9 min hektarda bostan bitkiləri, 3,1 min hektarda dən üçün günəbaxan, 1,6 min hektarda şəkər çuğunduru, 0,1 min hektarda pambıq, 33,1 min hektarda çoxillik, 3,4 min hektarda birillik otlar əkilib.

İstehsala gəldikdə, hesabat dövründə təsərrüfatlarda 110 min ton tərəvəz məhsulları istehsal edilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz çoxdur.

Heyvandarlıq və quşçuluq sahəsindəki vəziyyətlə bağlı rəqəmlər də süd istehsalı istisna olmaqla müsbətdir: 3 ay ərzində ölkədə quş əti də daxil olmaqla diri çəkidə 141,6 min ton ət, 502,8 min ton süd, 583,1 milyon ədəd yumurta istehsal edilib. 2024-cü ilin müvafiq dövrünə nisbətən ət istehsalı 1,7, yumurta istehsalı 2 faiz artıb, süd istehsalı isə 0,3 faiz azalıb.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Tərtərdə humanitar tibbi aksiya keçirilib

**Qərbi Azərbaycan İcmasının Qadınlar və Ağsaqqallar şuraları, İcbari Tibbi Sığorta Dövlət Agentliyi, TƏBİB və Tərtər Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Tərtərin Bəyimsarov kəndində tibbi humanitar aksiya təşkil olunub.**



Aksiyadan əvvəl iştirakçılar Qərbi Azərbaycandakı yurd yerlərimizlə bağlı fotosərgi ilə tanış olublar. İcmanın Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı akademik Zərifə xanım Əliyevanın anadan olmasının 102-ci ildönümünü xatırladıb, onun zəngin həyat yolundan, pedaqoji və həkimlik fəaliyyətindən, yüksək insani keyfiyyətlərindən danışıb.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək bildirib ki, 1987-1991-ci illərdə Qərbi Azərbaycanda doğma yurdlarını tərk etmək məcburiyyətində qalan minlərlə soydaşımızın bir qismi Bəyimsarov kəndində məskunlaşıb. Sonra o, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olduğu gün təşkil edilən tibbi humanitar aksiyanın əhəmiyyətindən danışıb.

Aksiya zamanı Bəyimsarov kəndində məskunlaşmış Qərbi Azərbaycan qaçqınlarının tibbi müayinəsi keçirilib. Müayinələr zamanı səhhətində problem aşkarlanan sakinlərə müvafiq tövsiyə və məsləhətlər verilib.

Tədbir təşkilatçıları həmçinin kənddəki Şəhidlər abidəsini ziyarət edib, şəhid ailələrinə baş çəkib, onlara müxtəlif sovqatlar çatdırıblar.

*L.QULİYEV,*
*"Azərbaycan"*

## Mil düzündə büsat var

### Beyləqanda yaz-tarla işləri davam edir



**Yazın gəlişi ilə bərəkətli çöllərin sükutu pozulub. Səhər tezdən qaş qaralana kimi texnikalar sanki ana torpağa bərəkət nəğməsi oxuyur. Yaz-tarla işlərinin ahəngi Beyləqan rayonunda xüsusilə diqqət çəkir.**

Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələrin inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və tövsiyələr Beyləqan kəndlisinin konkret fəaliyyət proqramına çevrilmişdir. Rayonda peşəkar təşkilatçılıq bacarığı ilə səfərbər edilən mövcud imkanlar, əmək ehtiyatları iqtisadi inkişafın dönməz xarakter almasına, ərzaq bolluğunun təmin edilməsinə yönləndirilib.

Beyləqan ölkənin aqrar sektorunda xüsusi çəkisi ağır olan rayonlardandır. Bərəkətli Mil düzü taleyini ona bağlayan insanların  çəkdiyi zəhməti, axıtdığı alın tərini heç zaman qarşılıqsız qoymur, əvəzini birə-beş qaytarır. Pambıqçılıq hələ sovet dönəmində Beyləqanın iqtisadiyyatında mühüm yer tuturdu. Onun bolluğu rayon əhalisinin güzəranına, həyat tərzinə əhəmiyyətli təsir göstərirdi. Təəssüf ki, 90-cı illərin əvvəllərində məlum səbəblərdən bu strateji sahənin inkişafına laqeyd münasibət öz zərərli təsirini göstərdi. İdarəetmədəki qüsurlar kəndlini torpaqdan soyutdu. Kolxozların maşın-traktor parkları tar-mar edildi, tarladan üz döndərən, torpaqdan küsən kəndlilər yağışdan sonra göbələk kimi çoxalan çayxanalarda lövbər saldılar. Səhərdən axşama kimi günlərini nərd-domino oynamaqla keçirməyə adət etdilər.

Prezident İlham Əliyev ölkədəki real vəziyyəti son dərəcə doğru qiymətləndirərək ənənəvi kənd təsərrüfatı sahələrini, o cümlədən pambıqçılığı, taxılçılığı, baramaçılığı inkişaf etdirmək barədə direktiv qərarlar imzaladı. Bununla  ölkənin aqrar sektorunda yeni inkişaf dövrü başladı. Bütün ölkədə olduğu kimi, Beyləqan kəndlisinin də üzünə sanki günəş doğdu. Aqrar sektorun innovativ əsaslara keçirilməsinə, müasir aqroparkların  yaradılmasına böyük önəm verildi. Beyləqanda bir-birinin ardınca  mütərəqqi texnologiyaların tətbiqinə əsaslanan yeni istehsal sahələri  - "Cahan Holding" MMC, "Qarabağ Taxıl" MMC, "Qarabağ Toxum" MMC, "Prime Cotton" MMC-nin Beyləqan innovasiya filialı, "Azər Aqro" MMC və digər müəssisələr fəaliyyətə başladı. Kəndlərdə həyat canlandı, torpaq mülkiyyətçilərinin faydalı  məşğulluğunun təmin edilməsi  istiqamətində uğurlu addımlar atıldı. Dövlət başçısının zamanında və son dərəcə əhəmiyyətli qərar qəbul etdiyini real həyat həqiqətləri təsdiq etdi.

İndi Mil düzünün büsatlı günləridir. Beyləqan kəndlisi məhsul bolluğuna etibarlı bünövrə  qoymaq üçün həvəslə çalışır. Çiyid səpini indi son hektarlarda davam edir. Cari ilin məhsulu üçün 8888,2 hektar sahəyə çiyid səpiləcək. Bu məqsədlə əvvəlcədən torpaq mülkiyyətçiləri ilə müqavilə bağlanmışdır. Keçən il rayonun təsərrüfatlarında 28247 ton pambıq istehsal edilmiş, hər hektarın orta məhsuldarlığı 32,9 sentner olmuşdur. Bu il isə hədəf qazanılmış nailiyyətləri daha da möhkəmləndirməkdir.

Beyləqanda taxılçılığın inkişafı da diqqət mərkəzindədir. Rayonun  "sarı kəhrəba" ustaları keçən il 47618 ton buğda, 10516 ton arpa istehsal etmişlər. Hazırda zəmilərin yaz becərilməsi aqrotexniki qaydalar əsasında davam edir. Bu il 15316 hektar sahənin məhsulu biçiləcək. Zümrüd  donlu zəmilər bol məhsuldan xəbər verir. Heyvandarlığın inkişafı unudulmur. Təsərrüfatlarda 59,7 min baş qaramal, 279 min baş  qoyun-keçi bəslənilir. Keçən il 8063 ton ət, 4027 ton süd, 603 ton yun istehsal edən heyvandarlar cari ildə daha yüksək məhsuldarlığa nail olmaq istəyirlər.

Elimizdə belə bir məsəl var: "Vur deyənlə vuran yarıdır". Səriştəli rəhbərlik, doğru yönəltmə, zəhmət adamlarına davamlı qayğı və yüksək diqqət son nəticəni təmin edən əsas amillərdəndir. Rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov beyləqanlılar üçün  əlçatandır. Müəyyən problemlə, çətinliklə üzləşən hər kəs istənilən vaxt onunla görüşüb dərdini deyə bilir. Müraciət edən rayon sakinlərinin böyük əksəriyyəti çox zaman nəticədən məmnun qalır. Əziz müəllim söhbət zamanı bu reallığı belə izah etdi: "Prezident İlham Əliyev bizə hər bir dövlət məmurunun xalqın xidmətçisi olduğunu tövsiyə etmişdir. Əlbəttə, öz xalqına xidmət etmək son dərəcə şərəfli missiyadır. Yerlərdə səyyar qəbul-görüşlər keçirmək, insanların ayağına getmək, onları narahat edən problemləri, əyər-əskikləri onların öz dilindən eşitmək və bununla əlaqədar operativ tədbirlər görmək vətəndaş-məmur münasibətlərini məmnunluq müstəvisində nizamlamaq üçün çox vacibdir. Birinin əkin suyuna ehtiyacı varsa, digərinin yolu yoxdursa, bir başqasının haqqı pozulursa, ilk növbədə dövlətdən umur. Buna göz yummaq olmaz. Biz bütün imkanlarımızı səfərbər edib vətəndaş məmnunluğuna nail olmağa çalışmalıyıq. Bu, dövlət başçısının tələbidir, hər bir məmurun vəzifə borcudur".

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Qubada qəzalı vəziyyətə düşən körpü bərpa olunur

**Quba rayonunda intensiv yağıntılar nəticəsində yaranmış güclü sel sularının qəzalı vəziyyətə saldığı körpünün bərpasına başlanılıb.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən verilən məlumata görə, Quba-Qonaqkənd-Muçu avtomobil yolunun 7-ci kilometrində Qaraçay çayı üzərində 101 metr uzunluğa malik və 4 aşırımdan ibarət körpünün dayaqları sel suları nəticəsində yuyulmuşdu.

Dərhal əraziyə agentliyin əməkdaşları cəlb olunaraq əlavə təhlükəsizlik tədbirləri görülüb və körpü ilə avtonəqliyyat vasitələrinin hərəkəti tam məhdudlaşdırılıb. Körpüyə mütəxəssislər tərəfindən baxış keçirilərək əraziyə xüsusi texnikalar və canlı qüvvə səfərbər olunub.

Sürücülər müvəqqəti olaraq alternativ yol kimi Quba-Pirvahid-İkinci Nügədi avtomobil yolundan istifadə edirlər.



## Aqroturizm sahəsində imkanlar və perspektivlər müzakirə edilmişdir

**Daşkəsəndə "Aqroturizm sahəsində imkanlar və perspektivlər" mövzusunda "dəyirmi masa" keçirilmişdir.**



Rayon icra hakimiyyətinin, İqtisadiyyat Nazirliyinin Gəncə-Qazax regional bölməsinin, KOBİA-nın Gəncə-Qazax regional koordinatorluğunun, Gəncə Regional Turizm İdarəsinin, eləcə də bələdiyyə sədrləri və yerli sahibkarların iştirakı ilə keçirilən tədbiri rayon icra hakimiyyəti  başçısının müavini Vüqar Məmmədov açaraq aqroturizm sahəsində görülən və görülməsi vacib olan işlərdən danışmışdır. Qeyd etmişdir ki, dağlıq relyefi, zəngin təbiəti və özünəməxsus kənd təsərrüfatı ənənələri Daşkəsəndə aqroturizm üçün əlverişli şərait yaradır: "Rayon əhalisi uzun illərdir ki, heyvandarlıq, arıçılıq və əkinçiliklə məşğul olur ki, bu da turistlərə orqanik məhsullar təqdim etməyə və onlara kənd həyatını yaxından tanıtmağa imkan verir. Rayonda aqroturizmin inkişafı ilə əlaqədar aidiyyəti qurumlarla birgə müxtəlif tədbirlər həyata keçirilir. Hazırda bu sahədə infrastrukturun təkmilləşdirilməsi, peşəkar kadrların hazırlanması, hüquqi və texniki maarifləndirmənin aparılması, marketinq və tanıtımın təşkili, investorların cəlb olunması istiqamətində işlər aparılır".

Görüşdə sahibkarların bu sahədə mövcud olan problemləri də dinlənilmişdir. Sonra KOBİA-nın, Dövlət Aqrar İnkişaf Mərkəzinin və digər dövlət qurumlarının dəstək mexanizmləri və xidmətləri barədə iştirakçılara ətraflı məlumatlar verilmiş, güzəştli kreditlərdən istifadə qaydaları izah olunmuş, maarifləndirici materiallar paylanmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*



# Mədəniyyət



Azərbaycan Milli Mətbuatı - 150

# Maarifçi ziyalılarımızın "Qeyrət"i

## Bu il "Qeyrət" mətbəəsinin 120 yaşı tamam olur

**Bu il ictimai fikir tariximiz üçün son dərəcə əlamətdar bir ildir. 22 iyul 2025-ci ildə Azərbaycan milli mətbuatının ilk qaranquşu "Əkinçi" qəzetinin nəşrə başlamasından 150 il ötür.**

**Bu tarixin müstəsna əhəmiyyətini nəzərə alaraq Prezident İlham Əliyev Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. Sərəncamda da qeyd edilir: "Əkinçi"dən sonra onun ənənələrini davam etdirən çoxsaylı nəşrlər dövrün vətənpərvər ziyalılarını, maarifçilərini eyni məslək ətrafında birləşdirərək, milli oyanış prosesinin aparıcı vasitələrindən biri kimi, ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynamışlar".**

**Böyük Həsən bəy Zərdabinin 1875-ci ildə xalqımıza dərin sevgi, Azərbaycanın gələcəyinə parlaq ümidlərlə yaratdığı "Əkinçi" 150 il ərzində yeni-yeni mənəvi dəyərlərimizə həyat bəxş etmiş, onun işığına digər mənəviyyat çıraqları da qoşulmuş, milli düşüncə onların nurunda aydınlığa çıxmışdır. "Əkinçi"dən sonra ərsəyə gələn belə dəyərli hadisələrdən biri 1905-ci ildə yaradılmış "Qeyrət" mətbəəsidir. Tarixin və taleyin xoş bir təsadüfüdür ki, bu il "Əkinçi" qəzetinin 150 illiyi ilə yanaşı, həm də "Qeyrət" mətbəəsinin yaranmasının 120 illiyidir.**

150 il əvvəl Bakıda "Əkinçi" qəzetini mətbəədə yığdırmaq üçün hürufat və onu yığacaq mürəttib tapmaq Həsən bəy Zərdabi üçün müşkülə çevrilmişdi. O, Bakı quberniyasında mürəttib işləyən Minasov soyadlı bir erməninin ümidinə qalmışdı və həmin erməni öz xislətindən irəli gələn bədxahlıq xəstəliyinin təsirindən çar idarələrinə Azərbaycan ziyalısından, onun xalqın gələcəyi üçün yaratdığı qəzetdən yazdığı danoslarla, etdiyi casusluqlarla milli mətbuatımızın ilk müjdəçisinin ömrünün cəmi 2 ildən sonra tamamlanmasında böyük "rol oynamışdı".

Bu dövrdən 30 il sonra isə artıq Tiflisdə digər iki böyük ziyalımız - Cəlil Məmmədquluzadənin və Ömər Faiq Nemanzadənin, eləcə də onların təşəbbüsünə dəstək verən tacir Məşədi Ələsgər Bağırov adlı millət təəssübkeşinin təməlini qoyduqları Azərbaycan mətbəəsi vardı. O, milli mətbuatımızın daha bir zirvəsi "Molla Nəsrəddin"i dünyaya gətirmiş "Qeyrət" mətbəəsi idi.

"Qeyrət" mətbəəsi, əslində, 1903-cü ildən Tiflisdə əvvəlcə həftədə 3 dəfə, sonra isə gündəlik çıxan "Şərqi-rus" qəzetinin nəşr olunduğu mətbəənin əsasında yaradılmışdı. "Şərqi-rus" 1891-ci ildə "Kəşkül" qəzeti bağlandıqdan sonra Tiflisdə nəşr olunan ilk azərbaycandilli qəzet idi. Qəzetin qurucusu Məhəmməd Ağa Şahtaxtinski 1902-ci ildə Fransadan qayıdandan sonra öz doğma Şahtaxtı kəndindəki ata mülkünü satıb Tiflisə köçmüş, orada mətbəə yaratmışdı. Uzun illər Azərbaycan dilində qəzet buraxmaq arzusunda olan və dövlət idarələrinə bununla bağlı ardıcıl müraciətlər edən Məhəmməd ağaya, nəhayət ki, növbəti cəhdlərinin birində "Şərqi-rus" qəzetini buraxmağa icazə vermişdilər. Qəzetin fəaliyyətində C.Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Ə.Nəzmi, M.S.Ordubadi kimi ziyalılarımız yaxından iştirak etmişlər. Elə Cəlil Məmmədquluzadə ilə Ömər Faiq Nemanzadənin ilk tanışlığı da "Şərqi-rus"un redaksiyasında olmuşdu.

Sonralar Bakıda Hacı Zeynalabdin Tağıyevin dəstəyi, Əhməd bəy Ağayev və Əli bəy Hüseynzadənin redaktorluğu ilə Azərbaycan dilində "Həyat" adlı qəzetin nəşri ərəfəsində Məhəmməd ağa Şahtaxtinski qəzeti bağlayaraq Bakıya köçməyə qərar verdi. Onun sonuncu nömrəsi 1905-ci il yanvarın 15-də buraxıldı. Naşir Tiflisdə sahib olduğu mətbəəni də satışa çıxardı.

### "Ziyalılarda pul, pullularda ziya yox idi"

Ömər Faiq Nemanzadə mətbəəni almağı Cəlil Məmmədquluzadəyə təklif edəndə onların heç birinin buna maddi imkanları yox idi. Bu barədə Ömər Faiqin xatirələrindən oxuyuruq: "Çoxdan həsrətini çəkdiyim türk mətbəəsinin alverçilər əlinə düşüb dağılmasına heç bir surətdə razı olmamağımı, nə yolla olursa-olsun onu saxlamaq gərəkliyini Mirzə Cəlilə dedim. Cəlil gülüb: "Çox əcəb, sözüm yox. Lakin Məhəmməd ağa söz yox ki, pul istəyəcək. O da ki, nə səndə, nə də ki məndə. Bir də Faiq, Məhəmməd ağa bilsə ki, mətbəə sənin əlinə keçəcəkdir, qorxuram bizə heç verməyə. Dedim: "Mənim adımı çəkmə, sən Məhəmməd ağanı bir az vaxt dayandır, pul tapacağına söz ver, qorxma".

Mirzə Cəlil isə həmin günləri məşhur "Xatiratım" memuarında belə yada salır: "…biz mətbəəni ələ keçirmək, gələcəkdə ondan istifadə etmək niyyəti ilə başladıq elə bir üçüncü yoldaş axtarmağa ki, o bir qədər pula malik olsun". Belə bir adamı tapmaq isə o qədər də asan başa gəlmədi. Ömər Faiq yazır ki, üçüncü adamı əvvəlcə ziyalılar arasında axtarsalar da, tapa bilməyiblər. "Çünki ziyalılarda pul, pullularda ziya yox idi".

Nəhayət, Ömər Faiq belə bir adamı tapa bilir. Bu, Tiflisdə yaşayıb ticarətlə məşğul olan naxçıvanlı Məşədi Ələsgər Bağırov idi. Onunla Ömər Faiq arasında dost münasibətləri vardı. Bəzən Ömər Faiq evinə lazım olan ərzaqları da Məşədinin baqqal dükanından nisyə götürər, ayın sonunda borclarını bağlayardı. Məşədi Ələsgər Bağırov mətbəəni almaq üçün onlara 7 min manat pul verməyə razılaşır. Cəlil Məmmədquluzadə "Xatiratım" memuarında yazır: "…Həmin yoldaş Məhəmməd ağaya bir qədər pul verməyi boynuna çəkdi və verdi də. Və həmin vaxtda ki, sənə min doqquz yüz beşinci ilin yaz fəslinə təsadüf eləyir, biz yəni mən, Ömər Faiq və Məşədi Ələsgər bir tərəfdən və Məhəmməd ağa o biri tərəfdən notarius vasitəsilə razılaşdıq ki, mətbəə qalsın bizim ixtiyarımızda, bu şərtlə ki, qəzetin və mətbəənin iki min manat borcunu biz öhdəmizə götürək".

### Milli inkişaf üçün vasitə

Tədqiqatçılar yazırlar ki, mətbəə bu şərtlə Məhəmməd ağadan təhvil alınandan sonra onu Tiflisin ovaxtkı Peski küçəsində qonşuluqdakı daha münasib bir evə köçürürlər. Mətbəə rəsmi surətdə "Qeyrət" mətbəəsi adlandırılır və fəaliyyətə başlayır. Amma az sonra xərclərə qənaət üçün mətbəəni qonşuluqda Krasnovodski küçəsindəki ikimərtəbəli binaya köçürməli olurlar. Alt mərtəbədəki geniş otaqlarda mətbəə avadanlıqlarını quraşdırırlar. Üst mərtəbədə isə Mizə Cəlil özü yaşayır. "Leyli" adlı bir məktəb də yaradır, burada 15-20 şagird toplayıb, onları məktəblərə daxil olmağa hazırlayır. Mətbəənin də, məktəbin də rəsmi müdiri Cəlil Məmmədquluzadə idi. Səbəbini belə izah edir ki, "həmin müəssisələri təsis etmək icazəsini o əsrin hökuməti bəlkə ancaq mənə verərdi və Ömər Faiqə verməzdi. Bu cəhətə ki, mən hökumət darülmüəllimini bitirmiş bir cavan idim, amma Ömər Faiq Türkiyədə təhsil tapmış bir cavan idi və zənn edirəm ki, mətləb burada aşikar olur".



Mətbəənin ilk elanında yazılırdı: "Tiflisdə "Qeyrət" mətbəəsi türkcə, farsca, ərəbcə, rusca və firəngcə hər növ kitab, məcmuə və hər cür tüccar və divanxana dəftər və kağızları ən gözəl hərf ilə çap edir".

Mirzə Cəlil də, Ömər Faiq Nemanzadə də bu mətbəəyə gəlir mənbəyi deyil, milli oyanış, milli dirçəliş, mədəni tərəqqi üçün bir vasitə kimi baxırdılar. Bu işdə sərvət sahibləri ilə bərabər, qələm sahiblərindən, millət qeyrəti çəkən nisbətən imkanlı adamlardan gözləntiləri böyük idi. Amma o zaman ətrafda elə adamlar da barmaqla sayılardı. Bu baxımdan Məşədi Ələsgər Bağırovun xərclədiyi pullar onlara çox böyük kömək olur.

### Cənubi Qafqazda ilk maarif şirkəti

Ömər Faiq Nemanzadənin xatirələrindən 1907-ci ildə onların mətbəəni böyütmək məqsədilə "Qeyrət kampaniyası" adı altında bir şirkət təsis etdiklərini də oxuyuruq. Onlar mətbəənin 7 min manatlıq dəyərini 28 səhmə bölmüş, hər paya 250 manat hesabı ilə hər biri iki pay götürüb, qalan 22 səhmi satışa çıxarmışlar. Beləliklə, "Qeyrət şirkəti" 28 pay sahibinin mülkiyyətinə keçmişdi.

Bununla belə Mirzə Cəlilin xatirələrindəki bəzi qeydlər mətbəə işinin onlara böyük gəlir gətirmədiyini göstərir. Yazırdı ki, gah mətbəə işlərimiz və gah məktəb işlərimiz bizə xeyli zərər verirdi: "Çünki nə mənim, nə yoldaşım Faiqin maddi qüvvəmiz var idi, onunçün məxaricin və zərərin cümləsini üçüncü yoldaşımız Məşədi Ələsgər çəkirdi. Həmin məşədi yoldaşımı hədsiz təşəkkürlərlə yad edirəm və deyirəm ki, bu yoldaşımız məşədi məsləkiliyi ilə bərabər o qədər ki, maarifə və maarif yolunda xərc qoymağa həvəsi var idi, az bir qeyri məşədidə də belə həvəs ola bilər. "Qeyrət" mətbəəsinin möhkəmlənməyi yolunda da və pansionumuzun davamı yolunda da onun xeyli xərci çıxdı…"




O dövrün şərtlərinə görə, "Qeyrət" mətbəəsinin texniki imkanları qaydasında idi. Ö.F.Nemanzadə də "Qeyrət"in Cənubi Qafqazda birinci maarif şirkəti kimi lazımi avadanlıqla təchiz olunduğunu yazır. Belə ki, mətbəədə böyük çap maşını, bir amerikanka maşını, 10 mürəttib işləyəcək qədər hərf və hərf kassaları vardı. Maşınları Moskvada "Modern" adı ilə fəaliyyət göstərən alman şirkətindən almışdılar.

"Qeyrət" mətbəəsi üç otaqda yerləşmişdi. Otaqların birində mürəttiblər işləyirdilər. Kiçik otaqda çap maşını qurulmuşdu, digər otaq isə mətbəə müdirinə aid idi. Çap maşını əl ilə işləyirdi. O vaxt Tiflisdə elektriklə işləyən çapxana maşınları da vardı. Amma onlar çox baha başa gəlirdi və ancaq böyük mətbəələrdə vardı. Cəmi 6-7 min manatla qurulmuş "Qeyrət" mətbəəsinə elektriklə işləyən böyük maşınlar gətirmək onun qurucularının imkanları xaricində idi. Bununla belə hər halda mətbəənin texniki baxımdan heç nəyə ehtiyacı yox idi. Burada ən müxtəlif formada və məzmunda çap materialları işıq üzü görürdü. "Molla nəsrəddinçilər" adı ilə məşhur olan fikir cərəyanı məhz "Qeyrət" mətbəəsində ilk ideya mübarizəsinə qədəm qoyur.

### Maarif və mədəniyyətin ən birinci vasitəsi

"Qeyrət"də çap olunan ilk kitab Ömər Faiqin "Nəşri-asarə dəvət" ("Əsərlərin nəşrinə dəvət") əsəridir. Bu əsər həm də Azərbaycan mətbəə və mətbuat tarixi haqqında ilk kitabdır. Ömər Faiq kitabında yazırdı: "Bizim üçün istifadə və tərəqqi qapısı indilik, top, tüfəng və dinamit vasitəsilə aşılmaz. Biz bu gün ancaq hər qüvvətin, hər xahişin, hər fikrin anası və kökü olan maarif və mətbuat olduğunu bilməliyik. Maarif və mədəniyyətin bu gün ən birinci vasitəsi, ən qüvvətli naşiri isə kitab və qəzetlərdir - mətbuatdır".

Mətbəənin çap etdiyi ilk kitablardan biri də Firdovsinin "Şahnamə"sindən bir hissədir. "Rüstəm və Söhrab" adlanan həmin hissəni Rəşid bəy Əfəndiyev tərcümə etmişdi və bu, əsərin Azərbaycan dilinə ilk tərcüməsi idi. Altmış min beytlik "Şahnamə"dən Rəşid bəy Əfəndiyev o dövrün oxucuları üçün, demək olar ki, ən maraqlı hissəni seçmişdi, "Qeyrət"in sahibləri də bu mətni məmnuniyyətlə çap etmişdilər. Onlar lazımlı, faydalı, hər kəsin anlaya biləcəyi dildə, üslubu xoş və səlis kitabların çapına xüsusi əhəmiyyət verirdilər.

Mətbəədə işıq üzü görən kitabların bəziləri pulsuz paylanır, bəziləri isə ucuz qiymətə satılırdı. Bir çox halda isə kitabları "Molla Nəsrəddin" jurnalına əlavə kimi oxuculara hədiyyə göndərirdilər. "Rüstəm və Söhrab"dan, "Nəşri-asara-dəvət"dən başqa, burada Cəlil Məmmədquluzadənin "İranda hürriyyət", "Poçt qutusu", "Usta Zeynal", "Qurbanəli bəy", Əlimirzə Nərimanovun "Nəsihətül-əftal", Harun Sultanovun "Vətən yolu", "Azadə danışmaq və yerə cəm olmaq nə üçün lazımdı" kitabçası da o illərdə "Qeyrət" mətbəəsində nəşr olunan kitablardandır. Bundan başqa, mətbəədə Əhməd bəy Cavanşirin "Şeirlər məcmuəsi", Əbdürrəhim bəy Haqverdiyevin "Millət dostları" pyesi, A.O.Çernyayevskinin "Vətən dili" dərsliyi, M.S.Ordubadinin və başqalarının əsərləri işıq üzü görmüşdü.

"Qeyrət" ictimai-siyasi və dini kitablar, bədii əsərlər, pedaqoji ədəbiyyat, rus, ərəb, fars dillərində tərcümə əsərləri ilə yanaşı, intibahnamələr, vərəqələr və təqvimlər də çap edirdi. Mətbəənin milli mətbuat tariximizə bəxş etdiyi ən böyük zirvə isə, təbii ki, "Molla Nəsrəddin"dir.

Bütün xalqların tarixində qeyrət vaxtı olur və gələcəyə görə məsuliyyəti üzərinə götürüb, bütün gücünü, varlığını buna həsr edən millət qeyrətli şəxsiyyətlərə həyati ehtiyac yaranır. Cəmiyyətlər öz inkişaflarına görə onlara borcludurlar.

Nə xoş ki, tariximiz və taleyimiz Azərbaycan xalqı olaraq bizi də belə şəxsiyyətlərdən xali etməyib. "Qeyrət" mətbəəsinin qurucuları da bunun ziyalı nümayəndələridir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

30 Aprel Beynəlxalq Caz Günüdür

# Azadlıq şərqisi

## Caz yalnız musiqi deyil, həyat, düşüncə tərzidir

**Əbəs yerə demirlər ki, musiqi ruhun qidasıdır O, dil, din, irq, millət, cinsiyyət fərqi qoymadan hər yaşdan, hər mədəniyyətdən olan insanlara təsir edir, ruhunu yüksəldir. Musiqi insanlara yaşadıqlarını, sözlərlə ifadənin yetərsiz olduğu, hiss etdiklərini ifadə edə bilmədiyi məqamlarda yardım edir. Caz kimi...**



Qərbi Avropa və Qərbi Afrika musiqilərinin sintezi olan cazı vaxtilə ABŞ-də istismar edilən hüquqsuz zənci əhalisi, öz vətənlərindən didərgin salınmış kölələr yaradıb, musiqi ilə təskinlik tapıblar. XX əsrin əvvəllərində musiqidə yaranmış bu istiqamət Afrika ritmləri, ritual şənliklər, iş və dünyəvi mahnıları, keçmiş əsrlərin Amerika musiqisini əhatə edir. Caz musiqisi insan ləyaqəti, demokratiya və vətəndaş hüquqları axtarışlarından ayrı-seçkiliyə və irqçiliyə qarşı mübarizəyə qədər dünyəvi mövzulara, eləcə də insanlar arasında empatiya, dialoq və qarşılıqlı əməkdaşlığın gücləndirilməsi kimi məsələlərə güclü bədii təkan verib. Məşhur müğənni, bəstəkar Nina Simonun da dediyi kimi: "Caz yalnız musiqi deyil, həyat, var olma, düşüncə tərzidir".

2012-ci ildən etibarən UNESCO-nun sülhməramlı səfiri, Caz İnstitutunun rektoru, dünyaşöhrətli caz pianoçusu Hörbi Hənkokun təşəbbüsü və UNESCO-nun təşkilatçılığı ilə hər il aprelin 30-u Beynəlxalq Caz Günü kimi qeyd olunur. Dünyanın 190-dək cazsevər ölkəsində bu gün konsert proqramları, festivallarla yadda qalır. Bu əlamətdar gün 2017-ci ildən etibarən ölkəmizdə də geniş şəkildə qeyd olunur.

Cazın əsas xüsusiyyətləri improvizasiya, ritm sərbəstliyi və geniş melodik nəfəsdən ibarətdir. Ritmdəki müntəzəm vurğuların və bu vurğulardan yayınmaların mövcudluğu caz musiqisinə özünəməxsus rəngarənglik verir. Bu gün bütün dünyada azadlıq şərqisi kimi səslənən cazın öz qolu, axarı və cəzbetmə qüvvəsi var. Məsələn, Braziliya, Kuba, Polşa, Azərbaycan və digər ölkələrdə cazın spesifik çalarları mövcuddur. Xalq musiqisi və muğam harmoniyası ilə birləşdirilərək ifa edilən Azərbaycan cazı dünyada öz unikallığı ilə seçilir.

Azərbaycan cazının bünövrəsi ötən əsrin 30-cu illərinin sonunda görkəmli musiqi xadimləri Niyazi və Tofiq Quliyevin yaratdıqları "Dövlət cazı" adı ilə tanınan Dövlət Estrada Orkestri tərəfindən qoyulub. Ansamblın ilk tərkibi üç trombon, eyni sayda truba, beş saksafon, royal, gitara və zərb alətlərindən ibarət olub. Orkestrin ilk konsert proqramına klassik cazla birlikdə Niyazinin və Tofiq Quliyevin pyesləri də daxil edilib.

Böyük Vətən müharibəsi qurtarandan sonra "Dövlət cazı"nın rəhbərliyini Rauf Hacıyev həyata keçirib. Amma 1950-1960-cı illərdə SSRİ-nin Qərb əleyhinə yönəlmiş təbliğatı ölkədə cazın inkişafına güclü ziyan vurub. Ancaq bütün qadağalara baxmayaraq, bu musiqi janrının fanatları bir yerə toplaşır, Qərb radiostansiyalarını dinləyir, sonra isə eşitdikləri musiqi parçalarını müstəqil surətdə ifa edirdilər. 1960-cı illərdə Qara Qarayev, Niyazi, Tofiq Quliyev və Rauf Hacıyevin dəstəyi və rəhbərliyi ilə Azərbaycanda estrada və caz musiqisinin ikinci həyatı başlayıb. Rafiq Babayevin rəhbərliyi altında "Qaya" kvarteti yaranır və nəhayət, Vaqif Mustafazadə dövrü başlanır.

Azərbaycan cazının inkişaf dövrü dünya lirik cazının banisi sayılan musiqiçi və bəstəkar Vaqif Mustafazadənin adı ilə bağlıdır. O, musiqiyə hamı kimi yox, fərqli, yeni nəzərlə baxırdı. Bəstəkarın musiqisində, duyumunda Qərbin caz üslubu, elementləri ilə yanaşı, Şərqin qəlbi riqqətə gətirən duyğu çalarları görünürdü. Təsadüfi deyil ki, onu Azərbaycan Muğam Caz Hərəkatının memarı adlandırırlar. Vaqif Mustafazadənin barmaqları pianonun dillərinə toxunduqca dinləyicilər heç vaxt eşitmədikləri musiqinin sehrində özlərini unudurdular. Gözəl qəlbi, humanist xarakteri ilə seçilən musiqiçi bunu öz əsərləri ilə bir növ tamamlayır, bütövləşdirirdi.

Dövrünün bir çox görkəmli caz sənətkarının, o cümlədən Con Koltreyn, Bill Evans, Con Maklaflin, Çik Koria və başqalarının istifadə etdikləri folk-caz, fyucn kimi cərəyanları öz yaradıcılığı üçün çıxış nöqtəsinə çevirib, onları parlaq surətdə tətbiq edən Vaqif Mustafazadə "muğam-caz" adlandırılan metod və üslub kateqoriyasını formalaşdırıb. Sənətkarın milli musiqi, xüsusilə muğam duyumu onun bütün yaradıcılığını idarə etmiş əsas amillərdən biri kimi həm caz yaradıcılığına təsir edib, həm də özünü ifadəetmə vasitəsinə çevrilib. Vaqif Mustafazadə ilk dəfə Gürcüstanda -Tbilisi Dövlət Filarmoniyasında "Qafqaz" caz-triosunu, "Leyli" qadın kvartetini təşkil edərək, "Sevil" vokal-instrumental ansamblına və "Muğam" instrumental ansamblına rəhbərlik edib.

Vaqif Mustafazadə ənənələri bu gün də görkəmli musiqiçilər tərəfindən davam etdirilir. Azərbaycan cazının günümüzdə də dünyaya səs salmasında ölkəmizdə ənənəvi olaraq hər il baş tutan Bakı Caz Festivalının rolu böyükdür. 2005-ci ildən etibarən keçirilən tədbir ölkələr arasında mədəni töhfəni gücləndirmək, genişləndirmək, eləcə də dünya ölkələrinin mədəni irsini tədqiq etmək üçün böyük imkanlar yaradır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# "Bakı: kainat boyunca" tamaşasının premyerası baş tutub

**"Bakı: kainat boyunca" adlı psevdoimmersiv tamaşanın premyerası Bakı Musiqi Akademiyası nəzdindəki Opera Studiyasının səhnəsində uğurla baş tutub.**



Tamaşa Lalə Əliyeva-Klıçkova və Meyxoş Abdullayevin novellaları əsasında səhnələşdirilib və "İki stul" teatr emalatxanasının yaradıcı kollektivi tərəfindən həyata keçirilib.

Tamaşada əsas rolları İsmayıl Əliyev, Anastasiya Lenkovskaya və İnqa Baxoldina ifa ediblər. Tamaşanın quruluşçu rejissoru Rüstəm İbrahimbəyov Kino Məktəbinin məzunu Lalə Əliyeva-Klıçkovadır. Layihənin prodüserləri Zaur Əliyev və Alyona Xarçenkodur. Tamaşanın süjeti bəşərin mövcudluğu məsələsini həll edən tale sahiblərinin ətrafında cərəyan edir. Gələcək Bakı sakinlərinin adi hərəkətlərindən asılıdır…

Müstəqil "İki stul" teatr emalatxanası 2023-cü ilin mart ayında yaradılıb və xaricdəki rusdilli Teatr Xadimləri Assosiasiyasının üzvüdür. "Bakı: kainat boyunca" tamaşası "O dünyadan gələn qonaq" və "Meri Poppins" tamaşalarından sonra teatrın repertuarındakı üçüncü işdir.

# Azərbaycan incəsənət ustaları III Fuceyra Beynəlxalq Ud Forumunda iştirak edəcəklər

**Mayın 5-dən 7-dək Birləşmiş Ərəb Əmirlikləri Fuceyra Gözəl Sənətlər Akademiyası "Bir ud, çoxlu mədəniyyətlər" adlı III Fuceyra Beynəlxalq Ud Forumu keçirəcək. Forumda Azərbaycanı Beynəlxalq Muğam Mərkəzinin solisti, tarzən Rəşad İbrahimovun rəhbərliyi ilə musiqi qrupu təmsil edəcək.**

Mərkəzdən bildirilib ki, musiqi qrupunun heyətinə Əməkdar artist Çinarə Heydərova (qanun), Təbruz Yusubov (kamança), Nisbət Sədrayeva (xanəndə), İdris Hüseynov (ud), Vüsal Bayramov (nağara) və Rafael Əsgərov ( balaban) daxildir.

Fuceyra Mədəniyyət və Yaradıcılıq Mərkəzində keçiriləcək forumda Mərakeş Krallığından olan xüsusi qonaqlardan əlavə, Özbəkistan, Azərbaycan, Türkiyə, İran, Misir, Suriya, Oman, İraq və İspaniya da daxil olmaqla dünyanın müxtəlif ölkələrindən ud və milli musiqi alətləri ifaçıları iştirak edəcək. Tədbirin açılış mərasimində müxtəlif millətlərdən olan 50 musiqiçidən ibarət orkestr hind, özbək, Azərbaycan və türk üslubları ilə yanaşı, ispan flamenkosu, rok musiqisi və ərəb şərq musiqisi kimi müxtəlif musiqi üslublarını birləşdirən musiqi proqramı ilə çıxış edəcək.

Forumun ikinci və üçüncü günlərində solo və qrup çıxışlar dinləniləcək.




# Ballıcada növbəti 15 ailəyə mənzillərinin açarları verilib





Aprelin 29-da respublikanın müxtəlif şəhər və rayonlarından yola salınan növbəti köç karvanı Xocalı rayonunun Ballıca kəndinə çatıb.

AZƏRTAC xəbər verir ki, bu gün 15 ailə olmaqla 68 nəfər keçmiş məcburi köçkün doğma yurduna qovuşub. Ballıcaya köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Ailələrə evlərinin açarlarının təqdimatı mərasimində çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Telman Kərimli Ballıcaya köç edən sakinlərə yeni evlərində xoşbəxt həyat arzulayıb. Bildirib ki, bərpa edilən evlərdə məskunlaşan ailələrin məşğulluq məsələləri də diqqətdə saxlanır. Dövlət orqanları və özəl sektor tərəfindən işlə təminat həyata keçirilir. Kənd elektrik enerjisi, qaz, içməli su və yüksək sürətli internet xətti ilə təmin edilib.

Keçmiş məcburi köçkünlərə mənzillərin açarları təqdim edilib və ailələr yeni evlərində yerləşiblər.

Bununla da Ballıca kəndində 172 ailənin, yəni 811 nəfərin daimi məskunlaşması təmin olunub. Kəndə keçmiş məcburi köçkün ailələrinin köçürülməsi prosesi bundan sonra da davam edəcək.

# Ağdamın Sarıcalı kəndinə daha 39 ailə köçüb





İşğaldan azad olunmuş torpaqlara keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Dünən növbəti köç karvanı ilə Ağdam rayonunun Sarıcalı kəndinə çatan ailələrə mənzillərin açarları təqdim olunub.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Sarıcalı kəndinə 39 ailə - 169 nəfər köçürülüb. Sarıcalıya köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub. Açarların təqdim edilməsi mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Keçmiş məcburi köçkünlərə doğma ata-baba yurdlarında mənzillərin açarları təqdim edilib və ailələr yeni evlərində yerləşiblər. Bununla da Ağdam rayonunun Sarıcalı kəndində ümumilikdə 149 ailənin (609 nəfər) qayıdışı təmin olunub.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə 40 mindən çox insan yaşayır.

# *Ballıcaya qayıdan keçmiş məcburi köçkün:* "Ən böyük arzumuza çatmışıq"



"Mən Xocalını 20 yaşımda tərk etmişəm. Köçkünlük illərində müxtəlif yerlərdə məskunlaşdıq, çox çətinliklər gördük. Ən böyük arzumuz doğma Qarabağımıza qayıtmaq idi. Ali Baş Komandanın qətiyyəti, ordumuzun gücü sayəsində Qarabağımız işğaldan azad olundu və biz arzumuza çatdıq, doğma yurdumuza qayıtdıq".

AZƏRTAC xəbər verir ki, bu sözləri Xocalı rayonunun Ballıca kəndinə köç edən keçmiş məcburi köçkün Zəfər Məmmədov söyləyib.

"Bizə bu sevinci yaşadan Prezidentimizə, ordumuza təşəkkürümü bildirirəm. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərə cansağlığı versin", - deyə o bildirib.

# *Bakı Marafonunda rekord sayda iştirakçı:* 27 min nəfər qeydiyyatdan keçib

"Bakı Marafonu 2025"ə qeydiyyat başa çatıb. Mayın 4-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçiriləcək marafona 27 min iştirakçı qeydiyyatdan keçib. Bu, ötənilki marafonlarla müqayisədə ən yüksək iştirakçı sayıdır.




AZƏRTAC xəbər verir ki, "Küləyə qalib gəl"ənlər sırasında Azərbaycan vətəndaşları ilə yanaşı, digər ölkələrdən qoşulanlar da olacaq. Yürüşdə fiziki imkanları məhdud şəxslər, Daun sindromlu uşaqlar da iştirak edəcəklər.

Start və finiş nöqtələri Dövlət Bayrağı Meydanı olan marafonun marşrutu Dənizkənarı Bulvar, o cümlədən paytaxtın mərkəzi küçə və prospektləri olmaqla, ümumilikdə 21 km məsafəni əhatə edəcək. Marafon iştirakçıları qaçış zolağında kişi və qadın kateqoriyalarında ilk 3 yer uğrunda mübarizə aparacaqlar. Bununla yanaşı, finişə çatan ilk 2000 iştirakçıya medallar, bütün marafon iştirakçılarına və yarışın təşkilində dəstək göstərən könüllülərə isə sertifikatlar təqdim olunacaq.

Marafon iştirakçıları, şəhər sakinləri və qonaqlar üçün Dövlət Bayrağı Meydanında və marşrut üzrə müxtəlif ünvanlarda əyləncə zonası da yaradılacaq. Burada əyləncə proqramları, yarışlar, idman tədbirləri keçiriləcək.

OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Azərbaycan-İran münasibətlərində yeni səhifə
İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Məsud Pezeşkiana
Çin Azərbaycanı mühüm tranzit ölkə kimi qəbul edir
Ermənistan növbəti dəfə beynəlxalq hüquq müstəvisində məğlub oldu
Makronun rüsvayçılığı istefa tələbinə çevrildi

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Daş qayaya rast gəlib

## Hindistan-Pakistan münaqişəsinin nüvə müharibəsinə çevrilməsi mümkündürmü?

Nüvə silahına malik ola iki ölkə - Hindistan və Pakistan arasında münaqişə yenə kəskinləşib. Buna səbəb aprelin 22-də hərbi geyimli bir qrup silahlının Kəşmirin məşhur dağlıq bölgəsində istirahət edən turistlərə atəş açmasıdır. Nəticədə 26 turist həlak olub. Hücuma görə məsuliyyəti aztanınan "Kəşmir müqaviməti" adlı silahlı qrup öz üzərinə götürüb.



Hindistan hücumda Pakistanı günahlandırandan sonra iki ölkə arasında gərginlik artıb. Aviauçuşlar və ticarət dayandırılıb, pakistanlı diplomatlar ölkədən çıxarılıb. Ən əsası, Hindistan su müqaviləsindən çıxıb və Pakistan su təchizatını kəsmək cəhdini müharibə elanı kimi qiymətləndirəcəyini vəd edib.

Xatırladaq ki, iki ölkə arasında münaqişə 1947-ci ildən davam edir. Ekspertlərin fikrincə, bu qarşıdurmanın dini mənşəyi var. Kəşmirin hazırda Hindistana aid olan hissəsində əhalinin əksəriyyətini müsəlmanlar təşkil edir və onlar Pakistana birləşmək istəyirlər. Problemin həllini çətinləşdirən həm də Kəşmirin üç ölkə - Hindistan, Pakistan və Çin arasında qalmasıdır. Məsələ bundadır ki, Cammu və Kəşmirin cənub hissəsi Hindistanın nəzarətindədir. Şimal və qərb hissələri Pakistanın, şimal-şərq bölgələri isə Çinin tərkibindədir.

1960-cı illərdə Pakistan və Çin mübahisələrini həll ediblər. Belə ki, Pakistan mübahisəli hissəni Çinə verib. Hindistanın özününkü hesab etdiyi digər hissə - Aksay Çin isə Çinin nəzarətində qalıb. Üstəlik Çin Hindistanın nəzarətində olan ərazilərin bir hissəsinə də iddia edir. Odur ki, ərazi "barıt çəlləyi"dir.

Kəşmirdəki terror aktından sonra Hindistan Pakistana Hind çayının bölüşdürülməsi haqqında 1960-cı ildə imzalanmış sazişdən çıxmaq barədə ultimatum verib. Belə olarsa, Pakistan kənd təsərrüfatında böhran, elektrik enerjisi ilə bağlı problemlər və içməli su çatışmazlığı ilə qarşılaşa bilər.

Hər iki ölkənin nüvə silahına sahib olması da vəziyyəti gərginləşdirir. Allah eləməsin, müharibə başlayarsa, bu, qlobal fəlakət deməkdir. Biz hələ Hindistanın dünyada əsas buğda becərmə mərkəzi sayılan Pəncab əyalətində yaranacaq vəziyyəti demirik.

Bəs eskalasiya mümkündürmü? Hazırda ekspertlər regiondakı siyasi vəziyyəti belə qiymətləndirirlər: Pakistan bu gün iqtisadi və siyasi cəhətdən Çindən çox asılıdır, Hindistan isə ifrat millətçi hökumət tərəfindən idarə olunur. Analitiklərin fikrincə, Baş nazir Narendra Modi və kabineti Hindistan kimi çoxmillətli ölkəni bir dil və bir din əsasında birləşdirməyə çalışır. Bu isə çox riskli bir qərardır. İndiki halda hökumət çox "mozaik" olan cəmiyyəti konsolidasiya etmək üçün "xarici düşmən" axtara bilər. Buna görə də eskalasiya riskləri az deyil.

Hindistan silahlı qüvvələri hazırda ölkə boyu intensiv təlimlər keçirir. Müdafiə Nazirliyinin nümayəndəsi qeyd edib ki, bu təlimlərin bəziləri planlaşdırılıb və döyüş hazırlığının artırılmasına yönəlib.

Kəşmirin Hindistan hissəsində hüquq-mühafizə orqanlarının əməkdaşları isə 1000-ə yaxın evdə və meşəlik ərazidə axtarış apararaq genişmiqyaslı həbslər həyata keçiriblər. Yerli polisin məlumatına görə, 500-ə yaxın adam dindirilmək üçün saxlanılıb.

Bu arada Pakistan hakimiyyətinin Hindistana yeni müharibənin qarşısını ala biləcək plan təklif etdiyi məlum olub. İslamabad Yeni Dehlini Kəşmirdə turistlərin səs-küylü qətli ilə bağlı neytral araşdırma aparmağa çağırıb, əməkdaşlığa və sülhə hazır olduğunu bəyan edib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Azərbaycanda "Baku Flames Beynəlxalq Yaradıcılıq və Effektivlik Festivalı" keçiriləcək

Mayın 2-3-də Mədəniyyət Nazirliyinin dəstəyi və "Endorphin" reklam agentliyinin təşkilatçılığı ilə ilk dəfə Bakıda reklam, marketinq, brendinq və dizayn sahəsində fəaliyyət göstərən yaradıcı şəxsləri bir araya gətirəcək "Baku Flames Beynəlxalq Yaradıcılıq və Effektivlik Festivalı" keçiriləcək.

Nazirlikdən bildirilib ki, festivalın əsas məqsədi yaradıcı şəxsləri bir platformada birləşdirmək, istedadları tanıtmaq və onların beynəlxalq arenada tanınmasına şərait yaratmaqdır. Tədbir çərçivəsində panel müzakirələr və interaktiv sessiyalar, tanınmış beynəlxalq spikerlərin təqdimatları, ustad dərsləri və seminarlar, "Baku Flames Mükafatlandırma Mərasimi" və s. təşkil olunacaq. Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə yaradılmış "Yaradıcı Market"in məhsulları "Baku Flames" festivalı çərçivəsində ziyarətçilərin diqqətinə təqdim olunacaq.

Bu il ilk dəfə olaraq Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil olunan "Young Lions Azerbaijan" yaradıcılıq müsabiqəsi də "Baku Flames" festivalı çərçivəsində keçiriləcək. Növbəti "Young Lions" müsabiqəsində komandalar təqdim olunmuş xülasə əsasında "Film", "Dizayn" və "Print" olmaqla üç kateqoriya üzrə mübarizə aparacaqlar.

"Print" kateqoriyası üzrə xülasə Pasha Malls, "Film" kateqoriyası üzrə xülasə Mədəniyyət Nazirliyinin "Yaradıcı Mərkəz" layihəsi və "Dizayn" kateqoriyası üzrə xülasə isə Code Academy tərəfindən komandalara təqdim olunmuşdur. Təqdim olunan işlər beynəlxalq münsiflər tərəfindən dəyərləndiriləcək. Qaliblər iyunun 16-dan 20-dək Fransanın Kann şəhərində keçiriləcək dünyanın ən nüfuzlu reklam festivalı olan "Cannes Lions"da iştirak hüququ əldə edəcəklər.

Təxminən 1500 iştirakçının qatılacağı "Baku Flames" festivalı yaradıcı şəxslər, agentliklər və gənc istedadlar üçün ideya mübadiləsi və əməkdaşlıq üçün geniş imkanlar yaradacaq.

Qeyd edək ki, bu festival Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planına uyğun olaraq həyata keçirilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi "Xalq Bank" ASC-nin Müşahidə Şurasının sədri Asim Məmmədliyə atası

**MAHMUD MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3516
Sifariş 869

Qiyməti 60 qəpik